# “AZVİRT” MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

**Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına Uyğun Hazırlanmış Konsolidasiya edilmiş Maliyyə Hesabatları və Müstəqil Auditorların Rəyi**
31 dekabr 2018-ci il tarixinə

## “AZVİRT” MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

## MÜNDƏRİCAT


| | Səhifə |
|---|---|
| 31 DEKABR 2018-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ KONSOLİDASİYA EDİLMİŞ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI | 1 |
| MÜSTƏQİL AUDİTORLARIN RƏYİ | 2-3 |
| 31 DEKABR 2018-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ: | |
| Maliyyə vəziyyəti haqqında konsolidasiya edilmiş hesabat | 4-5 |
| Məcmu gəlir haqqında konsolidasiya edilmiş hesabat | 6 |
| Kapitalda dəyişiklik haqqında konsolidasiya edilmiş hesabat | 7 |
| Pul vəsaitlərinin hərəkəti haqqında konsolidasiya edilmiş hesabat | 8-9 |
| Konsolidasiya edilmiş maliyyə hesabatları üzrə qeydlər | 10-72 |

## KONSOLİDASİYA EDİLMİŞ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNƏ DAİR BƏYANATI
## 31 DEKABR 2018-Cİ TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ

Bu bəyanat "AzVirt" Məhdud Məsuliyyətli Cəmiyyəti (bundan sonra "Cəmiyyət") və onun törəmə müəssisələrinin (birlikdə "Qrup") konsolidasiya edilmiş maliyyə hesabatları ilə bağlı Qrup rəhbərliyinin və müstəqil auditorların göstərilən məsuliyyətlərini fərqləndirmək məqsədi ilə hazırlanmışdır.

Rəhbərlik, 31 dekabr 2018-ci il tarixinə Qrupun maliyyə vəziyyətini və həmin il tarixində başa çatmış il üzrə əməliyyat nəticələrini, kapitalda dəyişiklikləri və pul vəsaitlərinin hərəkətini əks etdirən konsolidasiya edilmiş maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Bəynəlxalq Standartları ("MHBS") müvafiq olaraq düzgün hazırlanması üçün məsuliyyət daşıyır.

Konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik aşağıdakılara cavabdehdir:

- Uyğun mühasibat prinsiplərinin seçilməsi və mütəmadi olaraq tətbiq edilməsi;
- Məntiqli və məqsədəuyğun təxminlərin və qərarların qəbul edilməsi;
- Konsolidasiya edilmiş maliyyə hesabatlarının mühasibat uçotu siyasətinə uyğunluğunun bəyan edilməsi və əgər bu standartlardan əhəmiyyətli kənarlaşmalar varsa, bu halların konsolidasiya edilmiş maliyyə hesabatlarında açıqlanması və izah edilməsi; və
- Əgər yaxın gələcəkdə Qrup işini normal şərtlər altında davam etdirəcəksə, hesabat tarixinə konsolidasiya edilmiş maliyyə hesabatlarının davamlılıq prinsipi əsasında hazırlanması.

Rəhbərlik, həmçinin aşağıdakılara görə məsuldur:

- Qrup daxilində səmərəli və keyfiyyətli daxili nəzarət sisteminin işlənib hazırlanması, qurulması və möhkəmləndirilməsi;
- Qrupun konsolidasiya edilmiş maliyyə hesabatlarının mühasibat uçotu siyasətlərinə uyğun olaraq düzgün hazırlanması və Qrupun maliyyə vəziyyətini istənilən zaman düzgün əks etdirən mühasibat sisteminin təşkil edilməsi;
- Yerli mühasibat sisteminin qanunvericilik və Azərbaycan Respublikasının mühasibat standartlarına uyğun olaraq təşkil edilməsi;
- Mümkün imkanlardan istifadə edərək Qrupun aktivlərinin qorunmasının təşkil olunması; və
- Saxtakarlıq, yanlışlıq və digər qanunauyğunsuzluq hallarının müəyyən edilməsi və qarşısının alınması.

31 dekabr 2018-ci il tarixində başa çatmış il üzrə konsolidasiya edilmiş maliyyə hesabatları 8 iyul 2019-cu il tarixində Qrupun rəhbərliyi tərəfindən təsdiq edilmişdir.

**Rəhbərliyin adından:**

| | |
|---|---|
| **Elnur Əliyev** | **Məzahir Məmmədov** |
| **İdarə Heyətinin üzvü** | **Maliyyə şöbəsinin rəhbəri** |
| 8 iyul, 2019-cu il | 8 iyul, 2019-cu il |
| Bakı, Azərbaycan Respublikası | Bakı, Azərbaycan Respublikası |

bakertilly

Demirchi Tower, 16th floor
37 Khojaly Avenue
Baku, AZ1025
Azerbaijan

T: +994 (12) 404 7 666
F: +994 (12) 404 7 667

office@bakertilly.az
www.bakertilly.az

**MÜSTƏQİL AUDİTORLARIN RƏYİ**

"AzVirt" Məhdud Məsuliyyətli Cəmiyyətinin Səhmdarlarına və Rəhbərliyinə:

***Rəy***

Biz, "AzVirt" MMC ("Cəmiyyət"), eləcə də onun törəmə müəssisələrinin (birlikdə "Qrup") 31 dekabr 2018-ci il tarixinə təqdim edilən maliyyə vəziyyəti haqqında konsolidasiya edilmiş hesabat, həmin tarixdə başa çatmış il üzrə məcmu gəlir haqqında konsolidasiya edilmiş hesabat, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında konsolidasiya edilmiş hesabatlardan, eləcə də əsas mühasibat prinsiplərinin və digər izahedici qeydlərin xülasəsindən ibarət olan konsolidasiya edilmiş maliyyə hesabatlarının audit yoxlamasını apardıq.

Hesab edirik ki, əlavə olunmuş konsolidasiya edilmiş maliyyə hesabatları Qrupun 31 dekabr 2018-ci il tarixinə konsolidasiya edilmiş maliyyə vəziyyətini, eləcə də göstərilən tarixlərdə başa çatmış illər üzrə konsolidasiya edilmiş maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlər baxımından ədalətli əks etdirir.

***Rəy üçün Əsas***

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə Hesabatlarının Auditi üçün Auditorun Məsuliyyəti" bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin" (MBESŞ məcəlləsi) tələblərinə uyğun olaraq Qrupdan asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə, eləcə də MBESŞ məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

***Konsolidasiya Edilmiş Maliyyə Hesabatları üzrə Rəhbərliyin və İdarəetmə Səlahiyyətləri Verilmiş Şəxslərin Məsuliyyəti***

Rəhbərlik konsolidasiya edilmiş maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə görə və konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanması ilə əlaqədar, saxtakarlıq və ya xətalardan qaynaqlanan əhəmiyyətli təhriflərin qarşısının alınması məqsədi ilə zəruri hesab etdiyi daxili nəzarət sisteminin təşkil edilməsinə görə məsuliyyət daşıyır.

Konsolidasiya edilmiş maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Qrupu ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativin olmadığı halda, rəhbərlik Qrupun fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Qrupun konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanma prosesinə nəzarətə görə məsuliyyət daşıyır.



Baker Tilly Audit Azerbaijan CJSC trading as Baker Tilly is a member of the global network of Baker Tilly International Ltd., the members of which are separate and independent legal entities.

***Konsolidasiya Edilmiş Maliyyə Hesabatlarının Auditinə görə Auditorun Məsuliyyəti***

Bizim məqsədimiz təqdim olunan konsolidasiya edilmiş maliyyə hesabatlarında bir tam kimi, saxtakarlıq və ya xətalar nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin bu səviyyədə olan əminlikdə əhəmiyyətli təhriflər mövcud olduğu hallarda, Beynəlxalq Audit Standartlarına uyğun olaraq aparılmış auditin belə təhrifləri həmişə aşkarlayacağına zəmanət vermir. Təhriflər saxtakarlıq və ya xətalar nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin konsolidasiya edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı mövcud olduğu halda, əhəmiyyətli hesab edilir.

Beynəlxalq Audit Standartlarının tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi biz audit aparılan zaman peşəkar mühakimə tətbiq edirik və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- Konsolidasiya edilmiş maliyyə hesabatlarında saxtakarlıq və ya xətalar nəticəsində əhəmiyyətli təhriflərin olması risklərini müəyyən edib qiymətləndiririk, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçiririk və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirik. Saxtakarlıq nəticəsində əhəmiyyətli təhrifi aşkarlamama riski xətalar nəticəsindəkindən daha yüksəkdir, çünki saxtakarlıq əlbir hərəkətlər, dələduzluq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər.

- Qrupun daxili nəzarətin səmərəliliyinə dair rəy bildirmək məqsədi üçün olmamaq şərtilə, bu şərtlər çərçivəsində uyğun olan audit prosedurlarını layihələndirmək üçün auditə aid daxili nəzarəti başa düşürük.

- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən edilmiş uçot təxminlərinin və əlaqəli məlumatların açıqlanmasının məqsədəuyğunluğunu qiymətləndiririk.

- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutlarının əsasında Qrupun fəaliyyətini fasiləsiz davam etmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığına dair qənaətə gəlirik. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında qənaətə gəldiyimiz halda, auditor hesabatımızda konsolidasiya edilmiş maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqəti cəlb etməliyik və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın təqdim edilməsi tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və ya şəraitlər Qrupun fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər.

- Məlumatların açıqlanması da daxil olmaqla, konsolidasiya edilmiş maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin konsolidasiya edilmiş maliyyə hesabatlarında ədalətli təqdim edilib-edilmədiyini qiymətləndiririk.

- Qrup daxilində müəssisələrin və ya biznes fəaliyyətinin maliyyə məlumatları ilə bağlı konsolidasiya edilmiş maliyyə hesabatları barədə rəy bildirmək üçün kifayət qədər müvafiq audit sübutları əldə edirik. Biz Qrupun auditinin istiqamətləndirilməsinə, ona nəzarətə və həyata keçirilməsinə görə cavabdehik. Biz təqdim etdiyimiz audit rəyinə görə məsuliyyət daşıyırıq.

Biz idarəetmə səlahiyyətləri verilmiş şəxslərə digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririk.

Baker Tilly Azerbaijan

8 iyul 2019-cu il
Bakı, Azərbaycan Respublikası

## MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA KONSOLİDASİYA EDİLMİŞ HESABAT
## 31 DEKABR 2018-Cİ İL TARİXİNƏ
*(min Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2018-ci il | 31 dekabr 2017-ci il |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| **Uzunmüddətli aktivlər:** | | | |
| Əmlak, tikili və avadanlıqlar | 7 | 44,319 | 36,242 |
| Əmlak, tikili və avadanlıqlar üzrə avans ödənişləri | | - | 56 |
| Qeyri-maddi aktivlər | 8 | 64 | 1,545 |
| Təxirə salınmış mənfəət vergisi aktivləri | 28 | 78 | - |
| Müştərilərdə saxlanılan geri qaytarılacaq vəsaitlər | 9, 32 | 763 | 462 |
| **Cəmi uzunmüddətli aktivlər** | | **45,224** | **38,305** |
| **Cari aktivlər:** | | | |
| Ödənilmiş əlavə dəyər vergisi | | 2,095 | 2,898 |
| Ödənilmiş vergilər | | 1,713 | 1,999 |
| Mal-material ehtiyatları | 10, 26 | 11,075 | 6,613 |
| Mal-material ehtiyatları və digər xərclər üzrə avanslar | 11, 27 | 5,843 | 2,912 |
| Verilmiş kreditlər | 12, 30, 32 | 4,302 | 4,169 |
| Subpodartçılarda saxlanılan vəsaitlər | 13, 27, 32 | 1,751 | 892 |
| Debitor borcları və digər alınacaq vəsaitlər | 14, 32 | 33,359 | 44,025 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 15, 32 | 18,908 | 500 |
| Digər aktivlər | 16, 32 | 737 | 309 |
| **Cəmi cari aktivlər** | | **79,783** | **64,317** |
| **CƏMİ AKTİVLƏR** | | **125,007** | **102,622** |
| **ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | | |
| ÖHDƏLİKLƏR: | | | |
| **Uzunmüddətli öhdəliklər:** | | | |
| Təxirə salınmış mənfəət vergisi öhdəlikləri | 28 | - | 428 |
| Maliyyə icarəsi öhdəlikləri | 18, 32 | 3,255 | - |
| Digər öhdəliklər | 32 | 15 | 16 |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **3,270** | **444** |
| **Cari öhdəliklər:** | | | |
| Borc vəsaitləri | 20, 32 | 6,989 | 2,132 |
| Maliyyə lizinqi öhdəlikləri | 18, 32 | 1,901 | - |
| Müştəridən alınmış avanslar | 19, 32 | 27,920 | 2,059 |
| Subpodratçılardan alınmış depozitlər | 17, 32 | 579 | 6,920 |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | 21, 32 | 14,295 | 22,959 |
| Ödəniləcək vergilər | | 2,526 | 1,743 |
| Ödəniləcək əmək haqqı | 32 | 2,124 | 1,315 |
| Digər öhdəliklər | 32 | 574 | 571 |
| **Cəmi cari öhdəliklər** | | **56,908** | **37,699** |
| **Cəmi öhdəliklər** | | **60,178** | **38,143** |

## “AZVİRT” MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

**MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA KONSOLİDASİYA EDİLMİŞ HESABAT**
**31 DEKABR 2018-Cİ İL TARİXİNƏ (Davamı)**
*(min Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2018-ci il | 31 dekabr 2017-ci il |
|---|---|---|---|
| KAPİTAL: | | | |
| Nizamnamə kapitalı | 22 | 129 | 129 |
| Bölüşdürülməmiş mənfəət | | 55,383 | 56,435 |
| Digər ehtiyatlar | | 7,605 | 5,484 |
| Məcmu məzənnə fərqləri üzrə ehtiyat | | 1,712 | 2,431 |
| **Cəmi kapital** | | **64,829** | **64,479** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | **125,007** | **102,622** |

**Rəhbərliyin adından:**

**Elnur Əliyev**
**İdarə Heyətinin üzvü**

8 iyul, 2019-cu il
Bakı, Azərbaycan Respublikası

**Məzahir Məmmədov**
**Maliyyə şöbəsinin rəhbəri**

8 iyul, 2019-cu il
Bakı, Azərbaycan Respublikası

10-72-ci səhifələrdə təqdim edilmiş qeydlər konsolidasiya edilmiş maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir.

## MƏCMU GƏLİR HAQQINDA KONSOLİDASİYA EDİLMİŞ HESABAT
## 31 DEKABR 2018-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ
*(min Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2018-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2017-ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|---|
| **Davam edən əməliyyatlar:** | | | |
| Tikinti üzrə gəlirlər | 23 | 85,746 | 107,361 |
| Tikinti üzrə maya dəyəri | 24 | (69,347) | (90,620) |
| **Ümumi mənfəət** | | **16,399** | **16,741** |
| Ümumi və inzibati xərclər | 25, 30 | (11,114) | (10,483) |
| Ehtimal olunan kredit zərəri üzrə (tutulma)/bərpa | 14 | (1,034) | 2,702 |
| Digər gəlir | 27 | 585 | 1,268 |
| Digər xərclər | 26 | (485) | (1,336) |
| **Əməliyyat gəlirləri** | | **4,351** | **8,892** |
| Maliyyə gəlirləri | | 6 | 7 |
| Maliyyə xərcləri | | (392) | (751) |
| Xarici valyuta mübadiləsi üzrə gəlirlər, xalis | | 147 | 2,638 |
| Əmlak, tikili və avadanlıqların silinməsi üzrə (zərər)/gəlir | | (442) | 240 |
| **Mənfəət vergisindən əvvəl mənfəət** | | **3,670** | **11,026** |
| Mənfəət vergisi xərci | 28 | (886) | (2,469) |
| **İL ÜZRƏ DAVAM EDƏN ƏMƏLİYYATLARDAN XALİS MƏNFƏƏT** | | **2,784** | **8,557** |
| **Dayandırılmış əməliyyatlar:** | | | |
| Dayandırılmış əməliyyatlar üzrə zərər | 6 | - | (67) |
| **İL ÜZRƏ XALİS MƏNFƏƏT** | | **2,784** | **8,490** |
| **DİGƏR MƏCMU (ZƏRƏR)/GƏLİR:** | | | |
| **Sonradan mənfəət və zərər hesablarına yenidən təsnif ediləcək maddələr** | | | |
| Xarici əməliyyatların çevrilməsindən yaranan məzənnə fərqləri | | (719) | 1,703 |
| **İl üzrə digər məcmu (zərər)/gəlir** | | **(719)** | **1,703** |
| **İL ÜZRƏ CƏMİ MƏCMU GƏLİR** | | **2,065** | **10,193** |

**Rəhbərliyin adından:**

**Elnur Əliyev**
**İdarə Heyətinin üzvü**

8 iyul, 2019-cu il
Bakı, Azərbaycan Respublikası

**Məzahir Məmmədov**
**Maliyyə şöbəsinin rəhbəri**

8 iyul, 2019-cu il
Bakı, Azərbaycan Respublikası

10-72-ci səhifələrdə təqdim edilmiş qeydlər konsolidasiya edilmiş maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir.

# “AZVİRT” MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

## KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA KONSOLİDASİYA EDİLMİŞ HESABAT
## 31 DEKABR 2018-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ
*(min Azərbaycan manatı ilə)*

| | Qeydlər | Nizamnamə kapitalı | Bölüşdürülməmiş mənfəət | Digər ehtiyatlar | Məcmu məzənnə fərqləri üzrə ehtiyat | Cəmi |
|---|---|---|---|---|---|---|
| **1 yanvar 2017-ci il** | | **129** | **50,974** | **7,771** | **728** | **59,602** |
| İl üzrə xalis mənfəət | | - | 8,490 | - | - | 8,490 |
| İl üzrə digər məcmu gəlir | | - | - | - | 1,703 | 1,703 |
| Təsisçilər tərəfindən geri çəkilmiş vəsaitlər | | - | - | (2,287) | - | (2,287) |
| Elan edilmiş dividendlər | 22 | - | (3,029) | - | - | (3,029) |
| **31 dekabr 2017-ci il** | | **129** | **56,435** | **5,484** | **2,431** | **64,479** |
| 9 saylı MHBS-nin qəbul edilməsinin 1 yanvar 2018-ci il tarixinə təsiri | | - | (2,234) | - | - | (2,234) |
| **1 yanvar 2018-ci il tarixinə yenidən təqdim edilmiş qalıq** | | **129** | **54,201** | **5,484** | **2,431** | **62,245** |
| İl üzrə xalis mənfəət | | - | 2,784 | - | - | 2,784 |
| İl üzrə digər məcmu zərər | | - | - | - | (719) | (719) |
| Təsisçilər tərəfindən geri çəkilmiş vəsaitlər | | - | - | 2,121 | - | 2,121 |
| Elan edilmiş dividendlər | 22 | - | (1,602) | - | - | (1,602) |
| **31 dekabr 2018-ci il** | | **129** | **55,383** | **7,605** | **1,712** | **64,829** |

**Rəhbərliyin adından:**

**Elnur Əliyev**
**İdarə Heyətinin üzvü**

8 iyul, 2019-cu il
Bakı, Azərbaycan Respublikası

**Məzahir Məmmədov**
**Maliyyə şöbəsinin rəhbəri**

8 iyul, 2019-cu il
Bakı, Azərbaycan Respublikası

10-72-ci səhifələrdə təqdim edilmiş qeydlər konsolidasiya edilmiş maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir.

## PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA KONSOLİDASİYA EDİLMİŞ HESABAT
## 31 DEKABR 2018-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ
*(min Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2018-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2017-ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİ:** | | | |
| Mənfəət vergisindən əvvəlki gəlir | | 3,670 | 10,959 |
| Nağdsız vəsaitlər üzrə düzəlişlər: | | | |
| Əmlak, tikili və avadanlıqların amortizasiyası | 7 | 5,937 | 6,729 |
| Qeyri-maddi aktivlərin amortizasiyası | 8 | 15 | 13 |
| Maliyyə xərcləri | | 392 | 751 |
| Maliyyə gəliri | | (6) | (7) |
| Xarici valyuta mübadiləsi üzrə gəlir, xalis | | (147) | (2,638) |
| Ehtimal olunan kredit zərəri üzrə tutulma/(bərpa) | 14 | 1,034 | (2,702) |
| Mal-material ehtiyatlarının hesabından silinmələr üzrə zərər | 26 | 485 | 1,328 |
| Əmlak, tikili və avadanlıqların silinməsi üzrə zərər/(gəlir) | | 442 | (240) |
| Subpodratçılarda saxlanılan depozitlər üzrə ehtimal olunan kredit zərərinin bərpası | 27 | (427) | (90) |
| Dayandırılmış əməliyyatlar üzrə zərər | 6 | - | 67 |
| Mal-material ehtiyatları və digər xərclər üçün ödənilmiş vəsaitlər üzrə dəyərsizləşmə xərclərinin bərpası | 27 | - | (11) |
| Digər aktivlərin dəyərsizləşməsi | 26 | - | 8 |
| Bioloji aktivlərin amortizasiyası | | - | 45 |
| **Əməliyyat aktivləri və öhdəliklərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitləri** | | **11,395** | **14,212** |
| **Əməliyyat aktivləri və öhdəliklərində dəyişikliklər** | | | |
| Əməliyyat aktivlərində (artma)/azalma: | | | |
| Ödənilmiş ƏDV | | 803 | 2,577 |
| Əvvəlcədən ödənilmiş vergilər | | 286 | 103 |
| Müştəridə saxlanılan geri qaytarılacaq əmanətlər | | (301) | (462) |
| Mal-material ehtiyatları | | (7,592) | 2,643 |
| Subpodratçılarda saxlanılan əmanətlər | | (859) | (15) |
| Debitor borcları və digər alınacaq vəsaitlər | | 7,417 | 4,051 |
| Digər aktivlər | | (428) | (368) |
| Əməliyyat öhdəliklərində (artma)/azalma: | | | |
| Subpodartçılardan alınmış əmanətlər | | (6,341) | (3,296) |
| Subpodratçılardan alınmış avanslar | | 25,861 | (3,162) |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | | (12,861) | (7,418) |
| Ödəniləcək vergilər | | (608) | (5,687) |
| Ödəniləcək əmək haqqı | | 809 | 514 |
| Digər öhdəliklər | | 2 | 61 |
| **Əməliyyat fəaliyyətindən daxil olan xalis pul vəsaitləri** | | **17,583** | **3,753** |
| **İNVESTİSİYA FƏALİYYƏTİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİ:** | | | |
| Əmlak, tikili və avadanlıqlar üzrə ödənişlər | | (7,100) | (1,857) |
| Əmlak və avadanlıqların silinməsi üzrə daxilolmalar | | 4,185 | 321 |
| Buraxılmış kreditlər | | (133) | (1,134) |
| Buraxılmış kreditlər üzrə alınmış faiz | | 6 | 7 |
| Qeyri-maddi aktivlər üzrə ödənişlər | | - | (1,437) |
| Tam paylı törəmə müəssisənin silinməsi üzrə daxilolmalar | 6 | - | 2,764 |
| **İnvestisiya fəaliyyətinə yönəlmiş xalis pul vəsaitləri** | | **(3,042)** | **(1,336)** |

## PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA KONSOLİDASİYA EDİLMİŞ HESABAT
## 31 DEKABR 2018-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ (Davamı)
*(min Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2018-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2017-ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|---|
| **MALİYYƏLƏŞDİRMƏ FƏALİYYƏTİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİ:** | | | |
| Borc vəsaitləri üzrə daxilolmalar | 20 | 10,357 | - |
| Borc alınmış vəsaitlər üzrə əsas məbləğin qaytarılması | 20 | (5,500) | (1,547) |
| Borc vəsaitləri üzrə ödənilmiş faiz | 20 | (331) | (751) |
| Maliyyə icarəsi öhdəlikləri üzrə əsas məbləğin qaytarılması | 18 | (1,148) | - |
| Maliyyə icarəsi öhdəlikləri üzrə ödənilmiş faiz | 18 | (61) | - |
| Ödənilmiş dividendlər | 22 | (1,602) | (3,029) |
| Təsisçilər tərəfindən ianə edilmiş/(geri götürülmüş) vəsaitlər | | 2,121 | (2,287) |
| **Maliyyələşdirmə fəaliyyətinə daxil olan/(yönəlmiş) xalis pul vəsaitləri** | | **3,836** | **(7,614)** |
| Xarici valyutada saxlanılan pul vəsaitlərinin qalıqları üzrə məzənnə fərqi dəyişikliklərinin təsiri | | 31 | 1,001 |
| PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALETLƏRİNDƏ XALİS ARTMA/(AZALMA) | | 18,408 | (4,196) |
| PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ, *ilin əvvəlinə* | 15 | **500** | **4,696** |
| PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ, *ilin sonuna* | 15 | **18,908** | **500** |

18 saylı Qeydə əks olunan pul vəsaitləri və onların ekvivalentlərinin istifadəsini tələb etməyən maliyyə əməliyyatları pul vəsaitlərinin hərəkəti haqqında konsolidasiya edilmiş hesabatdan çıxarılmışdır.

**Rəhbərliyin adından:**

**Elnur Əliyev**
**İdarə Heyətinin üzvü**

8 iyul, 2019-cu il
Bakı, Azərbaycan Respublikası

**Məzahir Məmmədov**
**Maliyyə şöbəsinin rəhbəri**

8 iyul, 2019-cu il
Bakı, Azərbaycan Respublikası

10-72-ci səhifələrdə təqdim edilmiş qeydlər konsolidasiya edilmiş maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir.

## 1. QRUP HAQQINDA MƏLUMAT

### Təşkilat və onun əsas fəaliyyəti

"AzVirt" Məhdud Məsuliyyətli Cəmiyyəti ("Cəmiyyət") 29 iyun 1995-ci il tarixində Azərbaycanda "Azərbaycan Hava Yolları" (AZAL) Dövlət Konserni, Bakı Şəhər İcra Hakimiyyəti və Almaniyanın Virtgen İnternational Gmbh şirkətinin iştirakı ilə müvafiq olaraq mülkiyyətin 11%, 40% və 49% bölüşdürülməsi əsasında Azərbaycan-Almaniya Birgə Müəssisəsi olaraq təsis edilmişdir və daha sonra 5 may 2004-cü il və 16 dekabr 2006-cı il tarixində Qrup "AzVirt" Məhdud Məsuliyyətli Cəmiyyəti olaraq yenidən qeydiyyatdan keçmiş və özəlləşdirilmişdir. İlk öncə Bakı ərazisində şəhər yollarının tikintisi ilə məşğul olan Qrup, zaman keçdikcə yol və hava limanı infrastruktur layihələri üzrə tam xidmət göstərən beynəlxalq şirkətə çevrilmişdir. Cəmiyyət məhdud məsuliyyətli cəmiyyətdir və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmışdır.

Cəmiyyət aşağıdakı törəmə müəssisələr, filiallar və nümayəndəliklər (birlikdə "Qrup") tərəfindən təmsil olunur:

- "AzVirt Ogranak Beograd" Belqrad, Serbiya Respublikasında qeydə alınmış və yerləşən nümayəndəlikdir;
- "AzVirt Balkan Construction" MMC Belqrad, Serbiya Respublikasında qeydə alınmış və yerləşən 100% törəmə müəssisədir;
- "AZROM International Construction" Buxarest, Rumıniyada qeydə alınmış və yerləşən nümayəndəlikdir;
- "AzVirt Latviya" Riqa, Latviya Respublikasında qeydə alınmış və yerləşən nümayəndəlikdir.
- "AzVirt Astana" Astana, Qazaxıstan Respublikasında qeydə alınmış və yerləşən nümayəndəlikdir;
- "AzVirt Qırğızıstan" Bişkek, Qırğızıstan Respublikasında qeydə alınmış və yerləşən nümayəndəlikdir;
- "AzVirt Ukrayna" Kiyev, Ukrayna Respublikasında qeydə alınmış və yerləşən nümayəndəlikdir;
- "Şami Keçi Fermer Təsərrüfatı" MMC 2017-ci ilin oktyabrında təsis edilmiş, kənd təsərrüfatı biznesi ilə məşğul olan Azərbaycan Respublikasında qeydə alınmış və 100% törəmə müəssisədir.

### Cəmiyyətin hüquqi ünvanı

Cəmiyyətin hüquqi ünvanı Bəşir Bünyadov küçəsi 26B, Bakı AZ1040, Azərbaycan Respublikasıdır.

### Qrupun səhmdarları

31 dekabr 2018-ci və 2017-ci il tarixlərinə Qrupun dörd səhmdarı mövcud olmuşdur:

| **Səhmdarlar** | **31 dekabr 2018-ci il, %** | **31 dekabr 2017-ci il, %** |
|---|---|---|
| Cənab Martin Manfred | 30.00 | 30.00 |
| Falcom Holding s.a.r.l. (Lüksemburqda qeydiyyatdan keçmişdir) | 25.00 | 25.00 |
| Cənab Elnur Əliyev | 25.00 | 25.00 |
| Cənab Sakhariaz Valter | 20.00 | 20.00 |
| **Cəmi** | **100.00** | **100.00** |

**Qrupun fəaliyyət mühiti**

Qrup fəaliyyətini əsasən Azərbaycan Respublikası, Serbiya Respublikası, Qırğızıstan Respublikası və Ukrayna Respublikasında həyata keçirir.

***Azərbaycan Respublikası***

Neft hasilatı və neft qiymətləri səbəbindən neft gəlirlərinin aşağı düşməsi nəticəsində neftlə bağlı ÜDM-nin azalması (7.2%) ilə əlaqədar olaraq Azərbaycan iqtisadiyyatı 2017-ci ilin birinci yarısında 1.3% zəifləmişdir. Digər tərəfdən, bank sektorunda davam edən çətinliklərə baxmayaraq, qeyri-neft payının iqtisadiyyatı kənd təsərrüfatının və istehsal sektorunun güclü göstəricilərinin dəstəklənməsi ilə bir il ərzində ilk dəfə 1.7% artmışdır. 2017-ci ildə faktiki illik inflyasiya 13-14% səviyyəsində qalmışdır və əsasən dövlət tərəfindən idarə edilən elektrik enerjisi, su və qaz tariflərində və yerli ərzaq qiymətlərində artımın nəticəsində baş vermişdir. Azərbaycan Respublikasının Mərkəzi Bankı inflyasiya təzyiqlərinə istinad edərək likvidlik səviyyəsinin azaldılması əməliyyatlarını artırmaqla, 2017-ci ilədək pul siyasətinin mövqeyini möhkəmləndirməyə davam etmişdir. Manat 2016-cı ilin sonundan etibarən ABŞ dolları ilə müqayisədə 4.4% möhkəmlənərək, güclü xarici mövqeyini və likvidlik əmsallarını artırmışdır. Problemli maliyyə sektoru iqtisadiyyata mənfi təsir göstərməyə davam etmişdir. 2017-ci ilin ilk yarısında kreditləşmə 15.6% azalmış və aktivlərin keyfiyyəti pisləşməyə başlamışdır.

Moody's təşkilatının məlumatlarına əsasən, 2017-ci ildə 0.1% artımdan sonra real ÜDM artımı əvvəlki illərlə müqayisədə 2018-ci ilin ilk 5 ayı ərzində 1.6% sürətlənmişdir, və iqtisadiyyatın 2018-ci ildə 2%, 2019-cu ildə isə 3% artacağı gözlənilir. Artımın neftin yüksək qiymətləri və qaz ixracının artması ilə dəstəklənməsi ehtimal edilir.

Moody's şirkətinin İnvestorlarla Xidmət şöbəsinin verdiyi məlumata görə, Azərbaycanın kredit reytinqi (sabit Ba2 səviyyədə) ümumi dövlət borcu və zəmanətlərinin nisbətən yüksək səviyyəsini və bank sektorunun daha həssas olmasını əks etdirir. Bu xüsusiyyətlər neft qiymətlərinin düşməsini və 2014-2016-cı illər ərzində manatın kəskin dəyərsizləşməsinin yaratdığı nəticələrdir. Əksinə, ölkənin böyük maliyyə aktivləri kredit reytinqinə öz əhəmiyyətli dəstəyini göstərir. Moody's agentliyinin gəldiyi nəticələr, illik "Azərbaycan hökuməti – sabit Ba2" kredit təhlilində bildirilir. Bu kredit təhlilində Azərbaycanın kredit profili nəzərdən keçirilir, iqtisadi dayanıqlıq "zəif" (+); institutsional dayanıqlıq "zəif" (-); fiskal dayanıqlıq "yüksək" və hadisə risklərinə həssaslıq "orta" (+) qiymətləndirilir. Bu Moody's-in Suveren Borc Reytinqi Metodologiyasının əsasını təşkil edən dörd önəmli göstəricidir.

Azərbaycan manatı 2018-ci il ərzində sabit qalmışdır. Lakin, gələcək dövrdə məzənnə üzrə qeyri-müəyyənlik və bank sisteminin davam edən həssaslığı görülən tədbirlərin real iqtisadiyyata ötürülməsinə mane olur.

Beynəlxalq kredit agentliyi olan Standard & Poor's, 2018-ci ilin fevral ayında Azərbaycanın xarici və yerli valyuta üzrə uzunmüddətli və qısamüddətli suveren kredit reytinqini "BB+/B" dərəcəsində mənfi proqnozdan stabilə doğru yüksəlməsini təsdiqləmişdir.

Azərbaycan Respublikasının gələcək iqtisadi inkişafı əsasən hökumətin vergi, hüquq, tənzimləyici və siyasi islahatlarla birlikdə həyata keçirdiyi iqtisadi, maliyyə və pul tədbirlərinin səmərəliliyindən asılıdır. Rəhbərlik, Qrupun fəaliyyətinə təsir göstərəcək iqtisadi mühitdəki bütün islahatları və nəticədə onların, Qrupun maliyyə vəziyyətinə necə təsir göstərə biləcəyini proqnozlaşdırmaq iqtidarında deyil. Rəhbərlik hazırda müxtəlif neft qiymətləri üzrə həssaslıq təhlili həyata keçirir və biznesin davamlılığını təmin etmək üçün müvafiq tədbirlər planı hazırlayır.

Azərbaycan həmçinin, tranzit və ticarətin inkişafı üçün regional əlaqə təşəbbüslərindən də faydalanmağa çalışır. Xüsusilə də, ölkə Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin sponsorlarından biridir. Xəzər bölgəsini Türkiyə ilə birləşdirən Bakı-Tbilisi-Qars dəmiryolu xəttinin tikintisi 2017-ci ildə tamamlanmışdır. Trans-Anadolu Təbii Qaz Kəməri (TANAP) və Trans-Adriatik Boru Kəməri (TAP), Azərbaycanın Şahdəniz qaz yatağından olan təbii qazı Türkiyə və Avropaya çatdıracaqdır. 2018-ci ildən etibarən ÜDM-in sürətlənməsi sayəsində iqtisadiyyatın genişlənəcəyi gözlənilir, belə ki, dünyanın ən böyük qaz yataqlarından biri olan Şahdəniz qaz yatağı istehsala başlayır. Kreditlərin məhdud inkişafı və zəif biznes mühitinin olması səbəbindən, qeyri-neft istehsalının asta templə inkişaf edəcəyi gözlənilir.

Bu təkliflərə cavab olaraq, Azərbaycan hökuməti islahatların sürətləndirilməsi və maliyyə sisteminə dəstək vermək planlarını açıqlamışdır. 6 dekabr 2016-cı ildə Azərbaycan Respublikasının prezidenti "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri"-ni təsdiqləmişdir. Yol xəritələri 2016-2020-ci illəri üzrə inkişaf strategiyasını, 2025-ci ilə qədər uzunmüddətli perspektivləri və 2025-ci il üzrə perspektivləri əhatə edir.

Bundan başqa, 2018-ci il ərzində, hökumət sərt pul-kredit siyasətini davam etdirmiş, eləcə də Azərbaycan manatını stabilləşdirmək məqsədilə xarici valyuta ehtiyatları ayırmışdır. 2018-ci ildə ARMB, pul siyasətini normallaşdırmaq məqsədilə, yenidən maliyyələşdirmə dərəcəsini 15%-dən 9.75%-ə qədər azaltmışdır.

***Serbiya Respublikası***

Serbiyanın ÜDM-i kənd təsərrüfatı və tikinti sahəsindəki güclü artımla birlikdə, yüksək daxili istehlak, ixrac və investisiyalar hesabına ilbəil 4,3%-ə kimi (son 2018-ci ilədək son qiymətləndirmə) artmışdır. Bir əvvəlki ilə nisbətən daha dinamik artım həm də, dünyada iqtisadi vəziyyətin əlverişli olması, ölkədaxilində sabit makroiqtisadi vəziyyət (2017-ci ildə ÜDM 2.0% artmışdır) ilə bağlıdır. 2018-ci ildə iqtisadi artım kənd təsərrüfatı, tikinti, sənaye və ticarətlə hesabına baş vermişdir.

İqtisadi artım yaxşı diversifikasiya edilir, dövlət investisiyalarının səviyyəsi artmaqda davam edir və biznes mühitinin yaxşılaşdırılması istiqamətində işlərin aparılması və tənzimləyici dəyişikliklərin həyata keçirilməsi öz müsbət nəticələrini verir. Xalis ixracın, sənaye istehsalının və investisiyaların ümumi artımına ölkə iqtisadiyyatını ümumi vəziyyətinə olan möhkəm güvən ilə dəstəklənir.

2018-ci ildə makroiqtisadi göstəricilər güclənmiş və ölkənin kredit reytinqinin artmasına və Serbiya Milli Bankının (NBS) pul mədaxilinin siyasətini davam etdirməsinə (2018-ci ildə iki faiz dərəcəsi kəsintisi) gətirib çıxarmışdır. İqtisadi proqram BVF-nin Siyasətin Koordinasiyası Aləti (SKA) və Avropa Birliyinin monitorinq mexanizmləri ilə uğurla həyata keçirilmişdir. PCI, 2018-ci ilin iyul ayında makroiqtisadi və maliyyə sabitliyini qurmaq və gələcəkdə davamlı iqtisadi artım və həyat səviyyəsinin artması üçün zəruri olan struktur islahatlarının həyata keçirilməsinə kömək etmək məqsədi ilə imzalanmışdır.

Ən yaxşı reytinq səhiyyə sistemində, makroiqtisadi sabitlik və infrastrukturda baş vermişdir. Maliyyə konsolidasiyası uğurla həyata keçirilmişdir (2014-2017). Uğurlu maliyyə siyasəti bu nailiyyətlərin 2018-ci ildə də davam etməsinə imkan yaratmışdır. Mərkəzi hökumət 2018-ci ilin yanvar-oktyabr aylarında RSD-nin 61.1 milyard mənfəətini (1.5% ÜDM) qeydə almış və bu, 0.5 faiz proqnozlaşdırılan maliyyə kəsirinə gətirib çıxarmışdır. 2018-ci ilə kimi gəlirlərin artım sürəti, korporativ mənfəət vergisi və aksiz vergisinin azaldılması səbəbindən xərclərın artım sürəti ilə nisbətdə daha aşağıdır. Həyata keçirilən tədbirlər bu günə qədər yaxşı nəticələr verməsinə baxmayaraq, dövlət borcunun daha da azaldılması üçün maliyyə intizamının 2019-cu ildə və sonrada davam etməsi tələb olunur (noyabr ayında 56.2%).

Ardıcıl olaraq üç ildir ki, dövlət borcunun məbləği il üzrə mükəmməl maliyyə nəticəsində azalmışdır. Daxili məhsul və xidmətlərə daxili tələbatın artması ilə dinarın güclənməsi nəticəsində 2018-ci ildə tədiyə balansı 21% artmışdır.

Serbiya Milli Bankı faiz dərəcəsini iki dəfə: mart ayında 0.25% və apreldə isə 0.25% olmaqla azaltmışdır. SUB, bu günə qədər uğurlu bir siyasətin sübutu olaraq, sabit inflyasiya ehtimallarını irəli sürmüş və hədəflənmiş inflyasiya limitlərinin 2021-ci ilə qədər sabit (3+1.5%) qalacağını təsdiqləmişdir. 2018-ci ildə əmək bazarında qeydə alınmış müsbət dinamikanın 2019-cu ildə də davam edəcəyi ehtimal olunur.

***Qırğızıstan Respublikası***

Son illərdə Qırğızıstan Respublikasında əhəmiyyətli siyasi, iqtisadi və sosial dəyişikliklər həyata keçirilmişdir. Qırğızıstan Respublikası, inkişaf etmiş bazar iqtisadiyyatında yaxşı inkişaf etmiş bir biznes və tənzimləyici infrastruktura malik deyildir. Nəticədə, Qırğızıstan Respublikasında həyata keçirilən əməliyyatlar, inkişaf etmiş bazar üçün səciyyəvi olmayan riskləri əhatə edir. Bununla yanaşı, Qırğızıstanın iqtisadiyyatı sərbəst bazarda qeyri-sabit vəziyyətin təsirinə məruz qalır.

2018-ci ilin yanvar-noyabr aylarında real ÜDM-in artımı bir il əvvəlki 3.7 faiz göstəricisinə nisbətən azalaraq 3.1 faiz təşkil etmişdir. Qızıl istehsalı istisna olmaqla, bu dövrdə, ötən ilin eyni dövrünə nisbətən (3.5%) azalaraq, il ərzində 3.2% təşkil etmişdir. Ümumiyyətlə, artım, istehlak kanalları və sabit pul siyasəti vasitəsilə pul vəsaitlərinin axınında davamlı inkişaf ilə dəstəklənmişdir.

İnvestisiya artımı bu müddət ərzində 5.4% səviyyəsində qiymətləndirilir və bu da Qrupun özünü maliyyələşdirməsinin, bank kreditlərinin, ev təsərrüfatlarının resurslarının və xarici qrantların artmasını əks etdirir. Qırğızıstan iqtisadiyyatı aşağı kənd təsərrüfatı məhsuldarlığı, zəif biznes mühiti, enerji sektorunda səmərəsizlik və nəqliyyat sisteminə aid olan bir sıra məhdudiyyətlər ilə üzləşir.

***Ukrayna Respublikası***

Ukraynanın iqtisadiyyatı uzunmüddətli sabitliyi təhdid edən müəyyən xüsusiyyətlərə malikdir. Bu xüsusiyyətlərə kapital bazarlarında nisbətən aşağı likvidlik səviyyələri, dövlət maliyyə və xarici ticarət balansında kəsir daxildir.

Beynəlxalq reytinq agentliyi Moody's, 2018-ci ilin dekabr ayında Ukraynanın suveren reytinqini Ukrayna ilə Beynəlxalq Valyuta Fondu arasında yeni stand-by kredit proqramınln təsdiqləməsi səbəbiylə yüksəltmişdir.

2018-2017-ci illərdə Ukrayna üçün xarici risklər ümumiyyətlə azalmışdır. Qlobal iqtisadiyyatın artımı, maliyyə və əmtəə bazarlarında qiymət təhlükələrin azaldılmasına kömək etmişdir. Birbaşa geosiyasi risklər əhəmiyyətsiz dərəcədə dəyişmişdir. Eyni zamanda, maliyyə sabitliyi üçün orta müddətli risklər getdikcə artmaqdadır.

İqtisadiyyatın real sektorunun likvidlik problemlərinin həll olunması davam etməkdədir. İqtisadiyyatın bir çox sahələrində fəaliyyət göstərən müəssisələr əməliyyat mənfəətini artırmış və borc səviyyələrini normall həddlərə salmışlar. Bununla yanaşı borc alanların likvidlik səviyyəsinin təyin olunması ilə bağlı tələblər daha da sərtləşdirilmişdir.

Milli valyutanın zəifliyi, eləcə də 2014-cü ildən etibarən ABŞ dollarına qarşı üç dəfəyə yaxın devalvasiyanən qeydə alınması, xarici ölkələrlə köçürmələrə qoyulan məhdudiyyətlər, tədiyyə balansının mənfi saldoya malik olması, ölkənin ənənəvi olaraq ixrac etdiyi əmtəələrin satıldığı bazarlarda dalğalanmaların mövcudluğu və yüksək inflyasiya həddləri yaxın gələcəkdə Ukrayna iqtisadiyyatının stabilləşməsini təhdid altına alan amillərdir. BVF və digər beynəlxalq donorların dəstəyi yuxarıda qeyd olunan məsələlər üzrə struktur islahatlarının dinamikasından çox asılıdır.

Bu konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanmasında yuxarıda göstərilən amillərin hesabat dövründə maliyyə vəziyyətinə və fəaliyyətinə olan məlum və qiymətləndirilən təsirləri nəzərə alınmışdır. Rəhbərlik mövcud mühitdəki dəyişiklikləri izləyir və mümkün olduğu təqdirdə mümkün olduğu qədər hər hansı bir mənfi təsiri minimuma endirmək üçün tədbirlər görür. Siyasi, makroiqtisadi və/və ya beynəlxalq ticarət şəraitində baş verəcək əlverişli hadisələr, Qrupun maliyyə vəziyyətinə və fəaliyyətinə hazırda müəyyən edilə bilməyəcək bir şəkildə təsir edə bilər.

## 2. ƏSAS MÜHASİBAT PRİNSİPLƏRİ

### Hesabatların uyğunluğunun bəyanı

Hazırkı maliyyə hesabatları Beynəlxalq Mühasibat Standartları Şurası tərəfindən dərc edilmiş Beynəlxalq Maliyyə Hesabatları Standartları ("MHBS") və Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına Şərhlər Komitəsi ("MHBSŞK") tərəfindən dərc edilmiş şərhlər əsasında hazırlanmışdır.

### Fasiləsizlik prinsipi

MHBS-ə uyğun hazırlanmış konsolidasiya edilmiş maliyyə hesabatları Qrupun fasiləsizlik prinsipi əsasında fəaliyyət göstərməsini və yaxın gələcəkdə işini normal şərtlər altında davam etdirəcəyini nəzərdə tutur. Rəhbərlik, Azərbaycan Respublikasının qanunlarına və qaydalarına müvafiq olaraq ləğv etmək, kommersiya fəaliyyətini dayandırmaq və ya kreditorlardan müdafiə olunmaq yollarını axtarmaq niyyəti və ya zərurəti olmadan Qrupun yaxın gələcəkdə işini davam etdirəcəyini düşünür.

Müvafiq olaraq, aktivlər və öhdəliklər normal şərtlər altında Qrupun aktivlərini reallaşdıracağı və öhdəliklərini yerinə yetirəcəyi əsaslar üzrə qeydə alınır. Bəzi maliyyə hesabatları standartları rəhbərlik tərəfindən Qrupun fasiləsizlik prinsipinə dair dəyərləndirmənin aparılması üzrə konkret tələbləri və nəzərə alınmalı olan müəyyən məsələləri və fasiləsizlik prinsipi ilə əlaqədar bir sıra açıqlamaların hesabatlara daxil edilməsini əhatə edir.

Fasiləsizlik prinsipinin fərziyyələrinə dair Rəhbərliyin qiymətləndirməsinə müəyyən vaxt çərçivəsində mahiyyəti üzrə qeyri-müəyyən hadisələr və şərtlərin gələcək nəticələri haqqında fikir bildirilməsi daxildir.

### Təqdimatın digər əsasları

MHBS-ə uyğun hazırlanmış konsolidasiya edilmiş maliyyə hesabatları, başqa cür qeyd edilməyənə qədər, Azərbaycan Manatı ("AZN") ilə ifadə edilir. MHBS-ə uyğun hazırlanmış konsolidasiya edilmiş maliyyə hesabatları tarixi dəyər əsasında tərtib edilmişdir.

Qrup mühasibat sistemini Azərbaycan Respublikasının qanunlarına müvafiq olaraq təşkil etmişdir. Hazırkı konsolidasiya edilmiş maliyyə hesabatları mühasibat yazılışları əsasında hazırlanmış və MHBS-ə uyğunlaşdırılmışdır. Bu düzəlişlərə əsas əməliyyatların iqtisadi mahiyyətini əks etdirən yenidən təsnifləşdirmələr, o cümlədən müəyyən aktivlər və öhdəliklərin, gəlir və xərclərin müvafiq maliyyə hesabatının məzmununa yenidən təsnifləşdirmələri daxildir.

Əsas uçot prinsipləri aşağıda göstərilir:

### Konsolidasiyanın prinsipləri

Konsolidasiya edilmiş maliyyə hesabatları Qrup və törəmə müəssisələrinin (Qrup tərəfindən nəzarət edilən müəssisələr) maliyyə hesabatlarını birləşdirir. Nəzarət, fəaliyyətlərdən mənfəət əldə etmək üçün investisiya obyektinin maliyyə və əməliyyat siyasətini idarə edilməsində Qrupun səlahiyyətli olduğu zaman təmin edilir.

İl ərzində alınmış və ya satılmış törəmə müəssisələrin gəlir və xərcləri müvafiq olaraq, alınma tarixindən etibarən və satılma tarixinə qədər məcmu gəlir haqqında konsolidasiya edilmiş hesabata daxil edilir.

Hətta qeyri-nəzarət payı üzrə nəticələr mənfi saldo ilə yekunlaşdığı hallarda belə törəmə müəssisələrin cəmi məcmu gəliri Qrupun sahibkarlarına və qeyri-nəzarət payına aid edilir.

Zəruri olduqda, törəmə müəssisələrin mühasibat uçotu siyasətini Qrupun digər üzvləri tərəfindən istifadə edilmiş siyasətlərə uyğunlaşdırmaq məqsədilə törəmə müəssisələrin maliyyə hesabatlarına düzəlişlər olunur.

Bütün qrupdaxili əməliyyatlar, qalıqlar, gəlir və xərclər konsolidasiya zamanı tam silinir.

**Qrupun mövcud törəmə müəssisələrində olan iştirak payında dəyişikliklər**

Törəmə müəssisələrində olan Qrupun iştirak payında dəyişikliklər törəmə müəssisələrin üzərində olan nəzarətin itirilməsi ilə nəticələnmir və kapital əməliyyatları kimi qeyd olunur. Qrupun nəzarət və qeyri-nəzarət paylarının qalıq dəyəri törəmə müəssisələrində olan iştirak payındakı müvafiq dəyişiklikləri göstərmək üçün dəyişdirilmişdir. Qeyri-nəzarət payında olan dəyişikliklərin göstərilməsindən yaranan hər hansı bir fərq və əlavə olaraq ödənilmiş və ya alınmış payın ədalətli dəyəri bilavasitə kapitalda göstərilir və Qrupun səhmdarlarına aiddir.

Qrup törəmə müəssisədə olan nəzarət payını itirdikdə silinmələr üzrə mənfəət və ya zərər (i) hesablanmış ədalətli dəyərinin məcmusu və istənilən bölüşdürülməmiş payın ədalətli dəyəri və (ii) törəmə müəssisənin aktivləri (qudvil daxil olmaqla) və öhdəliklərinin əvvəlki qalıq dəyəri və istənilən qeyri-nəzarət payları arasındakı fərq kimi hesablanır. Törəmə müəssisənin aktivləri ədalətli dəyərdə və ya yenidən qiymətləndirilmiş dəyərdə uçota alındıqda və müvafiq məcmu gəlir və ya zərər digər məcmu gəlirdə tanındıqda və kapitalda yığıldıqda, əvvəllər digər məcmu gəlirdə tanınmış və kapitalda yığılmış məbləğlər Qrupun müvafiq aktivləri bilavasitə sildiyi güman edilərək hesablanılır (yəni müvafiq MHBS-də müəyyən edildiyi kimi mənfəət və ya zərərə yenidən təsnif edilmiş və ya bölüşdürülməmiş mənfəətə birbaşa köçürülmüş).

Nəzarətin itirildiyi tarixdə keçmiş törəmə müəssisədə hər hansı bölüşdürülməmiş investisiyanın ədalətli dəyəri MUBS 39 "Maliyyə Alətləri: Tanınma və Ölçülmə" standartı çərçivəsində sonrakı mühasibat uçotu üzrə ilkin tanınma zamanı ədalətli dəyər və ya müvafiq olduqda, asılı və ya birgə nəzarət edilən müəssisədə investisiyanın ilkin tanınması zamanı ilkin dəyər kimi qiymətləndirilir.

**Müəssisələrin birləşməsi**

Müəssisələrin birləşməsi satınalma metodu üzrə uçota alınır. Müəssisələrin birləşməsində köçürülmüş kompensasiya, Qrup tərəfindən köçürülmüş aktivlərin, əldə edilmiş müəssisənin keçmiş sahibləri üçün Qrup tərəfindən yaranan öhdəliklərin və Qrup tərəfindən buraxılan səhm payı üzrə iştirakın alış tarixinin ədalətli dəyərlərinin cəmi kimi hesablanacaq ədalətli dəyərdə ölçülməlidir. Satınalma ilə əlaqəli xərclər adətən yarandığı anda mənfəət və ya zərərdə tanınır.

Alış tarixində, əldə edilmiş müəyyən edilə bilən aktivlər və qəbul edilmiş öhdəliklər aşağıdakılar istisna olmaqla alış tarixində ədalətli dəyərdə tanınır:

- Təxirə salınmış vergi aktivləri və ya öhdəlikləri, yaxud işçilərin mükafatlandırılması razılaşmaları ilə əlaqədar öhdəliklər və ya aktivlər müvafiq olaraq MUBS 12 "Mənfəət vergisi" və MUBS 19 "İşçilərin mükafatlanıdırlması" standartlarına əsasən ölçülür və tanınır;
- Əldə edilmiş müəssisənin səhm əsasında ödəniş sövdələşmələri və ya əldə edilmiş müəssisənin səhm əsasında ödəniş sövdələşmələri ilə Qrupun səhm əsasında ödəniş sövdələşmələrinin dəyişdirilməsi ilə əlaqədar pay alətləri və öhdəlikləri MHBS 2 "Alış Tarixində Pay Alətləri əsasında Ödəmə" standartı əsasında ölçməlidir; və

- MHBS 5 “Satış üçün saxlanılan uzunmüddətli aktivlər və dayandırılmış fəaliyyətlər” standartı əsasında satış üşün saxlanılan kimi təsnif edilmiş aktivlər (və ya xaricolma qrupu) həmin standarta müvafiq olaraq ölçülməlidir.

Qudvil köçürülmüş kompensasiyanın, əldə edilmiş müəssisədə hər hansı nəzarət səhm paketinə malik olmayan iştirak payının məbləğinin və əldə edilmiş müəssisədə alıcı müəssisənin əvvəllər sahib olduğu səhm payı üzrə iştirakın alış tarixində ədalətli dəyərinin yekun məbləği əldə edilmiş müəyyən edilə bilən aktivlər və ya qəbul edilmiş öhdəliklərin alış tarixində xalis məbləğini üstələdiyi təqdirdə tanınmalıdır. Təkrar qiymətləndirmədən sonra əldə edilmiş müəyyən edilə bilən aktivlər və qəbul edilmiş öhdəliklərin alış tarixində xalis məbləği köçürülmüş kompensasiyanın, əldə edilmiş müəssisədə hər hansı nəzarət səhm paketinə malik olmayan iştirak payının məbləğinin və əldə edilmiş müəssisədə alıcı müəssisənin əvvəllər sahib olduğu səhm payı üzrə iştirakın alış tarixində ədalətli dəyərinin yekun məbləğini üstələyərsə, artıq məbləğ güzəştli alışdan yaranan gəlir kimi dərhal mənfəət və zərər hesablarında tanınır.

Cari sahibkarlıq payları və onların sahiblərinə ləğvetmə hadisəsində müəssisənin xalis aktivlərinin proporsional paylarına sahib olmaq hüququ olan nəzarət səhm paketinə malik olmayan iştirak payları ədalətli dəyərdə və ya əldə edilmiş müəssisənin müəyyən edilə bilən xalis aktivlərinin tanınan məbləğində cari sahibkarlıq alətlərinin proporsional payında ölçülməlidir. Ölçmə bazasının seçimi əməliyyatlar əsasında həyata keçirilir. Başqa bir ölçülmə əsası standartlar tərəfindən tələb edilməyənə qədər, nəzarət səhm paketinə malik olmayan iştirak paylarının bütün digər komponentləri onların alış tarixində ədalətli dəyərdə ölçülməlidir.

Biznes birləşməsində Qrup tərəfindən köçürülmüş kompensasiyaya şərti kompensasiya razılaşmasından meydana çıxan hər hansı aktiv və öhdəliklər daxil olduqda, şərti kompensasiya alış tarixində ədalətli dəyərində tanınmalıdır və biznes birləşməsində köçürülən kompensasiyanın bir hissəsi olaraq daxil edilməlidir. Ölçülmə dövrünün düzəlişləri olaraq müəyyən edilən şərti kompensasiyanın ədalətli dəyərindəki dəyişikliklər uyğun olaraq qudvilə qarşı müvafiq düzəlişlə uyğunlaşdırılır. Ölçülmə dövrü üzrə düzəlişlər alış tarixində mövcud olan faktlar və şəraitlər haqqında ölçülmə dövrü ərzində (ölçülmə dövrü alış tarixindən etibarən bir ildən artıq olmamalıdır) əldə edilmiş əlavə məlumatlardan yaranmış düzəlişlərdir.

Ölçülmə dövrünün düzəlişləri olaraq müəyyən edilməyən şərti kompensasiyanın ədalətli dəyərindəki dəyişikliklər üzrə sonrakı dövrün uçotu şərti kompensasiyanın təsnifləndirilmə şəklindən asılıdır. Kapital kimi təsnifləşdirilmiş şərti kompensasiya hesabat tarixindən sonrakı dövrdə yenidən ölçülməməli və onun sonrakı hesablaşması kapital daxilində uçota alınmalıdır.

Aktiv və ya öhdəlik olaraq təsnifləşdirilmiş şərti kompensasiya hesabat tarixindən sonrakı tarixlərdə MUBS 39 “Maliyyə Alətləri: Tanınma və Ölçülmə”, və ya MUBS 37 “Ehtiyatlar, Şərti Öhdəliklər və Şərti Aktivlər” standartlarına və konsolidasiya edilmiş mənfəət və zərər hesablarında tanınmış müvafiq gəlir və ya zərərlərə müvafiq olaraq yenidən ölçülür.

Mərhələlərlə əldə edilmiş müəssisələrin birləşməsində Qrup alış tarixində (Qrupun nəzarəti əldə etdiyi tarixdə) ədalətli dəyərdə özünün əvvəllər əldə edilmiş müəssisədə sahib olduğu səhm payı üzrə iştirakı yenidən ölçməli və mövcud olduğu təqdirdə yaranan gəlir və ya zərəri müvafiq olaraq mənfəət və ya zərər hesablarında tanımalıdır. Alış tarixindən əvvəlki hesabat dövrlərində digər məcmu gəlirlərdə tanınmış əldə edilmiş müəssisədə səhm payı üzrə iştirakdan yaranmış məbləğlər səhm payı üzrə iştirakı birbaşa xaric edərsə, tələb olunacaq eyni əsasda tanındığı təqdirdə mənfəət və zərər hesablarına təsnifləşdirilir.

Əgər müəssisələrin birləşməsi üçün aparılan ilkin uçot, birləşmənin baş verdiyi hesabat dövrünün sonuna qədər tamamlanmamışdırsa, Qrup öz maliyyə hesabatlarında uçotun tamamlanmadığı bəndlər üçün müvəqqəti məbləğlər haqqında məlumat verməlidir. Ölçülmə dövrü ərzində (yuxarıda qeyd olunmuşdur) Qrup alış tarixindəki kimi mövcud olan faktlar və şəraitlər haqqında əldə edilmiş və məlum olduğu təqdirdə həmin tarixdən başlayaraq tanınmış məbləğlərin ölçülməsinə təsir göstərmiş olacaq yeni məlumatı əks etdirmək üçün alış tarixində tanınmış müvəqqəti məbləğlərə retrospektiv qaydada düzəliş etməlidir.

Əgər ana şirkət öz törəməsi üzərində nəzarəti itirirsə, bu zaman keçmiş törəmə müəssisənin aktivlərinin və öhdəliklərinin maliyyə vəziyyəti haqqında konsolidə edilmiş hesabatda tanınmasını dayandırır. Nəzarətin itirilməsi törəmə üzərində nəzarətin itirilməsi deməkdir, yəni investisiya obyektini idarə etmir və ya investisiya obyektində müxtəlif gəlirlər əldə etmək və öz səlahiyyəti ilə investisiya obyektinin gəlirlərinə təsir göstərə bilmir.

31 dekabr 2017-ci il tarixinə Qrup "Şami Keçi Fermer Təsərrüfatı" MMC-nin 100% səhmlərini hüquqi şəxsə satmışdır, nəticə etibarilə Qrup bu törəmə üzrə nəzarəti itirmişdir. Bu əməliyyat üzrə təfsilat 6-cı Qeyddə açıqlanmışdır.

**Əmlak, tikili və avadanlıqlar**

Əmlak, tikili və avadanlıqlar yığılmış amortizasiya və ehtimal edilən dəyər azalmaları üzrə ehtiyatlar çıxılmaqla tarixi dəyəri ilə tanınır.

Əsas istismar və təmir xərcləri əvəzləşdirilən aktiv və ya aktivin hissələri, yoxlama xərcləri və əsaslı təmir xərclərindən ibarətdir. Aktiv və ya aktivin bir hissəsi ayrıca olaraq amortizasiya olunduqda və cari olaraq silindikdə və ya əvəzləşdirildikdə və həmin aktivlə bağlı gələcək iqtisadi gəlirlərin qrupa axını ehtimal olunduqda, xərclər kapitallaşdırılllır. Aktivin hissəsi bir komponent olaraq ayrıca nəzərə alınmadıqda, əvəvzləşdirmə dəyəri dərhal silinən əvəzləşdirilən aktivlərin qalıq dəyərini qiymətləndirmək üçün istifadə olunur. Əsas istismar proqramları ilə bağlı yoxlama xərcləri kapitallaşdırılır və növbəti yoxlama dövrü ərzində amortizasiya olunur. Bütün digər istismar xərcləri baş verdiyi zaman xərc olaraq tanınır.

**Köhnəlmə**

Digər əmlak, tikili və avadanlıqlar üzrə amortizasiya həmin əmlak, tikili və avadanlıqların qiymətini təxmin edilən faydalı istifadə müddət üzrə düz xətt metodu ilə hesablanır:

| | |
|---|---|
| Binalar | 2% |
| Tikili və avadanlıqlar | 4% |
| Maşın və avadanlıqlar | 10% |
| Kompüter və avadanlıqlar | 20% |
| Mebel və qurğular | 20% |
| Nəqliyyat vasitələri | 20% |
| Qeyri-maddi aktivlər | 10% |

Aktivin qalıq dəyəri dedikdə aktivin artıq istifadə edilmiş olması və istifadə müddətinin sonunda olacağı vəziyyətdə olması fərziyyəsi ilə Qrupun həmin aktivin satışından əldə edə biləcəyi vəsaitlərin məbləği, çıxılsın satışın təxmini xərcləri, nəzərdə tutulur. Aktivin qalıq dəyəri belə o halda sıfır olur ki, Qrup həmin aktivi onun istifadə müddətinin sonuna qədər istifadədə saxlamaq niyyətində olsun. Aktivlərin qalıq dəyərləri və istifadə müddətləri hər bir hesabat tarixində müvafiq surətdə yenidən təhlil edilir və dəqiqləşdirilir.

Qalıq dəyəri, faydalı ömür təxminləri və amortizasiya metodları hər bir hesabat tarixində yenidən təhlil edilir və təxminlərdə olan dəyişikliklərin təsiri prospektiv olaraq tətbiq edilir.

Əmlak, qurğu və avadanlıqların satışı və ya silinməsindən yaranan gəlir və ya zərər aktivin satışdan daxil olan vəsaitlər və qalıq məbləği arasındakı fərq olaraq müəyyən edilir və məcmu gəlir haqqında hesabatda tanınır.

**Əmlak, tikili, avadanlıqlar, qeyri-maddi aktivlər və bioloji aktivlərin faydalı istismar müddəti**

Qrupun mülkiyyətində olan əmlak, tikili, avadanlıqlar və qeyri-maddi aktivlər Qrupun rəhbərliyinin həmin aktivlərlə bağlı biznes planları və əməliyyat hesablamalarına müvafiq olaraq faydalı istismar müddətləri üzrə düz xətt metodundan istifadə edilməklə hesablanılır.

Uzunmüddətli aktivlərin təxmin edilən faydalı istismar müddəti və qalıq dəyərinə aktivlər, xidmət texnologiyaları, qanunvericilikdə dəyişikliklər, gözlənilməyən əməliyyat şəraitinin istismar dərəcəsi təsir edir. Qrupun rəhbərliyi vaxtaşırı tətbiq edilən faydalı istismar müddətini nəzərdən keçirir. Bu təhlillər aktivlərin cari texniki vəziyyəti və Qrupa iqtisadi fayda gətirəcəkləri dövr üzrə aparılır.

Yuxarıda göstərilən amillərdən hər hansı biri köhnəlmənin gələcək dərəcələrinə, eləcə də əmlak, tikili, avadanlıqlar və qeyri-maddi aktivlərin qalıq dəyərinə təsir göstərə bilər.

**Əmlak, tikili və avadanlıqlar, qeyri-maddi aktivləri və bioloji aktivlərin dəyərsizləşməsi**

Hər bir hesabat dövrünün sonunda Qrup öz maddi və qeyri-maddi aktivlərini dəyərsizləşmə zərərlərinin baş verməsini təyin etmək məqsədi ilə təhlil edir. Əgər belə hal mövcud olarsa bu aktiv üzrə əldə edilməsi mümkün olan məbləğ təyin edilir və dəyərsizləşmə zərərinin məbləği (əgər varsa) hesablanır. Fərdi aktiv üzrə əldə edilməsi mümkün olan məbləğin təyin edilməsi mümkün olmadıqda Qrup aktivin aid olduğu nağd pul əmələ gətirən biznes vahidinin qalıq dəyərini təhlil edir.

Aktiv üzrə əldə edilməsi mümkün olan məbləğ satış xərcləri və istifadə dəyəri çıxılmaqla ədalətli dəyərdən daha yüksəkdir. İstifadə dəyərinin qiymətləndirilməsində proqnozlaşdırılmış gələcək pul vəsaitlərinin hərəkəti pulun zaman dəyəri və pul vəsaitlərinin gələcək hərəkəti ilə bağlı proqnoza uyğun gəlməyən aktivə xas risklər üzrə cari bazar qiymətləndirmələrini əks etdirən Qrupun kredit dərəcələrindən istifadə etməklə pul vəsaitlərinin cari dəyərinə qədər diskontlaşdırılır.

Əgər aktiv (və ya aktivin aid olduğu nağd pul əmələ gətirən biznes vahidi) üzrə əldə edilməsi mümkün olan məbləğ aktivin (və ya aktivin aid olduğu nağd pul əmələ gətirən biznes vahidinin) qalıq dəyərindən azdırsa onun qalıq dəyəri qaytarılması mümkün olan məbləğə qədər azaldılır. Dəyərsizləşmə zərəri birbaşa mənfəət və zərər hesablarında qeyd olunur.

Dəyərsizləşmə zərərlərinə səbəb olan hallar növbəti dövrlərdə aradan qalxdıqda aktivin (və ya aktivin aid olduğu nağd pul əmələ gətirən biznes vahidinin) qalıq dəyəri yenidən təyin edilmiş məbləğə qədər artırılır amma yeni təyin edilmiş qalıq dəyəri aktivin (və ya aktivin aid olduğu nağd pul əmələ gətirən biznes vahidinin) keçmiş dövrlərdə dəyərsizləşmə itkilərinin tanınmasından öncə mövcud olan qalıq dəyərindən daha çox ola bilməz.

Dəyərsizləşmə zərərlərinin yenidən qiymətləndirmə nəticəsində yaranmış artım olaraq tanındığı halda müvafiq aktiv yenidən qiymətləndirmə dəyərində qazanılarsa, dəyərsizləşmə zərərlərinin geri qaytarılması dərhal mənfəət və zərər hesablarında tanınır.

**Əmlak, tikili və avadanlıqlar üzrə avans ödənişləri**

Avans ödənişləri dəyərsizləşmə zərərləri üzrə ehtiyatların çıxılması ilə tanınır. Avans ödənişi uzunmüddətli kimi o zaman təsnifatlaşdırılır ki, avans ödənişi ilə əlaqədar olan malların və ya xidmətlərin əldə edilməsi bir ildən sonra gözlənilir və ya avans ödənişi ilkin tanınmadan sonra uzunmüddətli aktiv kimi tanınacaq aktivə aiddir.

Qrupun aktiv üzərində nəzarət əldə etdiyi və bu aktivlə əlaqədar gələcəkdə iqtisadi mənfəətlərin Qrupa axını ehtimal edildiyi hallarda aktivin əldə edilməsi üçün edilən avans ödənişləri aktivin qalıq dəyərinə ötürülür. Digər avans ödənişləri mallar və ya xidmətlər alındıqdan sonra mənfəət və zərər hesablarında əks etdirilir. Avans ödənişlərinə aid olan aktivlərin, malların və ya xidmətlərin alınmaması üzrə müəyyən göstəricilər yarandıqda avans ödənişinin qalıq dəyəri müvafiq olaraq silinir və dəyərsizləşmə zərəri mənfəət və zərər hesablarında tanınır.

**Müştəridə saxlanılan və sonradan geri qaytarılması gözlənilən əmanətlər**

Müştəridə saxlanılan və sonradan geri qaytarılması gözlənilən əmanətlər effektiv faiz metodundan istifadə edilməklə amortizasiya olunmuş dəyərdə uçota alınır.

**Mal-material ehtiyatları**

Mal-material ehtiyatları faktiki qiymət və ya daha aşağı olarsa xalis mümkün satış qiyməti ilə uçota alınır. Mal-material ehtiyatlarının maya dəyəri orta çəkili dəyər üsulu ilə müəyyən olunur və mal-material ehtiyatlarının cari yeri və vəziyyətinə gətirilməsi ilə bağlı bütün xərclər daxil edilir.

İlkin dəyərə birbaşa material xərcləri, əmək və bölüşdürülən material və istehsal xərcləri daxildir. İstehsal prosesində və hazır məhsulların maya dəyərinə xammalın alınması üzrə xərclər və sabit və dəyişən xərclərin ayrılması və birbaşa əmək kimi emal xərcləri daxildir.

Xalis satış dəyəri tamamlanma üçün təxmin edilən xərclər və satış xərcləri çıxılmaqla mal-material ehtiyatları üzrə ehtimal edilən satış qiyməti ilə əks etdirilir. Müvafiq olduqda, köhnəlmiş və az istifadə edilən mal-material ehtiyatları üzrə ehtiyatlar tanınır. Mal-material ehtiyatlarının qalıq dəyərini onların xalis satış dəyərinə qədər azaltmaq üçün dəyərsizləşmə üzrə tutulmalar və köhnəlmiş və az istifadə edilən mal-material ehtiyatları üzrə ehtiyatlar inzibati xərclər olaraq mənfəət və ya zərər hesabatlarına və digər məcmu gəlirə daxil edilir.

**Verilmiş kreditlər**

Verilmiş kreditlər Qrup tərəfindən müştərilərin kreditini satınalmaq və ya kredit vermək üçün avans şəklində nağd pul verildiyi zaman qeydə alınır. Biznes modeli və pul vəsaitlərinin hərəkəti xarakteristikasına əsasən Qrup verilmiş kreditləri aşağıdakı ölçülmə kateqoriyalarından birində təsnifləşdirir:

- AD: müqavilə üzrə pul vəsaitlərinin toplanması üçün saxlanılan kreditlər və YƏMFÖ-ni təmsil edən həmin pul vəsaitlərinin hərəkəti və könüllü olaraq MZVƏD-də təyin olunmayan kreditlər; və
- MZVƏD: YƏMFÖ sınağını keçməyən və ya MZVƏD-də ölçülən AD və ya DMGVƏD üzrə digər meyarlara cavab verməyən kreditlər.

***Maliyyə alətləri - əsas qiymətləndirmə üsulları***

Ədalətli dəyər qiymətləndirmə tarixində bazar iştirakçıları arasında könüllü şəkildə əməliyyat həyata keçirilərkən aktivi satmaq üçün alınacaq və öhdəliyi ötürərkən ödəniləcək dəyərdir. Ədalətli dəyər ən yaxşı olaraq fəal bazarda alınıb satıla bilən qiymət ilə təsdiqlənir. Fəal bazar, qiymətlər haqqında davamlı olaraq məlumat əldə etmək üçün aktiv və öhdəliklər üzrə əməliyyatların kifayət qədər tez müddətdə və həcmdə həyata keçirildiyi bazardır.

Fəal bazarda alınıb satılan maliyyə alətlərinin ədalətli dəyəri ayrı-ayrı aktiv və ya öhdəliklərin bazar qiymətinin müəssisənin istifadəsində olan aktiv və ya öhdəliklərin miqdarına hasili nəticəsində alınan məbləğ kimi ölçülür. Bu hal hətta bazarın normal gündəlik ticarət dövriyyəsi müəssisənin istifadəsində olan aktiv və öhdəliklərin qarşılanması üçün kifayət qədər olmadıqda və bir əməliyyat üzrə mövqelərin satılması üçün sifarişlərin yerləşdirilməsi bazar qiymətinə təsir etdikdə baş verir.

Əməliyyatın qiyməti haqqında bazar məlumatı olmayan maliyyə alətlərinin ədalətli dəyərini müəyyən etmək üçün pul axınlarının diskontlaşdırılması modelindən, həmçinin bazar şərtləri ilə həyata keçirilən analoji əməliyyatlar haqqında məlumatlara və ya investisiya olunan müəssisələrin cari dəyərinə əsaslanan modellərdən istifadə edilir.

Ədalətli dəyərin qiymətləndirilməsi nəticələri aşağıda göstərildiyi kimi ədalətli dəyər iyerarxiyasının səviyyələrinə görə təhlil edilir: (i) 1-ci Səviyyəyə oxşar aktivlər və ya öhdəliklər üçün aktiv bazarlarda kotirovka olunan (düzəliş edilməyən) qiymətlər ilə qiymətləndirmələr aiddir, (ii) 2-ci Səviyyəyə aktiv və ya öhdəlik üçün birbaşa (yəni, qiymətlər) və ya dolayısı ilə (yəni, qiymətlər əsasında hesablananlar) müşahidə edilə bilən əhəmiyyətli ilkin məlumatların istifadə edildiyi qiymətləndirmə üsulları ilə qiymətləndirmələr aiddir (iii) 3-cü Səviyyəyə aid olan qiymətləndirmələr yalnız müşahidə oluna bilən bazar məlumatlarına əsaslanmır (yəni, qiymətləndirmə üçün əhəmiyyətli həcmdə müşahidə oluna bilməyən ilkin məlumatlar tələb edilir). Ədalətli dəyər iyerarxiyasının səviyyələri arasında köçürmələr hesabat dövrünün sonunda baş vermiş hesab edilir.

Əməliyyat xərcləri əlavə xərcləri əks etdirir və birbaşa olaraq maliyyə alətinin alışı, buraxılması və ya satışı ilə əlaqəlidir. Əlavə xərc əməliyyat həyata keçirilmədiyi təqdirdə yaranmayan xərclərdir. Əməliyyat xərclərinə agentlərə (satış üzrə agentlər kimi fəaliyyət göstərən işçilər daxil olmaqla), məsləhətçilərə, brokerlərə və dilerlərə ödənilmiş haqq və komissiyalar, tənzimləyici orqanlar və fond birjalarına ödəmələr, eləcə də mülkiyyət hüququnun köçürülməsi üzrə vergilər və rüsumlar daxildir. Əməliyyat xərclərinə borc öhdəlikləri üzrə mükafat və ya diskontlar, maliyyələşdirmə xərcləri, daxili inzibati və ya saxlama xərcləri daxil edilmir.

Amortizasiya edilmiş dəyər əsas məbləğin ödənilməsi çıxılmaqla, lakin hesablanmış faizləri daxil etməklə, maliyyə aktivləri üçün isə dəyərsizləşmə zərərləri üzrə hər hansı silinməni çıxmaqla aktivlərin ilkin dəyərini əks etdirir. Hesablanmış faizlərə ilkin uçot zamanı təxirə salınmış əməliyyat xərclərinin və effektiv faiz metodundan istifadə etməklə ödəniş məbləği üzrə hər hansı mükafat və ya diskontun amortizasiyası daxildir. Hesablanmış faiz gəlirləri və faiz xərcləri, o cümlədən hesablanmış kupon gəlirləri və amortizasiya edilmiş diskont və ya mükafat (verilmə zamanı təxirə salınmış komissiyalar daxil olmaqla, əgər varsa) ayrıca göstərilmir və maliyyə vəziyyəti haqqında hesabatda müvafiq maddələrin balans dəyərinə daxil edilir.

Effektiv faiz metodu maliyyə alətinin balans dəyəri üzrə sabit faiz dərəcəsinin (effektiv faiz dərəcəsi) təmin edilməsi üçün faiz gəlirləri və ya xərclərinin müvafiq dövr ərzində uçota alınması metodudur. Effektiv faiz dərəcəsi, təxmin edilən gələcək pul ödənişlərini və ya daxilolmaları (kreditlər üzrə gələcək zərərlər istisna olmaqla) maliyyə alətinin gözlənilən fəaliyyət müddəti ərzində və ya müvafiq hallarda daha qısa müddət ərzində maliyyə alətinin xalis balans dəyərinə diskontlaşdıran dəqiq dərəcədir. Effektiv faiz dərəcəsi maliyyə aləti üçün nəzərdə tutulan dəyişkən faiz dərəcəsi üzrə kredit spredini əks etdirən mükafatlar və ya diskont və yaxud bazar qiymətlərindən asılı olaraq müəyyən edilməyən digər dəyişkən amillər istisna olmaqla, faiz dərəcələrinin növbəti dəyişdirilmə tarixinə qədər dəyişkən faizli alətlər üzrə pul vəsaitlərinin hərəkətini diskont etmək üçün istifadə edilir. Bu cür mükafatlar və ya diskontlar maliyyə alətinin gözlənilən tədavül müddəti ərzində amortizasiya edilir. Diskont dəyərinin hesablanmasına müqavilə tərəfləri arasında ödənilmiş və ya alınmış effektiv faiz dərəcəsinin tərkib hissəsini təşkil edən bütün komissiyalar daxildir. İlkin tanınmada satınalındıqda və ya əldə edildikdə kredit dəyərsizləşməsinə uğramış aktivlər ("SƏKD") üzrə effektiv faiz dərəcəsi kredit riskinə uyğunlaşdırılır, yəni ilkin tanınmada müqavilə ödənişlərinin əvəzinə ehtimal olunan pul vəsaitlərinin hərəkəti əsasında hesablanır.

**Maliyyə aktivləri – ilkin tanıma**

MZVƏD-də olan maliyyə alətləri ilkin olaraq ədalətli dəyərdə qeydə alınır. Bütün digər maliyyə alətləri ilkin olaraq əməliyyat xərcləri üçün tənzimlənmiş ədalətli dəyərdə qeydə alınır. İlkin tanınmada olan ədalətli dəyər əməliyyat qiyməti ilə sübut edilir. İlkin tanınma zamanı mənfəət və ya zərər, eyni alətdə digər mövcud müşahidə oluna bilən cari bazar əməliyyatları və ya müşahidə oluna bilən bazarlardan olan məlumatları əks etdirən qiymətləndirmə üsulu vasitəsilə ədalətli dəyərlə əməliyyat qiyməti arasındakı fərq sübut olunan zaman qeydə alınır. İlkin tanınmadan sonra, EOKZ üzrə ehtiyat mühasibat uçotu zərərinə səbəb olan AD-də ölçülən maliyyə aktivləri və DMGVƏD-də ölçülən borc vəsaitləri üzrə investisiyalarda tanınır.

Qanunvericilik və ya mövcud bazar qaydaları ilə müəyyən edilmiş vaxt çərçivəsində alınıb-satılması nəzərdə tutulan maliyyə aktivləri (“standart şərtlərlə həyata keçirilən” alış və satışlar) Qrupun maliyyə aktivini almaq və ya satmaq öhdəliyini qəbul etdiyi əməliyyat tarixində qeydə alınır. Alış üzrə bütün digər əməliyyatlar müəssisənin həmin maliyyə aləti üzrə müqavilə tərəfi olduqda tanınır.

**Maliyyə aktivləri – təsnifat və sonrakı ölçmə – ölçü kateqoriyaları**

Qrup maliyyə aktivlərini aşağıdakı ölçü kateqoriyalarında təsnifləşdirir: MZVƏD, DMGVƏD və AD. Borc maliyyə aktivlərinin təsnifatı və sonrakı ölçülməsi aşağıdakılardan asılıdır: (i) əlaqəli aktivlər portfelini idarə etmək üçün Qrupun biznes modeli və (ii) aktivin pul vəsaitlərinin hərəkəti xüsusiyyətləri.

**Maliyyə aktivləri – təsnifat və sonrakı ölçmə – biznes modeli**

Biznes modeli Qrupun pul vəsaitlərinin hərəkətini təmin etmək üçün aktivlərin necə idarə olunduğunu əks etdirir - Qrupun məqsədi: (i) aktivlərdən müqavilə üzrə pul axınlarını toplamaq (“müqavilə üzrə pul axınlarını toplamaq üçün saxlamaq”) və ya (ii) həm müqavilə üzrə pul axınları, həm də aktivlərin satışından yaranan pul axınlarını toplamaq (“müqavilə üzrə pul axınlarını toplamaq və satmaq üçün saxlamaq”) və ya, qeyd olunanlardan heç biri (i) və (ii) tətbiq olunduğu halda, maliyyə aktivləri “digər” biznes modelinin bir hissəsi kimi təsnif edilir və MZVƏD-də qiymətləndirilir.

Biznes modeli, Qrupun qiymətləndirmə tarixində mövcud olan portfel üzrə məqsədinə nail olmaq üçün öhdəsinə götürdüyü fəaliyyətlər barədə bütün müvafiq dəlillərə əsasən bir qrup aktiv (portfel səviyyəsində) üçün müəyyən edilir. Biznes modelini müəyyənləşdirməkdə Qrup tərəfindən nəzərdən keçirilmiş amillərə portfelin məqsədi və tərkibi, müvafiq aktivlər üçün pul vəsaitlərinin hərəkətinin necə alındığına dair keçmiş təcrübə, risklərin qiymətləndirilməsi və idarə olunması, aktivlərin icrasının necə qiymətləndirilməsi və menecerlərin kompensasiya olunması aiddir.

**Maliyyə aktivləri – təsnifat və sonrakı ölçmə – pul vəsaitlərinin hərəkəti xarakteristikaları**

Biznes modeli müqavilə üzrə pul axınlarını toplamaq və ya müqavilə üzrə pul axınlarını saxlamaq və satmaq üçün nəzərdə tutularsa, Qrup pul axınlarının yalnız əsas məbləğin və faizin ödənilməsini (YƏMFÖ) təqdim etməsini qiymətləndirir. Müqavilə şərtləri əsas kreditləşmə razılaşmasına zidd olan riskə və ya qeyri sabitliyə məruz qaldıqda, maliyyə aktivi MZVƏD-də təsnifləşdirilir və ölçülür. YƏMFÖ-nün qiymətləndirilməsi aktivin ilkin tanınması ilə həyata keçirilir və sonradan yenidən qiymətləndirilmir.

**Maliyyə aktivləri – yenidən təsnifat**

Maliyyə alətləri portfelin idarə olunması üçün biznes modeli tamamilə dəyişikliyə məruz qaldığı zaman yenidən təsnif edilir. Yenidən təsnifləşdirmə perspektiv effektə malikdir və biznes modeli dəyişikliyindən sonrakı ilk hesabat dövrünün əvvəlindən başlayır. Cari və müqayisəli dövr ərzində müəssisə biznes modelini dəyişdirməmiş və yenidən təsnifat həyata keçirməmişdir.

**Maliyyə alətlərinin dəyərsizləşməsi – EOKZ üzrə kredit zərəri ehtiyatı**

Qrup AD və DMGVƏD ilə ölçülmüş borc alətləri və kredit öhdəlikləri və maliyyə zəmanəti müqavilələri üzrə EOKZ-u perspektiv əsasda ölçür. Qrup EOKZ-u ölçür və hər hesabat dövrünə kredit zərəri üzrə ehtiyatı tanıyır. EOKZ ölçülməsi: (i) mümkün nəticələrin bir sıra qiymətləndirilməsi ilə təyin olunan qərəzsiz və ehtimallı məbləğini (ii) pul vəsaitlərinin müddət dəyərini və (iii) keçmiş hadisələr, gələcək şərtlər və gələcək şəraitin proqnozları barədə hər bir hesabat dövrünün sonunda qeyri-adekvat xərc və səy olmadan mövcud olan bütün məqbul və dəstəklənən məlumatları əks etdirir.

**Maliyyə aktivlərinin silinməsi**

Qrup bütün praktiki bərpaetmə səylərini tükətdikdə və bərpa etmək üçün ağlabatan bir gözləntinin olmadığı qənaətinə gəldikdə, maliyyə aktivləri tamamilə və ya qismən silinir. Silinmələr tanınmanın dayandırılmasını əks etdirir. Qrup, müqaviləyə əsasən ödənilən məbləğləri bərpa etmək istədiyi halda, hələ də icra fəaliyyətinə məruz qalan maliyyə aktivlərini silə bilər; lakin bərpa üçün ağlabatan gözlənti yoxdur.

**Maliyyə aktivlərinin tanınmasının dayandırılması**

Qrup aşağıdakı hallarda maliyyə aktivlərinin tanınmasını dayandırır: (a) aktivlər geri alındıqda və ya bu aktivlərlə əlaqədar pul vəsaitlərinin hərəkəti üzrə hüquqların müddəti başa çatdıqda və ya (b) Qrup maliyyə aktivlərindən daxil olan pul vəsaitlərinin axını üzrə mülkiyyət hüququnu ötürdükdə və ya ötürülmə haqqında müqavilə bağladıqda və bu zaman (i) həmin aktivlərin mülkiyyət hüququ ilə əlaqədar bütün risk və faydaları əsas etibarilə başqa tərəfə ötürdükdə və ya (ii) bu aktivlərin mülkiyyət hüququ ilə əlaqədar bütün risk və faydaları əsas etibarilə ötürmədikdə və ya saxlamadıqda, lakin, həmin aktivlər üzrə nəzarət hüququnu özündə saxlamadıqda.

Nəzarət qarşı tərəfin öz mülkiyyətində olan aktivi satış üzrə əlavə məhdudiyyətlər qoymadan əlaqəli olmayan üçüncü tərəfə satmaq üçün praktiki imkana malik olmadığı hallarda saxlanılır.

**Maliyyə aktivlərinin dəyişdirilməsi**

Qrup bəzən maliyyə aktivlərinin müqavilə şərtlərini yenidən nəzərdən keçirir və ya başqa şəkildə dəyişdirir. Qrup, aşağıdakı amilləri nəzərə alaraq, müqavilə üzrə pul vəsaitlərinin hərəkətinin dəyişdirilməsinin digər amillərlə yanaşı, əhəmiyyətli olub-olmadığını qiymətləndirir: aktivin risk profilinə (məsələn, mənfəət payı və ya kapital əsaslı gəlir) əhəmiyyətli dərəcədə təsir göstərən hər hansı yeni müqavilə şərtləri, faiz dərəcəsində əhəmiyyətli dəyişiklik, valyuta denominasiyası üzrə dəyişiklik, borcalanın maliyyə çətinliyi olmadığı halda, aktivlə əlaqəli kredit riski və ya kreditin əhəmiyyətli səviyyədə genişləndirilməsinə yüksək dərəcədə təsir edən yeni girov və ya kreditin artırılması.

Dəyişdirilmiş şərtlər əhəmiyyətli dərəcədə fərqli olduğu halda, ilkin aktiv üzrə pul vəsaitlərinin hərəkətinə olan hüquq başa çatır və Qrup ilkin maliyyə aktivini tanımağı dayandırır və ədalətli dəyəri ilə yeni aktivi tanıyır.Yenidən baxış tarixi KRƏA-nın müəyyənləşməsi daxil olmaqla, sonrakı dəyərsizləşmə üzrə hesablama məqsədləri istifadə olunur. Qrup, yeni kredit və ya borc alətinin YƏMFÖ meyarına uyğun olub olmadığını qiymətləndirir. Tanınması dayandırılmış ilkin aktivin qalıq dəyəri ilə əhəmiyyətli dərəcədə dəyişdirilmiş yeni aktivin ədalətli dəyəri arasındakı fərq, fərqin mahiyyəti mülkiyyətçilərlə kapital əməliyyatlarına aid olmadığı təqdirdə mənfəət və ya zərərdə tanınır.

Yeni şərtlərin qarşı tərəfin maliyyə çətinlikləri və ilkin razılaşdırılmış ödənişləri etmək qabiliyyətinə malik olmadığı bir vəziyyətdə, Qrup, müqavilə dəyişikliyi səbəbi ilə aktivin risk və səmərəsinin əhəmiyyətli dərəcədə fərqli olub-olmamasından asılı olaraq, ilkin və yenidən razılaşdırılmış gözlənilən pul vəsaitlərinin hərəkətini aktivlərlə müqayisə edir. Risklər və mükafatların dəyişmədiyi təqdirdə, dəyişdirilmiş aktiv ilkin aktivdən əhəmiyyətli dərəcədə fərqlənmir və dəyişmə prosesi tanınmanın dayandırılmasına səbəb olmur. Qrup, ilkin effektiv faiz dərəcəsi (ya da SƏKD maliyyə aktivləri üçün kreditlə tənzimlənən effektiv faiz dərəcəsi) vasitəsilə dəyişdirilmiş müqavilə üzrə pul vəsaitlərinin hərəkətini güzəşt etməklə ümumi qalıq məbləğini yenidən hesablayır və mənfəət və ya zərərdə dəyişiklik mənfəəti və zərərini tanıyır.

**Ədalətli dəyərin ölçülməsi**

Ədalətli dəyər ölçmə tarixində əsas bazarda və ya əsas bazar olmadıqda həmin tarixdə Qrupun daxil ola biləcəyi daha sərfəli bazarda bazar iştirakçıları arasında intizamlı əməliyyatda aktivi satmaq üçün qəbul edilmiş və ya öhdəliyi ötürmək üçün ödəniləcək qiymətdir. Öhdəliyin ədalətli dəyəri onun yerinə yetirilməmə riskini əks etdirir.

Mümkün olduqda, Qrup fəal bazarda həmin alət üçün elan olunmuş qiymətlər üzrə alətin ədalətli dəyərini ölçür. Bazar, qiymətləndirmə məlumatlarını təmin etmək üçün aktivlər və ya öhdəliklər üzrə əməliyyatlar davamlı olaraq kifayət qədər tezlikdə və həcmdə baş verdikdə fəal hesab olunur.

Fəal bazarda təyin edilmiş qiymət olmadıqda Qrup, müşahidə edilə bilən müvafiq məlumatların istifadəsini artıran və müşahidə edilə bilməyən məlumatların istifadəsini azaldan qiymətləndirmə üsullarından istifadə edir. Seçilmiş qiymətləndirmə üsulu, bazar iştirakçıları əməliyyata qiymət təyin edərkən nəzərə aldıqları bütün amilləri özündə birləşdirir.

Ədalətli dəyəri ölçülən və maliyyə hesabatlarında açıqlanmış bütün aktivlər və öhdəliklər aşağıda təsvir edilmiş və bütövlükdə ədalətli dəyərin ölçülməsi üçün mühüm olan ən aşağı səviyyədə məlumatlara əsaslanmış ədalətli dəyər iyerarxiyasında təsnifləşdirilir:

- Səviyyə 1 – fəal bazarlarda oxşar aktivlər və öhdəliklər üzrə təyin edilmiş (nizamlanmamış) bazar qiymətləri;
- Səviyyə 2 – aktiv və ya öhdəlik üçün birbaşa və ya dolayısı ilə müşahidə edilə bilən məlumatlar olan ilkin məlumatlardan istifadə edilir;
- Səviyyə 3 – ədalətli dəyər qiymətləndirərkən aktiv və ya öhdəliklər üçün müşahidə edilən bazar məlumatlarına əsaslanmayan ilkin məlumatlar daxil olan qiymətləndirmə üsulundan istifadə edilir (müşahidə edilməyən məlumatlar).

Maliyyə hesabatlarında dövrü əsasda tanınmış aktivlər və öhdəliklər üzrə Qrup hər hesabat dövrünün sonunda yenidən təyin edilmiş təsnifatla (bütövlükdə ədalətli dəyərin ölçülməsi üçün zəruri olan ən aşağı səviyyəli məlumata əsaslanmış) iyerarxiyada səviyyələr arasında köçürmələrin olub olmamasını müəyyən edir.

**Pul vəsaitləri və onların ekvivalentləri**

Pul vəsaitləri və onların ekvivalentlərinə kassadakı nağd pul vəsaitləri, cari bank hesabları üzrə əmanətlər və üç ay və ya daha az ilkin ödəmə tarixləri ilə digər qısamüddətli yüksək likvidlik səviyyəsinə malik investisiyalar daxildir. Pul vəsaitləri və onların ekvivalentləri amortizasiya olunmuş dəyərdə uçota alınırlar, çünki: (i) müqavilə üzrə pul vəsaitlərinin hərəkətinin toplanması üçün saxlanılır və həmin pul vəsaitlərinin hərəkəti YƏMFÖ-ni təqdim edir, və (ii) onlar DMGƏD olaraq təyin edilmir.

**Debitor borcları və digər alınacaq vəsaitlər**

Debitor borcları və digər alınacaq vəsaitlər effektiv faiz dərəcəsi üsulundan istifadə etməklə uçota alınır.

**Maliyyə öhdəlikləri və kapital alətləri**

Borc və kapital alətləri müqavilə razılaşmalarının mahiyyəti və maliyyə öhdəliyi və kapital alətinin təriflərinə uyğun olaraq maliyyə öhdəlikləri və ya kapital kimi təsnif edilir.

***Kapital alətləri***

Kapital aləti, bütün öhdəliklərini çıxardıqdan sonra müəssisənin aktivlərində qalıq payını təsdiq edən hər hansı müqavilədir. Qrup tərəfindən buraxılmış kapital alətləri, buraxılış üçün nəzərdə tutulan birbaşa xərclər çıxılmaqla əldə edilmiş daxilolmalar üzrə tanınır.

***Maliyyə öhdəlikləri – ölçü kateqoriyaları***

Bu təsnifat törəmə alətlərə, ticarət məqsədilə saxlanılan maliyyə öhdəliklərinə (qiymətli kağızlar üzrə qısamüddətli mövqelər), biznesin birləşməsi zamanı alıcı tərəfindən tanınan şərti öhdəlik və ilkin tanınmada bu kimi təyin edilmiş digər maliyyə öhdəlikləri və (ii) maliyyə zəmanət müqavilələri və kredit öhdəliklərinə tətbiq edilir.

***Maliyyə öhdəliklərinin tanınmasının dayandırılması***

Maliyyə öhdəliklərinin tanınmasının dayandırılması, silindikdən sonra baş verir (yəni müqavilə üzrə öhdəliklər təxirə salınarsa, dayadırılarsa və və müddəti bitərsə).

Qrup ilə borc alətlərinin ilkin sahibləri arasında müxtəlif mahiyyətli şərtlər ilə, eləcə də mövcud öhdəliklər üzrə şərtlərin mahiyyət etibarilə dəyişdirilməsi, ilkin maliyyə öhdəliyinin ləğv edilməsi olaraq və yeni maliyyə öhdəliyi olaraq uçota alınır.

Yeni yaradılmış maliyyə öhdəliyinin şərtlərinə əsasən, o cümlədən alınmış hər hansı haqqlar üzrə nağd ödənilmiş haqlar və ilkin effektiv faiz dərəcəsi ilə diskontlaşdırılmış ödənişlər də daxil olmaqla, pul vəsaitlərinin hərəkətinin diskontlaşdırılmış hazırkı dəyəri, ilkin maliyyə öhdəliyi üzrə qalan pul vəsaitlərinin hərəkətinin diskontlaşdırılmış hazırkı dəyərindən ən az 10 faiz fərqləndikdə, yeni müddəaların əhəmiyyətli dərəcədə fərqli olması hesab edilir. Əlavə olaraq, faiz dərəcələrindən asılı olaraq, dəyişiklik əsasında ifadə olunan valyuta, alətə əlavə edilmiş yeni konvertasiya xüsusiyyətləri və kredit şərtlərində dəyişiklik kimi digər keyfiyyət amilləri də nəzərə alınır. Borc alətləri üzrə maloyyə şərtlərinin dəyişdirilməsi ləğv edilmə olaraq uçota alınırsa, yaranmış hər hansı xərclər və ödənişlər ləğv edilmə üzrə mənfəət və ya zərərin bir hissəsi olaraq qəbul edilir. Əgər dəyişiklik ləğvetmə olaraq uçota alımırsa, yaranmış bütün xərclər və ya ödənişlər öhdəliyin qalıq məbləğini tənzimləyir və dəyişdirilmiş öhdəliyin digər şərtləri üzrə amortizasiya olunur.

Öhdəliklərin ləğvi olunmaqla nəticələnməyən formada dəyişdirilməsi, qalıq dəyərindəki fərqin iqtisadi mahiyyətinin kapital sahibləri ilə əməliyyatlarla əlaqəli olduğu hallar istisna olmaqla, balansdakı dəyişiklik bütün təsirlərin cəmlənməsi üsulundan istifadə edərək, ehtimal olunan dəyişiklik kimi, mənfəət və ya zərərdə uçot təxminin dəyişməsi kimi uçota alınır.

***MZVƏD ilə təyin edilmiş maliyyə öhdəlikləri***

Qrup, ilkin tanınmada müəyyən öhdəlikləri MZVƏD olaraq təyin edə bilər. Bu öhdəliklər üzrə gəlirlər və zərərlər, DMG-də qeyd edilən və sonradan mənfəət və ya zərər kateqoriyasında təsnif edilməyən öhdəliyin kredit riskinə edilən dəyişikliklərə aid olan ədalətli dəyərdəki dəyişiklik məbləğindən başqa, mənfəət və ya zərər hesabatında təqdim edilir (bazar riski yaratmayan bazar şəraitində dəyişikliklərə aid olmayan məbləğ kimi müəyyən edilir). Belə bir təqdimat uçot uyğunsuzluğuna səbəb olduğu hallarda, öhdəliyin kredit riskinə edilən dəyişikliklərə aid mənfəət və zərərlər də mənfəət və ya zərər kateqoriyasında təsnif edilir.

***Maliyyə aətlərinin əvəzləşdirməsi***

Maliyyə aktiv və öhdəliklərinin əvəzləşdirilməsi və xalis məbləğin maliyyə vəziyyəti haqqında hesabata daxil edilməsi tanınmış məbləğlərin əvəzləşdirilməsi üçün qanunvericiliklə müəyyən edilmiş hüququn, eləcə də əvəzləşdirməni aparmaq və ya aktivi realizasiya edərkən müvafiq öhdəliyi də satmaq niyyətinin mövcud olduğu hallarda həyata keçirilə bilər. Belə əvəzləşdirmə hüququ (a) gələcək hadisələrdən asılı olmamalı və (b) aşağıdakı bütün hallarda hüquqi qüvvəyə malik olmalıdır (i) adi fəaliyyət gedişində (ii) defolt halı olduqda və (iii) ödəniş qabiliyyəti olmadıqda və ya müflisləşmə baş verdikdə.

**Borc alınmış vəsaitlər**

Borc alınmış vəsaitlər effektiv faiz dərəcəsi metodu ilə amortizasiya edilmiş dəyərlə uçota alınır. Əmlak və avadanlıqların inşasını maliyyələşdirmək üçün alınan borclar üzrə yaranan maliyyə xərcləri, aktivin istifadə üçün tamamlanması və hazır hala gətirilməsini tələb edən müddət ərzində kapitallaşdırılır. Bütün digər borc öhdəlikləri xərc hesablarında əks etdirilir.

**Kreditor borcları və digər ödəniləcək vəsaitlər**

Kreditor borcları və digər ödəniləcək vəsaitləri, qarşı tərəf müqavilə şərtlərinə uyğun olaraq öz öhdəliklərini yerinə yetirdiyi və effektiv faiz metodundan istifadə etməklə, amortizasiya olunmuş dəyər ilə əks olunduğu təqdirdə uçota alınır.

**İcarələr**

*Maliyyə icarəsi – Qrup icarəçi qismində*

Qrup bir sıra əmlak, tikili və avadanlıqları icarəyə götürür. Qrupun əhəmiyyətli dərəcədə bütün mülkiyyət riskləri və mənfəəti olduğu təqdirdə, əmlak, tikili və avdanlıqların icarəsi maliyyə icarəsi olaraq təsnif edilir. Maliyyə icarəsi, icarəyə götürülmüş əmlak, tikili və avadanlığın ədalətli dəyərindən aşağı dəyərdə icarəyə götürülmə tarixindən əvvəl, minimal icarə ödənişi ilə maliyyələşdirilir.

Hər bir icarə ödənişi öhdəlik ilə maliyyə tutulmaları arasında, sabit maliyyə qalığı dərəcəsinin əldə edilməsi üçün bölüşdürülür. Müvafiq icarə öhdəlikləri, maliyyə tutulmaları xaric olmaqla, digər uzunmüddətli borc alınmış vəsaitlərə daxil edilir. Buraya son ödəmə tarixi 12 aydan az olan cari borc alınmış vəsaitlər daxil deyildir. Maliyyə dəyərinin faiz elementi icarə müddəti üzrə mənfəət və zərər hesabatına, hər dövr üçün öhdəliyin qalıq dəyərinin sabit dərəcəsi üçün hesablanır. Maliyyə icarəsi ilə əldə edilmiş əmlak, tikili və avadanlıqlar, aktivin faydalı istifadə müddəti və ya icarə şərtləri ilə amortizasiya olunur.

*Əməliyyat icarəsi – Qrup icarəçi qismində*

Risklərin və mənfəətin əhəmiyyətli hissəsinin icarədara məxsus olduğu icarələri əməliyyat icarələri kimi təsnif olunur. Əməliyyat icarələri ilə həyata keçirilmiş ödənişlər (icarədardan alınmış vəsaitlər çıxılmaqla) mənfəət və zərər hesabatında düz xətt metodu əsasında icarə müddəti üzrə uçota alınır. Əməliyyat icarəsinə, icarə müddəti bitdikdən əvvəl xitam verilirsə, cərimə olaraq icarəçidən ödənilməsi tələb olunan hər hansı ödəniş, xitam müddətində xərclər olaraq uçota alınır.

**Ehtiyatlar**

Ehtiyatlar, Qrup keçmiş hadisələr nəticəsində cari hüquqi və ya əsaslanmış öhdəliyə malik olduqda, öhdəliyin yerinə yetirilməsi üçün iqtisadi səmərə yaradan ehtiyatların azalma ehtimalı olduqda və öhdəlik məbləği etibarlı şəkildə qiymətləndirildikdə uçota alınır.

Ehtiyat kimi tanınan məbləğ hesabat dövrünün sonunda müvafiq risklər və qeyri-müəyyənliklər də nəzərə alınmaqla cari öhdəliyi yerinə yetirmək üçün tələb olunan məbləğin təxmini göstəricisidir.

Ehtiyatı hesablayarkən cari öhdəliyi yerinə yetirmək üçün tələb olunan pul vəsaitlərinin təxminindən istifadə edilirsə, ehtiyatın qalıq dəyəri bu pul vəsaitlərinin cari dövrə olan diskontlaşdırılmış dəyəninin cəminə bərabərdir (pulun vaxt dəyərinin əhəmiyyət kəsb etdiyi hallarda).

Ehtiyatın qarşılanması üçün tələb edilən iqtisadi faydaların tam və ya qismən üçüncü şəxslərin hesabına geri qaytarılması gözlənilirsə, debitor borc aktiv kimi yalnız o halda tanınır ki, üçüncü tərəfin kompensasiya ödəməsi ehtimalı var və bu məbləğ etibarlı şəkildə təxmin edilə bilər.

**Vergi qanunvericiliyi**

Vergi xərcləri cari və təxirə salınmış vergi xərclərinin cəmindən ibarətdir.

***Cari vergilər***

*Azərbaycan Respublikası*

Cari vergi xərci hesabat dövrü ərzində yaranmış vergi mənfəəti əsasında hesablanır. Hesabatdakı bəzi gəlir və xərclərin digər dövrlərdə vergi bazasına aid ediləcəyinə və bəzi maddələrin heç bir vaxt vergi bazasını hesablayarkən istifadə edilməyəcəyinə görə vergi mənfəəti maliyyə hesabatlarındakı mənfəətdən fərqlənir. Qrupun cari mənfəət vergisi xərci, hesabat dövrünün sonuna qədər qüvvədə olan vergi dərəcələrindən istifadə etməklə hesablanır.

*Serbiya Respublikası*

Serbiya Respublikasında fəaliyyət göstərən və ya mərkəzi idarəetmə və nəzarəti Serbiya Respublikasında həyata keçirilən rezident şirkətlər dünya miqyasında yaranmış gəlirləri üzrə 15% vergiyə cəlb olunurlar. Gəlirlərini Serbiya Respublikasından əldə edən qeyri-rezident şirkətlər də yuxarıda qeyd olunan dərəcədə vergiyə cəlb olunurlar.

Qırğızıstan Respublikası

Vergi Məcəlləsinə əsasən, rezident müəssisələr "gəlir vergisi" adlanan korporativ gəlir vergisinə, əldə edilmiş ümumi illik gəlirlərindən asılıdır. Qırğızıstanda daimi nümayəndəlik (PE) vasitəsilə biznes fəaliyyətini həyata keçirən qeyri-rezident hüquqi şəxslər həmin PE-nin fəaliyyətinə aid olan mənfəət vergisini ödəyir.

Mənfəət vergisi, mümkün çıxılmalar istisna olmaqla, ümumi gəlirlərin 10% -i ilə hesablanılır.

Ukrayna Respublikası

Mənfəət vergisi rezidentlər, eləcə də Ukraynada daimi vergi qeydiyyatında olan hüqusi şəxslər tərəfindən Ukrayna ərazisində və ondan kənarda əldə edilən gəlirlərə şamil edilir. Rezident hüquqi şəxslərin dünya üzrə əldə etdikləri gəlirlər vergiyə cəlb olunur. Qeyri-rezident hüquqi şəxslər isə Ukrayna mənbəyində əldə etdikləri gəlirlər üzrə vergi ödəyirlər.

Ukraynada standart mənfəət vergisi 18% təşkil edir. İkitərəfli vergi sazişlərində nəzərdə tutulmuş hallar istisna olmaqla qeyri-rezidentlərin əldə etdikləri gəlirlər üzrə onlara ödənilən vəsaitlərdən 15% həcmində mənbədə tutulan vergi (MTV) hesablanır.

***Təxirə salınmış vergi***

Təxirə salınmış vergi isə aktiv və öhdəliklərin mühasibat uçotuna uyğun qalıq dəyərləri ilə onların vergiyə uyğun qalıq dəyərləri arasındakı fərqlərdən yaranan və gələcəkdə ödəniləcək və ya geri alınacaq məbləğlərin əsasında hesablanır və bu zaman öhdəlik üsulundan istifadə edilir. Təxirə salınmış vergi öhdəliyi ümumiyyətlə bütün vergi bazasını artıran maddələr üçün hesablanır, təxirə salınmış vergi aktivi isə bu aktivdən gələcəkdə istifadə etmək üçün kifayət qədər mənfəətin olması təxmini nəzərə alınaraq tanınır. Müvəqqəti fərqlərin mühasibat mənfəətinə və vergi mənfəətinə təsir göstərməyən digər aktiv və öhdəliklərin ilkin tanınması zamanı yarandığı hallarda (biznes kombinasiyaları istisna olmaqla), belə vergi aktiv və öhdəlikləri tanınmır.

Təxirə salınmış vergi aktivinin qalıq dəyəri hesabat tarixində nəzərdən keçirilir və əgər gələcəkdəki mənfəət əldə edilməsi ilə bağlı təxminlər bu aktivi reallaşdırmağa imkan vermirsə bu vergi aktivinin dəyəri tam və ya qismən bu təxminlərə uyğunlaşdırılmaq üçün azaldılır.

Təxirə salınmış vergini hesablayarkən vergi aktivinin reallaşdırılması və ya öhdəliyin ödənilməsi zamanı qüvvədə olan vergi dərəcəsindən istifadə edilməlidir. Birbaşa səhmdar kapitalına təsir edən əməliyyatlar istisna olmaqla, təxirə salınmış vergi xərci və ya gəliri birbaşa məcmu gəlir hesabında əks etdirilir.

Aşağıdakı hallarda təxirə salınmış vergi aktivi və vergi öhdəliyi əvəzləşdirilərək xalis şəkildə təqdim edilə bilər:

- Qrupun cari mənfəət vergisi aktivini mənfəət vergisi öhdəliyi ilə əvəzləşdirmək üçün qanuni və icrası mümkün olan hüququ mövcud olduqda; və
- Təxirə salınmış aktiv və öhdəliklər bir vergi orqanı tərəfindən qoyulan məbləğlərə aid edildikdə və bu vergilər üzrə öhdəlik eyni müəssisəyə məxsus olduqda.

Qrupun fəaliyyət göstərdiyi ölkələrdə Qrupun fəaliyyəti ilə bağlı qiymətləndirilmiş müxtəlif vergilər mövcuddur. Bu vergilər əməliyyat xərclərinin komponentləri kimi məcmu gəlir haqqında konsolidasiya edilmiş hesabata daxil edilir.

***Əlavə dəyər vergisi***

*Azərbaycan Respublikası*

Satış ilə əlaqədar ödəniləcək əlavə dəyər vergisi, vergi orqanlarına aşağıda qeyd edilmiş tarixlərdən daha tez olanında ödənilir: (a) müştərilərdən alınacaq vəsaitlərin alındığı zaman, və ya (b) mal və ya xidmətlərin müştərilərə təqdim edilməsi zamanı. Alınacaq ƏDV bir qayda olaraq, ƏDV hesab fakturası alındıqdan sonra, ödəniləcək ƏDV ilə əvəzləşdirilir. Vergi orqanları ƏDV üzrə hesablaşmalar ilə əlaqədar əvəzləşdirməyə icazə verirlər.

Satışlar və alışlar ilə əlaqədar olan ƏDV maliyyə vəziyyəti hesabatında ümumi məbləğdə uçota alınır və aktiv və öhdəlik kimi ayrıca olaraq açıqlanır. Alınacaq vəsaitlərin dəyərsizləşməsi ilə əlaqədar ehtiyat yaradıldıqda, dəyərsizləşmə zərəri ƏDV daxil olmaqla borcluya aid olan ümumi məbləğin tərkibində uçota alınır.

*Serbiya Respublikası*

Mal və xidmətlərin tədarükü və malların idxalı üzrə formalaşan satış qiymətinin 20% həcmində ƏDV hesablamır. ƏDV vergi ödəyiciləri son 12 ay ərzində 8,000 min Serbiya dinarından yuxarı dövriyyəsi olan hüquqi şəxslər və sahibkarlardır.

*Qırğızıstan Respublikası*

Qırğızıstanın Avrasiya İqtisadi Birliyinə mərhələli inteqrasiyasının bir hissəsi olaraq və üzv ölkələr arasında vergi qanunvericiliyinin harmonizasiyası prosesi çərçivəsində Vergi Məcəlləsinə dəyişikliklər edilmişdir. ƏDV vergiyə cəlb olunan təchizat və idxal mal və xidmətlərinə hesablanır. Əməliyyat məqsədləri ilə həyata keçirilən satınalmalar üzrə ödənilmiş ƏDV müəssisənin satışa çıxardığı vergi şamil olunan mal və xidmətlər üzrə yaranan ƏDV öhdəliyi ilə əvəzləşdirilə bilər. ƏDV dərəcəsi 12% təşkil edir. Müəyyən mal və xidmətlər üzrə 0% ƏDV vergisi hesablanır. ƏDV-dən azad olan bəzi mal və xidmətlər də mövcuddur (aşağıda baxın).

ƏDV məqsədləri ilə qeydiyyatdan keçmiş bütün vergi ödəyiciləri təmin etdikləri mal və xidmətlər üzrə ƏDV vergisini əlavə etməli və öz ƏDV öhdəliklərini hesablayaraq bəyan etməlidirlər. Məcburi qaydada ƏDV ödəyicisi olaraq qeydiyyata düşmək üçün minimal məbləğin həcmi artırılaraq 8 milyon Qırğız Somonisinə (KGS) bərabər edilmişdr. Hətta ƏDV məqsədləri üçün müəssisənin qeydiyyatı tələb olunmadığı hallarda belə, müəssisə öz istəyi ilə könüllü olaraq müvafiq vergi orqanlarına ərizə ilə müraciət etməklə ƏDV ödəyicisi kimi qeydiyyatdan keçə bilər.

*Ukrayna Respublikası*

Ukraynada üç növ ƏDV dərəcəsi mövcuddur: 20%, 7% və 0%. 20% dərəcəsi, müəyyən 7% və 0% rıtbiq olunan əməliyyatlar istisna olmaqla demək olar ki, əksər mal və xidmətlərə şamil edilir. Azaldılmış 7% ƏDV dərəcəsi müəyyən dərmanların, xüsusi tibbi ləvazimatların, eləcə də kliniki sınaqlarda istifadə üçün dərmanların, tibb ləvazimatlarının və tibbi avadanıqların təchiz və idxal əməliyyatlarına şamil edilir.

0% ƏDV dərəcəsi malların ixracı üçün nəzərdə tutulmuşdur. Bu dərəcə beynəlxalq nəqliyyat xirmətlərinin təmin edilməsi (vahid beynəlxalq yük daşıma sənədi ilə təsdiq olunmaqla), qeyri rezidentlər üçün istehsal xidmətləri (daha sonra malların Ukrayna ərazisindən təkrar ixrac edilməsi hallarında) və müəyyən digər xidmətlər üçün də həmçinin tətbiq olunur.

***Torpaq vergisi***

*Azərbaycan Respublikası*

Azərbaycan Respublikasında torpaq mülkiyyətçiləri və ya istifadəçiləri təsərrüfat fəaliyyətinin nəticələrindən asılı olmayaraq torpaq sahəsinə görə hər il sabit tədiyə şəklində hesablanan torpaq vergisini ödəməlidirlər. Məbləği 0.06 AZN-dən 20 AZN-ə qədər təyin edilən müxtəlif vergi dərəcələri sənaye, tikinti, kənd təsərrüfatı, rabitə, ticarət-məişət xidməti və digər xüsusi təyinatlı yaşayış fondlarının həyətyanı sahələrinin tutduğu torpaqların növündən və eləcə də torpağın məskunlaşma yerindən asılıdır.

Hesabat dövrü bir təqvim ili sayılır. Torpaq mülkiyyətçiləri və ya istifadəçiləri hər il mayın 15-dən gec olmayaraq müvafiq bəyannaməni vergi orqanına təqdim etməlidirlər. Hesablanmış torpaq vergisi bərabər məbləğlərdə 15 avqust və 15 noyabr tarixlərindən gec olmayaraq müəssisələr tərəfindən ödənilməlidir.

*Qırğızıstan Respublikası*

Torpaq vergisi rüblük olaraq, hüquqi şəxslər tərəfindən mülkiyyət sahəsi əsasında ödənilir. Əsas dərəcələr torpaqların yerləşdiyi ərazi və istifadə məqsədlərinə görə vergi məcəlləsində təqdim edilmişdir. Vergi məbləğləri kvadrat metr üzrə 0.9 Qırğızıstan somundan 2.9 Qırğızıstan somuna qədər dəyişə bilər.

*Ukrayna Respublikası*

Torpaq vergisi yerli vergidir və növbəti il üçün illik olaraq qiymətləndirilir, torpaq sahibləri və ya istifadəçiləri tərəfindən aylıq bərabər hissələrlə ödənilir. Torpaq vergisinin dərəcəsi hər bir torpaq sahəsi üçün kateqoriya yerləşmə sahəsi və dövlət qiymətləndirməsinin mövcudluğundan asılıdır.

***Əmlak vergisi***

*Azərbaycan Respublikası*

Əmlakın qalıq dəyərindən artıq olan dəyərdə sığorta olunduğu və əmlak vergisinin bazar dəyərində hesablandığı hallar istisna olmaqla, daimi nümayəndəliklə bağlı rezident və qeyri-rezident müəssisələr üçün vergitutma obyekti onların əsas vəsaitlərinin orta illik qalıq dəyəridir.

Beləliklə, belə müəssisələr əmlak vergisini sahib olduqları əsas aktivlərin orta illik qalıq dəyərindən 1 faiz dərəcəsi ilə ödəyirlər. Eyni vaxtda, rezident və qeyri-rezident fiziki şəxslərin vergitutma obyekti tikililər və onların hissələrindən, eləcə də fiziki şəxslərin su və hava nəqliyyatı vasitələrindən ibarətdir. Əmlak vergisinin dərəcəsi mülkiyyətdə olan aktivlərin növündən asılı olaraq dəyişir.

Müəssisənin əmlak vergisi üçün vergi dövrü bir təqvim ili sayılır. Mülkiyyətində əsas aktivləri olan müəssisələr, vergi bəyannaməsini hesabat dövründən sonrakı ilin 31 mart tarixindən gec olmayaraq təqdim etməlidirlər. Əmlak vergisinin ödəyiciləri cari vergi ödəmələri kimi hər rübün ikinci ayının 15-dən gec olmayaraq əvvəlki ildəki əmlak vergisi məbləğinin 20 faizi həcmində vergi ödəyir.

Azərbaycan Respublikasında Qrupun fəaliyyətləri üzrə təyin edilən digər vergi növləri də mövcuddur. Bu vergilər məcmu gəlir haqqında konsolidasiya edilmiş hesabata daxil edilmişdir.

Mənfəət vergisindən başqa bütün vergilər ümumi və inzibati xərclər olaraq qeydə alınır.

*Serbiya Respublikası*

Əmlak vergisi Serbiya Respublikasında daşınmaz əmlak üzərində mülkiyyət hüququ və tikinti torpaqlarından istifadə hüququ üzrə ödənilən vergidir. Vergi bazası əmlakın bazar dəyərinə bərabərdir. Özünü qiymətləndirmə qaydaları tələb olunan və saxlanılan vergi ödəyicilərindən rüblük olaraq 0.4% dərəcəsi ilə vergi tutulur və tələb olunmayan və saxlanılmayan vergi ödəyicilərindən isə rüblük olaraq 0.4%-2% dərəcəsində vergi tutulur.

*Qırğızıstan Respublikası*

Əmlak vergisi Qırğızıstanda nəqliyyat vasitələri və daşınmaz əmlakı olan hüquqi şəxslər, o cümlədən mənzillər, evlər, pansionatlar, istirahət evləri, sanatoriyalar, kurortlar, istehsalat, inzibati, sənaye və digər binalar və ya obyektlər hesabına ödənilməli yerli vergidir. Hökumət tərəfindən təsdiqlənən xüsusi siyahılara müvafiq olaraq müəyyən daşınmaz əmlaklar bu vergiyə tabe ola bilməz.

Daşınmaz əmlaka münasibətdə vergi dərəcəsi şəhər və ya yerli hakimiyyət orqanları tərəfindən vergitutma bazasının 0.8%-dən artıq olmamaq və 0.35% faiz dərəcəsini keçməmək şərtilə ilə yalnız yaşayış sahəsi üçün nəzərdə tutulan mənzillər və evlər istisna olmaqla, təyin olunur. Nəqliyyat vasitələri üçün vergi məbləği, mühərrikin həcmindən və istehsal ilindən asılı olaraq, Qırğızıstan somu ilə hesablanır.

*Ukrayna Respublikası*

Ukraynadakı yaşayış və qeyri-yaşayış obyektlərinin sahibləri (qeyri-rezidentlər də daxil olmaqla fiziki və hüquqi şəxslər) yerli əmlak vergisinə (ƏV) tabedir. Vergi bazası bir daşınmaz əmlakın yaşayış sahəsi ölçüsünə görə müəyyən edilir. ƏV dərəcələri, kvadrat metrə görə hesabat ilinin 1 yanvar tarixindən etibarən minimal əmək haqqının 1.5%-ni (2019-cu ilə, maksimum kvadrat metrə görə UAH 63 ətrafında) keçməmək şərtilə yerli icra hakimiyyəti orqanları tərəfindən müəyyən edilir.

**İşçilərə sərf olunan xərclər və müvafiq ayırmalar**

Əmək haqları, məvaciblər, Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fonduna ödənişlər, məzuniyyət və bülletenlər üzrə illik ödənişlər, mükafatlar və pul şəklində olmayan Qrupun işçiləri tərəfindən müvafiq xidmətlər göstərildikdə hesablanır.

**Səhmdar kapitalı**

Adi və satıla bilməyən imtiyazlı səhmlər hər ikisi dividendlərlə birlikdə kapital kimi klassifikasiya olunur. Yeni səhmlərin buraxılmasına birbaşa aid olan xərclər kapitalda vergilərdən sonra tutulmalar kimi qeyda alınır.

Buraxılmış səhmlərin ədalətli dəyərindən əlavə alınan məbləğ qeydlərdə ehtiyat kapitalı kimi qeyd olunur.

***Şərti aktivlər və öhdəliklər***

Şərti öhdəliklər maliyyə vəziyyəti hesabatında tanınmır amma bu öhdəliklərlə bağlı pul vəsaitlərinin ödənilməsinin ehtimalı çox az olduğu hallar istisna olmaqla qalan hallarda hesabatlarda açıqlamalar verilir.

Şərti aktivlər maliyyə vəziyyəti hesabatında tanınmır amma belə aktivlərlə bağlı iqtisadi mənfəətlərin alınması ehtimalı çox az olduğu hallar istisna olmaqla qalan hallarda hesabatlarda açıqlamalar verilir.

**Dividendlər**

Dividendlər öhdəlik kimi uçota alınır və hesabat tarixində kapitaldan o hallarda çıxılır ki, hesabat tarixində və ya ondan öncə elan edilsinlər. Dividendlər o hallarda açıqlanır ki, onlar maliyyə vəziyyəti hesabatı tarixindən əvvəl təklif edilsin, və ya hesabat tarixindən sonra, lakin konsolidasiya edilmiş maliyyə hesabatları təsdiq edildikdən öncə elan edilsin və ya təklif olunsun.

**Xarici valyutanın çevrilməsi**

Xarici valyutalardakı əməliyyatlar, əməliyyatlar tarixində valyuta məzənnələrində Qrupun müəssisələrinin müvafiq funksional valyutalarına çevrilir.

Qrupun müəssisələri arasındakı kredit və bununla bağlı xarici valyuta mübadiləsi üzrə gəlir və ya zərər konsolidasiya əsasında aradan qaldırılır. Bununla yanaşı, kredit müxtəlif funksional valyutaları olan Qrupun müəssisələri arasında olduğu halda, xarici valyuta mübadiləsi üzrə gəlir və ya zərər tam şəkildə aradan qaldırıla bilməz və kreditin yaxın gələcəkdə ödənilməyəcəyi təqdirdə konsolidasiya edilmiş mənfəət və zərərdə tanınır və bu xarici əməliyyatda xalis investisiyanın bir hissəsini təşkil edir. Belə olan halda, xarici valyuta mübadiləsi üzrə gəlir və ya zərər digər məcmu gəlirlərdə qeydə alınır.

Əməliyyat valyutası hiperinflyasiyalı iqtisadiyyatın valyutası olmayan Qrupdakı müəssisələrin maliyyə vəziyyəti və nəticələri müxtəlif təqdimat valyutalarına aşağıdakı qaydalara əsasən çevrilməlidir:

a) Maliyyə vəziyyəti haqqında hər bir hesabat üçün aktivlər və öhdəliklər müvafiq hesabat dövrünün sonunda yekun məzənnə ilə konvertasiya edilir;
b) Gəlirlər və xərclər orta valyuta məzənnələri ilə konvertasiya edilir (bu orta məzənnə əməliyyat tarixlərində tətbiq olunan məzənnələrin məcmu təsirinin təxmini qiyməti ilə uyğun olmadığı halda gəlirlər və xərclər əməliyyat tarixlərində konvertasiya edilir);
c) Kapital komponentləri tarixi dərəcə ilə konvertasiya edilir; və
d) Bütün meydana çıxan məznnə fərqləri digər məcmu gəlirdə tanınır.

Xarici əməliyyatlar üzərində nəzarət itirildikdə, müxtəlif təqdimat valyutasına çevrilmə üzrə əvvəllər tanınmış məzənnə fərqləri il üzrə silinmələrdən yaranan gəlir və ya zərərin bir hissəsi olaraq digər məcmu gəlirlərdən mənfəət və ya zərər hesablarına yenidən təsnif edilir.

Konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanması üzrə Qrup tərəfindən istifadə edilən il sonu valyuta məzənnələri aşağıdakı kimidir:

| | 31 dekabr 2018-ci il | 31 dekabr 2017-ci il |
|---|---|---|
| ABŞ dolları/AZN, hesabat tarixinə | 1.7000 | 1.7001 |
| Avro/AZN hesabat tarixinə | 1.9468 | 2.0307 |
| Serbiya dinarı/AZN hesabat tarixinə | 0.0165 | 0.0171 |
| Qırğızıstan somu/AZN, hesabat tarixinə | 0.0243 | 0.0247 |
| Ukrayna qrivnası/AZN, hesabat tarixinə | 0.0617 | 0.0610 |

Xarici valyutada əməliyyatlar əməliyyatların ilkin tanınması üzrə uyğun olduqları tarixdə qüvvədə olan funksional valyuta məzənnələri ilə Qrup tərəfindən qeydə alınır.

Xarici valyutada denominasiya edilən monetar aktivlər və öhdəliklər hesabat tarixində funksional valyuta məzənnələri ilə çevrilir.

Pul vəsaitlərinin ödənilməsindən və ya çevrilməsindən yaranan fərqlər mənfəət və ya zərərdə tanınır.

Xarici valyuta ilə olan və ilkin dəyəri ilə qiymətləndirilən qeyri-monetar maddələr əməliyyatın həyata keçirildiyi tarixdə mövcud olan məzənnə ilə çevrilməlidirlər. Xarici valyutada olan və ədalətli dəyərlə ölçülən qeyri-monetar maddələr ədalətli dəyərin ölçüldüyü tarixdə mövcud olan məzənnə ilə çevrilməlidirlər. Ədalətli dəyər ilə ölçülən qeyri-monetar maddələrin çevrilməsi üzrə yaranan gəlir və ya zərər maddələrin ədalətli dəyərində dəyişiklik üzrə gəlir və ya zərərin tanınması hissəsində qeydə alınır (digər məcmu gəlirlərdə və ya mənfəət və ya zərərdə tanınan ədalətli dəyər və ya zərəri olan maddələr üzrə çevrilmə fərqləri də həmçinin müvafiq olaraq digər məcmu gəlirlərdə və ya mənfəət və ya zərərdə tanınır).

***Müqaviləüzrə gəlirləri***

15 saylı MHBS müştərilərlə bağlanmış müqavilər üzrə gəlirləri hesablamaq üçün beş-addımlı bir model təqdim edir. 15 saylı MHBS-ə uyğun olaraq beş-addımlı model aşağıdakı kimidir:

- 1-ci addım: Müştərilərlə bağlanmış müqaviləni müəyyən etmək;
- 2-ci addım: Müqavilə öhdəliklərini müəyyən etmək;
- 3-cü addım: Əməliyyat qiymətini müəyyən etmək;
- 4-cü addım: Müqavilə öhdəlikləri üzrə əməliyyat qiymətlərinin ayrılması;
- 5-ci addım: Müəssisə müqavilə üzrə öhdəliyi yerinə yetirirsə müvafiq gəlirin tanınması.

Müştərilərlə müqavilələrdən əldə edilən gəlirlər, Qrupun tikinti müqaviləsi üzrə öhdəliyini yerinə yetirdiyi an və ya yerinə yetirdikdən sonra tanınır. Gəlirlər güzəştlər və vergilər çıxılmaqla, müştəri ilə müqavilədə nəzərdə tutulan mükafat məbləği həcmində ölçülür.

Tikinti müqavilələri üzrə gəlir müqavilə üzrə razılaşdırılmış ilkin məbləğdən və müqavilə üzrə görülən işlərdə gəlirin yaranması ilə nəticələnəcəyi ehtimal olunan dərəcədə və etibarlı əsasda qiymətləndirilə bildikdə kənarlaşmalar, iddialar və həvəsləndirici ödənişlərdən ibarətdir.

Tikinti müqaviləsinin nəticəsi etibarlı şəkildə qiymətləndirilə biləcəyi təqdirdə, müqavilə gəlirləri işin faiz etibarı ilə tamamlanması metoduna uyğun olaraq mənfəət və ya zərərdə tanınır. İşin faiz etibarı ilə tamamlanması hər bir müqavilə üzrə hər bir hesabat tarixinin sonunda proqnozlaşdırılmış cəmi xərclərə nisbətən bu günə qədər çəkilmiş faktiki xərclərin nisbətinə istinad edərək qiymətləndirilir. Gəlir və müqavilə xərclərinə müqavilənin həcmində və qiymətində edilən dəyişikliklər səbəbilə mütəmadi olaraq yenidən baxılır. Müqavilənin həcmində edilən hər hansı dəyişiklik təxmin edilən dəyişikliyin baş verməsi ilə eyni dövrdə qüvvədə olan müqavilələrin faiz etibarı ilə tamamlanmasında əks etdirilir.

Tikinti müqaviləsinin nəticəsi etibarlı əsasda qiymətləndirilə bilmədikdə, müqavilə gəlirləri yalnız müqavilə üzrə çəkilmiş xərclərin əvəzinin ödəniləcəyi ehtimal olunduğu məbləğdə tanınmalıdır.

Müqavilə üzrə tanınan gəlirdən əvvəl alınan pul vəsaitləri təxirə salınmış və ya qazanılmayan gəlir kimi təsnif edilir. Smetadakı məbləğlərdən artıq olan icra olunan müqavilələr üzrə çəkilmiş xərclər və proqnozlaşdırılmış mənfəət qazanılmamış gəlirlər olaraq əks etdirilir.

Qrupun müqavilələrinin əksəriyyəti sabit qiymətli müqavilələrdir. Qrup, bir qayda olaraq "məsrəflər üstəgəl marja" tipli müqavilələr bağlamır. Müqavilələr, adətən, Qrupun inflyasiya vəziyyətini kompensasiya etmək üçün konkret matriallar və ləvazimatlara düzəlişlər etməyə imkan verən qiymət tənzimləməsi maddəsini ehtiva edir.

Tikinti xərcləri çəkildiyi zaman xərc olaraq tanınır. Tikinti xərclərinə konkret müqaviləyə birbaşa aid olan xərclər, məsələn, tikintidə istifadə edilən materiallar, tikintidə çalışan işçilərin maaşları, subpodratçılar ilə əlaqəli və digər xərclər, eləcə də müqavilə ilə nəzərdə tutulmuş fəaliyyətə aid edilə bilən dolayı xərclər, məsələn, birbaşa aid olmayan əməkhaqları və avadanlıqların təmiri, daxildir. Əlavə olaraq, müqaviləyə birbaşa aid olan və müqavilənin razılaşdırılmış şərtləri əsasında müqavilə üzrə ödənilməli olan xərclər tikinti xərclərinə daxildir. Müqavilə xərclərinə ümumi inzibati xərclər, satış xərcləri, araşdırma və inkişaf üzrə xərclər və müqavilədə istifadə edilməyən avadanlıqların amortizasiyası üzrə xərclər daxil edilmir.

Cari hesablamalar cəmi tikinti xərclərinin cəmi müqavilə gəlirlərindən artıq olduğunu göstərərsə, gözlənilən zərərin tam məbləği dərhal əməliyyatlar üzrə tutulmalar olaraq tanınır.

Qrup müqavilələr çərçivəsində görülən işlərin mahiyyəti üzrə bir ildən beş ilə qədər zəmanət verir. Zəmanət xərclərinin həcmi belə xərclər üzrə rəhbərliyin ən yaxşı təxminlərinə əsaslanır və xüsusi tənzimləmələri və keçmiş hadisələri nəzərə alaraq yarandıqları anda layihə xərclərinə yönəldilir. Zəmanət tələbləri adətən nominal xarakterli olmuşdur.

**Maliyyə xərcləri**

Maliyyə xərcləri, bütün borc alətləri üzrə effektiv faiz metodundan istifadə edərək, konsolidasiya edilmiş məcmu gəlir hesabatında əks etdirilir. Bu üsul, maliyyə xərclərinin bir hissəsi olaraq, effektiv faiz dərəcəsinin, əməliyyat xərclərinin və digər bütün mükafatların və ya güzəştlərin ayrılmaz bir hissəsi olan müqavilə tərəfləri arasında ödənilən bütün ödənişləri əks etdirir. Əmlak və avadanlıqların inşasını maliyyələşdirmək üçün alınan borclar üzrə yaranana maliyyə xərcləri, aktivin istifadə üçün tamamlanması və hazır hala gətirilməsini tələb edən müddət ərzində kapitallaşdırılır. Bütün digər borc öhdəlikləri xərc hesablarında əks etdirilir.

**Maliyyə gəlirləri**

Maliyyə gəlirləri effektiv faiz metodundan istifadə etməklə vaxt nisbəti əsasında tanınır. Alınacaq vəsaitlərin dəyərlərinin azaqlması halında Qrup, maliyyə alətinin qalıq məbləğini alətin ilkin effektiv faiz dərəcəsi ilə diskontlaşdırılmış gələcək pul vəsaitlərinin axını olan bərpa edilə bilən məbləğə qədər azaldır və endirimi maliyyə gəlirləri olaraq cəlb etməyə davam edir. Dəyərsizləşmə kreditləri üzrə maliyyə gəlirləri ilkin effektiv faiz dərəcəsindən istifadə etməklə tanınır.

## 3. UÇOT SİYASƏTİNİN TƏTBİQİ ZAMANI ƏHƏMİYYƏTLİ UÇOT TƏXMİNLƏRİ VƏ FƏRZİYYƏLƏR

Qrupun konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanması hesabat tarixinə təqdim edilən aktiv və öhdəliklərin məbləğlərinə təsir göstərə biləcək və başa çatmış müddət ərzində gəlir və xərclərin təqdim edilmiş məbləğləri üzrə rəhbərlikdən təxminlərin və mülahizələrin verməsini tələb edir.

Biznes fəaliyyətlərinə xas olan qeyri-müəyyənliyin nəticəsi olaraq, maliyyə hesabatlarında bir sıra bəndlər dəqiqliklə qiymətləndirilə bilmir və yalnız təxmin olunması mümkündür. Qiymətləndirməyə konsolidasiya edilmiş maliyyə hesabatları hazırlandığı zaman mövcud ən son məlumatlara əsaslanan mühakimələr daxildir. Gələcək inkişaf haqqında mövcud şərait və fərziyyələr Qrupun nəzarətindən kənarda yaranan bazar dəyişikliklərinə və ya şəraitə müvafiq olaraq dəyişə bilər. Belə dəyişikliklər baş verdikdə fərziyyələrdə əks etdirilir.

Əhəmiyyətli uçot təxminləri əmlak, tikili və avadanlıqların amortizasiya edilən faydalı ömürləri, maddi və qeyri-maddi aktivlərin dəyərsizləşməsi, maliyyə alətlərinin ədalətli dəyəri, köhnəlmiş mal-material ehtiyatları üzrə ehtiyatların təmin edilməsi, vergi və hüquq sahəsində dəyişikliklər və təxirə salınmış vergi üzrə ehtiyatların təmin edilməsi ilə bağlıdır. Faktiki nəticələr bu təxminlərdən fərqlənə də bilər.

**Mülahizələr**

Qrupun mühasibat uçotu siyasətinin tətbiq edilməsi prosesində rəhbərlik maliyyə hesabatlarında tanınmış məbləğlər üzrə əhəmiyyətli təsirə malik təxminlərdən başqa rəhbərlik aşağıdakı mülahizələri edir:

**Gəlirlərin tanınması**

Qrup tikinti müqavilələri üzrə gəlirin tanınması üzrə "mərhələli üsul"dan istifadə edir (cəmi proqnozlaşdırılmış layihə xərclərində yaranmış cari hesablanmış xərclərin nisbəti ilə müəyyən edilmiş). Qrup maliyyə hesabatlarının hazırlanması tarixində Qrupa məlum olan proqnozlaşdırılmış məlumatlardan ümumi nəticəni layihənin hər mərhələsində nəzərə alaraq layihələri tamamlamaq üçün xərci qiymətləndirir.

Bu qiymətləndirmələrin zəruri şərti Qrupun effektiv nəzarət mühiti, müqavilələrin fasiləsiz monitorinqi və qiymətləndirmələrin düzgünlüyünün müəyyən edilməsidir. Həmin təxminlər və fərziyyələr müntəzəm olaraq Qrupunun rəhbərliyi tərəfindən qiymətləndirilir. Qiymətləndirmə tarixi təcrübəyə və digər amillərə, o cümlədən gələcək hadisələr üzrə təxminlərə əsaslanır. Keçirilmiş orijinal layihəyə öz texniki və iqtisadi parametrlərinə əhəmiyyətli dəyişikliklərin itirilməsi təhlükəsi olan layihələr üçün investorla açıq danışıqlar halında, Qrup investorlara müqavilə və konstruktiv öhdəliklərin yerinə yetirilməsinə əsaslanmış tamamlanma xərclərini qiymətləndirir.

Qrup layihənin cəmi proqnozlaşdırılmış gəlirlərinə gələcəkdə gözlənilən xərclərin əsas əmsalı əsasında təminatlı təmir işləri üçün yaradılmış ehtiyatları qiymətləndirir. Əmsal müəyyən edərkən Qrup zəmanətlərin təmin edilməsi sahəsində tikinti sənayesinin inkişafı və təminatlı təmir işləri üzrə keçmiş xərclərin tarixi məlumatlarını əks etdirir.

Qrup xidmətlərin satışı üçün mühasibat uçotunda mərhələli üsuldan istifadə edir. Mərhələli üsulun istifadəsi tələb edir ki, Qrup yerinə yetirilmiş ümumi xidmətlərin hissəsi olaraq icra edilmiş xidmətləri qiymətləndirsin.

**Əmlak, tikili və avadanlıqların dəyərsizləşməsi üzrə göstəricilər**

Dəyərsizləşmə üzrə hər hansı göstərici olduğu təqdirdə əmlak, tikili və avadanlıqlar yoxlanılır. Qrup rəhbərliyinin fikrincə, dəyərsizləşmə üçün əhəmiyyətli amillər aşağıdakıların yoxlanılmasını tələb edir: aktivlərin bazar dəyərində əhəmiyyətli azalma; əvvəlki və ya proqnozladırılmış əməliyyat nəticələri ilə müqayisədə nəzərəçarpan dərəcədə aşağı əməliyyat nəticələri, likvidləşdiriləcək və ya əvəzləşdiriləcək aktivlər üzrə planlar daxil olmaqla ümumi məqsədlə və biznes startegiyasında istifadə olunan və ya istifadəsi təxmin edilən aktiv əhəmiyyətli dəyişikliklərin dərəcəsi və ya təzi; zədələnmiş və ya hesabdan silinmiş aktivlərin mövcudluğu, sənaye və ya iqtisadiyyatda əhəmiyyətli mənfi tendensiyalar və digər amillər.

**Az hərəkətli və köhnəlmiş mal-materiallar üzrə ehtiyatlar**

Az hərəkətli və köhnəlmiş mal-materiallar üzrə ehtiyatlar Qrupun mal və material ehtiyatlarının qiymətləndirilməsi əsasında hesablanır. Mal-material ehtiyatlarının silinməsi mal və material ehtiyatları zədələndikdə, köhnəldikdə və ya ehtiyatların satış qiyməti azaldıqda zəruri olur. Mal-material ehtiyatları ilin sonunda Qrupun rəhbərliyi tərəfindən mal və material ehtiyalarının istifadəyə yararlığının və faydalılığının qiymətləndirilməsi əsasında silinir.

Bir neçə səbəbə görə ehtiyatların yaradılması zəruri olur: məsələn, mal-material ehtiyatları zədələnə və ya köhnəlmiş ola bilər, yaxud onların satış qiymətləri ilin sonundan sonrakı tarixlərdə azalmış ola bilər.

31 dekabr 2018 və 2017-ci il tarixlərinə az hərəkətli mal-materiallar üzrə ehtiyatlar müvafiq olaraq 2,473 min AZN və 1,989 min AZN təşkil etmişdir (Qeyd 10).

**Cari vergilər**

Azərbaycanın vergi, valyuta və gömrük qanunvericiliyində müxtəlif şərhlər edilir və dəyişikliklər tez-tez baş verir. Qrupun əməliyyatlarına və fəaliyyətinə tətbiq ediləcək səlahiyyətli vergi orqanının nümayəndələri tərəfindən edilmiş vergi qanunverciliyinə aid şərhlər rəhbərliyin fikirləri ilə uzlaşmaya bilər. Nəticədə, səlahiyyətli vergi orqanının nümayəndələri əməliyyatlara etiraz edə bilər və Qrupa əhəmiyyətli dərəcədə əlavə vergilər, cərimələr və faizlər təyin edilə bilər. Müvafiq olaraq, üç kalendar ili üzrə vergi öhdəlikləri ilə əlaqədar olaraq vergi və gömrük orqanlarının nümayəndələri tərəfindən yoxlanıla bilər. Müəyyən hallarda yoxlama daha artıq dövrləri əhatə edə bilər.

**Əmlak və avadanlıqların istifadə müddəti**

Rəhbərlik əmlak, avadanlıq və qeyri-maddi aktivlərin təxmin edilən istifadə müddətini və əlaqəli dəyərsizləşmə və amortizasiya xərclərini təyin edir. Təxminlər Qrupun aktiv üzrə iqtisadi mənfəətin istifadəsini ehtimal etdiyi layihələşdirilmiş müddətə əsaslanır. İstifadə müddəti əvvəlki təxmin edilən istifadə müddətindən az olduqda rəhbərlik amortizasiya tutulmalarını artırır və ya atılmış və ya satılmış aktivləri silir və ya qeydiyyata alır. İstifadə müddətləi ən azı hər hesabat tarixində nəzərdən keçirilir.

**Məhkəmə işləri**

Qrup, həllini gözləyən işlər və ya danışıqlar yolu ilə həll, vasitəçilik, arbitraj və ya dövlət tənzimlənməsi kimi digər cari iddialar, həmçinin digər şərti öhdəliklər ilə bağlı ehtiyatların ölçülməsi və tanınmasında və şərti öhdəliklərə məruz qalma məsələlərində əhəmiyyətli mühakimələr yürüdür. Mühakimələrin yürüdülməsi qaldırılmış iddiaların baş tutması və ya öhdəliklərin yaranması ehtimalının qiymətləndirilməsində və başa çatmış hesablaşmanın mümkün hədlərini dəyərləndirmək üçün əhəmiyyətlidir. Qiymətləndirmə prosesində qətiyyətsizliklər ucbatından əsl zərərlər qiymətləndirilmiş zərərlərdən fərqli ola bilər.

Bu qiymətləndirmələr daxili mütəxəssislərin (mövcud olduğu hallarda) və ya hüquq məsləhətçisi kimi kənar məsləhətçilərin dəstəyi ilə formalaşdırılmış yeni məlumatlara əsasən dəyişdirilə bilər. Qiymətləndirmələrə yenidən baxılması gələcək əməliyyat nəticələrinə əhəmiyyətli dərəcədə təsir göstərə bilər.

**Ehtimal olunan kredit zərəri üzrə ehtiyat və debitor borcları**

Qrup, debitor borcları üçün ehtimal olunan kredit zərərlərini hesablamaq üçün ehtiyat cədvəlindən istifadə edir. Ehtiyat dərəcələri, oxşar zərər modellərinə malik olan müxtəlif müştəri seqmentləri üzrə (yəni, coğrafiya, məhsul növü, müştəri növü və reytinqi, akkreditiv və digər kredit növləri ilə əhatəsi) qruplarda vaxtı keçmiş günlərə əsaslanır.

Ehtiyat cədvəli ilkin olaraq Qrupun tarixən müşahidə olunmuş defolt dərəcələrinə əsaslanır. Qrup, tarixi kredit zərəri təcrübəsini perspektiv məlumatlarla uyğunlaşdırmaq üçün cədvələ düzəlişlər edir. Məsələn, əgər istehsal sektorunda defolt sayının artmasına gətirib çıxaran proqnozlaşdırılan iqtisadi şərtlər (yəni, ümumi daxili məhsul) gələn il ərzində pisləşəcəkdirsə, bu zaman tarixi defolt dərəcələrinə düzəliş edilir. Hər bir hesabat tarixində, tarixi müşahidə olunmuş defolt dərəcələri yenilənir və gələcək perspektiv ehtimallar təhlil edilir. Tətbiq olunduğu hallarda, Qrup qarşı tərəflərin xarici dərəclərindən əldə edilmiş faiz dərəcələrinə əsaslanır. Tarixi müşahidə olunmuş defolt dərəcələri, proqnozlaşdırılan iqtisadi şərtlər və ehtimal olunan kredit zərəri arasında korrelyasiyanın qiymətləndirilməsi əhəmiyyətli dərəcədə təxminlərdən ibarətdir. Ehtimal olunan kredit zərərinin məbləği şərtlərdə və iqtisadi şəraitdə dəyişikliklərə həssasdır. Qrupun tarixi kredit zərəri üzrə təcrübəsi və iqtisadi şəraitin proqnozu da gələcəkdə müştərinin faktiki defolt vəziyyətini tam şəkildə əks etdirə bilməz.

31 dekabr 2018 və 2017-ci il tarixlərinə debitor borcları və digər alınacaq borcları üzrə ehtimal olunan kredit zərərləri üzrə ehtiyat müvafiq olaraq, 8,106 min AZN və 4,280 min AZN məbləğində olmuşdur (14 saylı Qeyd).

## 4. YENİ VƏ YENİDƏN İŞLƏNİLMİŞ STANDARTLARIN VƏ ŞƏRHLƏRİN QƏBUL EDİLMƏSİ

Cari ildə Qrup Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası (MUBSŞ) və MUBSŞ-un Beynəlxalq Maliyyə Hesabatlarının Şərhləri Komitəsi (BMHŞK) tərəfindən qəbul edilmiş, Qrupun fəaliyyəti üçün münasib olan və 31 dekabr 2018-ci il tarixində başa çatmış hesabat dövrlərinə şamil olunan bütün yeni və yenidən işlənilmiş standartları və onlara dair şərhləri qəbul etmişdir. Bu yeni standart və şərhlərin qəbul edilməsi Qrupun mühasibat uçotu siyasətinə, yəni cari və ya əvvəlki illər üzrə hesabat verilən məbləğlərə əhəmiyyətli təsirlər göstərməmişdir.

**MHBS 9 "Maliyyə Alətləri" standartı** – 2014-cü ilin iyul ayında MBUSŞ, maliyyə alətləri layihəsinin bütün mərhələlərini əks etdirən və Maliyyə Alətləri: Tanınma və Ölçmə standartına dair 39 saylı MUBS-i əvəz edən 9 saylı MHBS Maliyyə Alətləri standartının son versiyasını və 9 saylı MHBS-in bütün əvvəlki versiyalarını dərc etmişdir. Standart standartlaşdırma və ölçmə, dəyərsizləşmə və hecinq uçotu üçün yeni tələbləri təqdim edir.

*Təsnifat və Ölçülmə*

Təsnifat və ölçülmə aspektindən, yeni dərc edilmiş bu standart, kapital alətləri və törəmə maliyyə alətləri istisna olmaqla, aktivlərini idarə edilməsi üçün müəssisənin biznes modelinin və alətlərin müqaviləli pul vəsaitlərinin hərəkəti xüsusiyyətlərinin birləşməsi əsasında bütün maliyyə aktivlərinin qiymətləndirilməsini tələb edəcəkdir. MUBS 39 standartının qiymətləndirmə kateqoriyaları növbəti kateqoriyalarla əvəz ediləcək: mənfəət və ya zərər vasitəsilə ədalətli dəyər (MZVƏD), digər məcmu gəlir vasitəsilə ədalətli dəyər (DMGVƏD) və amortizasiya edilmiş dəyərlər kateqoriyası. 9 saylı MHBS, müəssisələrə amortizasiya edilmiş xərclərə və ya DMGVƏD alətlərinə MZVƏD kimi uyğunlaşdırmaq üçün imkan verəcək ki, bu da ölçmə və ya tanınma uyğunsuzluğunu aradan qaldıracaq və ya əhəmiyyətli dərəcədə azaldacaq. Ticarət üçün tutulmayan kapital alətləri, DMGVƏD kimi geri qaytarılmayacaq şəkildə təyin edilə bilər, bu da gəlir hesabatında mənfəət və ya zərərin sonradan yenidən təsnifləşdirilməməsi ilə mümkündür. Maliyyə öhdəliklərinin mühasibat uçotu 39 saylı MUBS-un tələblərinə əsasən eyni olacaq. Bankın maliyyə aktivlərinin əksəriyyəti, daha sonra amortizasiya olunmuş dəyərlə ölçülən maliyyə aktivləri kimi təsnif edilmişdir. Bankın maliyyə öhdəlikləri daha sonra amortizasiya olunmuş dəyərlə ölçülən maliyyə öhdəlikləri kimi təsnif edilmişdir. Qrup öz maliyyə öhdəliklərini mənfəət və zərər hesabına ədalətli dəyərlə ölçülən maliyyə öhdəlikləri kimi təsnifləşdirmir.

*Maliyyə aktivlərinin dəyərsizləşməsi*

Qrup ehtimal olunan kredit zərərləri modelini amortizasiya olunmuş dəyərdə ölçülən və ya məcmu gəlir vasitəsilə ədalətli dəyərdə tanınan maliyyə aktivlərinə tətbiq edir.

Maliyyə aktivi üzrə kredit riski ilkin tanınmadan sonra əhəmiyyətli dərəcədə artdığı təqdirdə, maliyyə aktivi üçün ehtimal olunan kredit zərərləri üzrə ehtiyat, ömürlük ehtimal olunan kredit zərərlərinə bərabər məbləğdə ölçülür.

Əgər hesabat tarixinə maliyyə aktivi üzrə kredit riski ilkin tanınmadan sonra əhəmiyyətli dərəcədə artmayıbsa, həmin maliyyə aktivi üçün ehtimal olunan kredit zərərləri üzrə ehtiyat (sadələşdirilmiş yanaşmanın tətbiq olunduğu debitor borcları istisna olmaqla) 12-aylıq ehtimal olunan kredit zərəri dəyərində ölçülür. Debitor borcları və digər alınacaq vəsaitlər üzrə ehtimal olunan kredit zərərləri, onların əhəmiyyətli maliyyə komponentinə malik olub-olmamasından asılı olmayaraq, ömürlük dəyərdə ölçülür.

9 saylı MHBS, 1 yanvar 2018-ci il tarixində və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvədədir. Bank müqayisəli məlumatları yenidən təqdimatını deyil, keçid tarixinə, yəni 1 yanvar 2018-ci il tarixinə standartın tətbiqinin bölüşdürülməmiş mənfəətə olan təsirini təqdim etmək hüququndan istifadə etmişdir.

Aşağıdakı cədvəl maliyyə alətlərinin qalıq dəyərlərini 39 saylı MBUS-a uyğun olaraq əvvəlki ölçü kateqoriyalarından 1 yanvar 2018-ci il tarixi üzrə 9 saylı MHBS-yə keçiddən sonrakı yeni ölçü kateqoriyaları ilə üzləşdirir:

| | **Ölçü kateqoriyası** | | **31 dekabr 2017-ci il tarixinə 39 saylı MUBS üzrə qalıq dəyəri** | **Təsiri** | | **1 yanvar 2018-ci il tarixinə 9 saylı MHBS üzrə qalıq dəyəri** |
|---|---|---|---|---|---|---|
| | BMUS 39 | MHBS 9 | | Yenidən ölçülmə | Yenidən təsnifat | |
| **Maliyyə aktivləri** | | | | | | |
| Müştərilərdə saxlanılan sonradan geri qaytarılması gözlənilən əmanətlər | K&AV | AD | 462 | - | - | 462 |
| Verilmiş kreditlər | K&AV | AD | 4,169 | - | - | 4,169 |
| Subpodratçılarda saxlanılan əmanətlər | K&AV | AD | 892 | - | - | 892 |
| Debitor borcları və digər alınacaq vəsaitlər | K&AV | AD | 44,025 | (2,792) | - | 41,233 |
| Pul vəsaitləri və onların ekvivalentləri | K&AV | AD | 500 | - | - | 500 |
| Digər maliyyə aktivləri | K&AV | AD | 308 | - | - | 308 |
| **Qeyri-maliyyə aktivləri** | | | | | | |
| Təxirə salınmış mənfəət vergisi aktivi | | | - | 130 | - | 130 |
| **Maliyyə öhdəlikləri** | | | | | | |
| Subpodratçılarda saxlanılan əmanətlər | Digər MÖ | AD | 6,920 | - | - | 6,920 |
| Borc alınmış vəsaitlər | Digər MÖ | AD | 2,132 | - | - | 2,132 |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | Digər MÖ | AD | 22,959 | - | - | 22,959 |
| Ödəniləcək əmək haqları | Digər MÖ | AD | 1,315 | - | - | 1,315 |
| Digər maliyyə öhdəlikləri | Digər MÖ | AD | 180 | - | - | 180 |
| **Qeyri-maliyyə öhdəlikləri** | | | | | | |
| Təxirə salınmış mənfəət vergisi öhdəliyi | | | 428 | (428) | - | - |

Aşağıdakı cədvəldə 31 dekabr 2017-ci il tarixinə 39 saylı MUBS-a uyğun olaraq maliyyə aktivləri üzrə yekun zərər ehtiyatı 1 yanvar 2018-ci il tarixinə 9 saylı MHBS-yə uyğun olaraq müəyyən edilmiş kredit zərəri ehtiyatı ilə üzləşdirilir.

| | 31 dekabr 2017-ci il tarixinə BMUS 39 üzrə zərər ehtiyatı | Mənfəət və ya zərər kateqoriyası üzrə yenidən ölçülmə | Qalıq üzrə yenidən ölçülmə | 1 yanvar 2018-ci il tarixinə MHBS 9 üzrə kredit zərəri ehtiyatı |
|---|---|---|---|---|
| Kreditor borcları və alınacaq vəsaitlər | (4,280) | (2,792) | - | (7,072) |
| **Cəmi kredit zərəri ehtiyatı** | (4,280) | (2,792) | - | (7,072) |

Aşağıdakı cədvəldə 9 saylı MHBS-yə keçidin bölüşdürülməmiş mənfəət üzrə olan təsiri təhlil edilir:

| | Bölüşdürülməmiş mənfəət |
|---|---|
| **BMUS 39 üzrə ilin sonuna qalıq (31 dekabr 2017-ci il)** | **56,435** |
| 9 saylı MHBS üzrə EOKZ-ların tanınması | (2,792) |
| Təxirə salınmış vergi üzrə təsiri | 558 |
| **9 saylı MHBS üzrə yenidən qiymətləndirilmiş ilin əvvəlinə qalıq (1 yanvar 2018-ci il)** | **54,201** |
| **9 MHBS-nin tətbiqi ilə bağlı cəmi kapitalda dəyişiklik** | **(2,234)** |

MUBS və MUSŞ mövcud MHBS və ABŞ ÜQMP gəlir tələblərini əvəz edəcək birgə gəlirin tanınması standartı **MHBS 15 "Müştərilərlə bağlanmış Müqavilələr üzrə Gəlirlər"** hazırlamışlar. MHBS 15 standartı, MHBS üzrə hazırlanmış maliyyə hesabatlarında gəlirin necə və nə vaxt tanınmasını, eyni zamanda belə hesabatların istifadəçiləri üçün daha dolğun və uyğun açıqlamalar təqdim etməyi tələb edir. Standart yeganə olaraq, müştərilərlə bağlanmış müqavilələrə tətbiq ediləcək beş-pilləli prinsiplər modelini təqdim edir. MHBS 15 standartı 2014-cü ilin may ayında hazırlanmışdır və fəaliyyətin başlanması tarixi 1 yanvar 2018-ci il tarixində başlamış illik dövrlər üçün tətbiq olunacaqdır. Qrup tərəfindən aparılan təhlil nəticəsində standartın maliyyə hesabatlarına heç bir təsiri olmadığı qənaətinə gəlinmişdir.

**MUBS 40 "İnvestisiya Mülkiyyətinin Transferi"** aydınlaşdırır ki, müəssisə yalnız əmlakın istifadəsində baş vermiş dəyişikliyə dair sübut olduğu halda əmlakı investisiya mülkiyyətinə/mülkiyyətindən təsnifləşdirə bilər. Düzəlişlər, həmçinin 40 saylı MUBS-da göstərilən halların yeganə mümkün hallar olmadığını və istifadə üzrə dəyişikliyin inşası davam edən obyektlər üçün də mümkünlüyünü müəyyənləşdirir (yəni istifadə üzrə dəyişiklik yalnız inşası yekunlaşmış obyektlərlə məhdudlaşmır).

**BMHŞK 22 "Xarici Valyuta ilə Həyata keçirilən Əməliyyatlar və Əvvəlcədən Ödəmələr"** standartı aşağıdakı hallarda xarici valyuta əməliyyatlarına və ya onun hissələrinə xitab edir:

- Xarici valyuta ilə göstərilən və ya qiymətləndirilən ödənişlər mövcuddursa;
- Müəssisə vaxtından əvvəl ödənilən aktivlər və ya təxirə salınmış gəlir öhdəliklərini həmin ödənişlər ilə bağlı müvafiq aktiv, xərc və gəlirin tanınmasından əvvəl tanıyırsa; və
- Vaxtından əvvəl ödənilən aktivlər və ya təxirə salınmış gəlir öhdəlikləri qeyri-monetar hesab olunarsa.

Şərhlər Komitəsi bu qənaətə gəlmişdir ki, valyuta məzənnəsini müəyyənləşdirmək məqsədilə həyata keçirilən əməliyyatın tarixi, vaxtından əvvəl ödənilən qeyri-monetar aktivlər və ya təxirə salınmış vergi öhdəliklərinin ilkin tanınma tarixidir. Vaxtından əvvəl ödənilən çoxsaylı ödənişlər və ya daxilolmalar mövcud olarsa, əməliyyatın tarixi hər bir ödəniş və ya daxilolma üzrə təyin edilir.

**MHBS 2 "Pay Alətləri Əsasında Ödəmə" standartına düzəliş** – MUBSŞ, MHBS 2 "Pay Alətləri Əsasında Ödəmə" standartına yekun düzəlişlərini açıqlamışdır. Həmin düzəlişlər pay alətləri əsasında ödəmə əməliyyatlarının təsnif edilməsinə və ölçülməsinə aydınlıq gətirir.

***Fəaliyyətin keyfiyyət şərtlərinin daxil olduğu dəyərinin nağd ödənilməsi müəyyənləşdirilmiş səhmlər əsasında ödəmə sövdələşmələrinin uçotu***

Bu düzəlişlər olunana qədər, MHBS 2 standartında dəyərinin nağd ödənilməsi müəyyənləşdirilmiş səhmlər əsasında ödəmə sövdələşmələri üzrə öhdəliklərin ədalətli dəyərinə hüququn verilməsi şərtlərinin hansı şəkildə təsir göstərməsi ilə bağlı hər hansı təlimat daxil edilməmişdir. MUBSŞ, kapital alətləri vasitəsilə həyata keçirilən pay alətləri əsasında ödəmələr üzrə istifadə olunmuş eyni yanaşmanı davam etdirən dəyərinin nağd ödənilməsi müəyyənləşdirilmiş səhmlər əsasında ödəmələr üzrə uçot tələblərini təqdim edən təlimat əlavə etmişdir.

***Xalis ödəmə xüsusiyyətləri ilə pay alətləri əsasında ödəmə sövdələşmələrinin təsnifatı***

MUBSŞ, MHBS 2 standartına istisna tətbiq etmişdir. İstisna nəticəsində, müəssisə ödənişlərini pay alətləri əsasında ödəmə sövdələşmələri ilə həyata keçirdikdə pay alətləri əsasında ödəmələr təmin olunmuş tamlıqda kapital alətləri əsasında ödəmələr olaraq təsnif edilir.

***Dəyərinin nağd ödənilməsi müəyyənləşdirilmiş səhmlər əsasında ödəmədən kapital alətləri əsasında ödəməyə keçərkən pay alətləri əsasında ödəməyə düzəlişlərin uçota alınması***

Bu düzəlişlər olunana qədər, MHBS 2 şərtlər və şərait ilə bağlı düzəlişlər səbəbilə dəyərinin nağd ödənilməsi müəyyənləşdirilmiş səhmlər əsasında ödəmədən kapital alətləri əsasında ödəməyə keçdiyi zamanda baş verən halları nəzərdə tutmamışdır. MUBSŞ aşağıdakı izahatları təqdim edir:

- Belə dəyişikliklərdə dəyərinin nağd ödənilməsi müəyyənləşdirilmiş səhmlər əsasında ödəmə ilə tanınmış əsl öhdəliyin tanınması dayandırılır və kapital alətləri vasitəsilə həyata keçirilən ödəmələr düzəliş tarixinə qədər yerinə yetirilmiş xidmətlər dərəcəsində ədələtli dəyərə düzəliş tarixində tanınır;
- Düzəliş tarixinə öhdəliyin qalıq məbləği və eyni tarixdə kapitalda tanınmış məbləğ arasında fərq yaranarsa, həmin fərq dərhal mənfəət və zərər hesablarında tanınacaq.

Qrup aşağıda 1 saylı MHBS və 28 saylı MUBS-a edilən düzəlişləri özündə ehtiva edən **2014-2016-cı illəri əhatə edən dövr üzrə MHBS-lərə illik düzəlişləri** qəbul etmişdir:

| **Standart** | **Düzəlişin mövzusu** |
|---|---|
| MHBS 1 "Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının İlk dəfə Tətbiq edilməsi" | İlk dəfə tətbiq edənlər üçün qısamüddətli istisnaların silinməsi: Düzəlişlər MHBS 7, MUBS 19, MHBS 12 və MUBS 27 ilə əlaəqdər olan MHBS 1-də qısamüddətli istisnaları aradan qaldırır. |
| MUBS 28 "Asılı Təsərrüfat Cəmiyyətlərinə İnvestisiya Qoyuluşları" | Asılı və ya birgə müəssisələrin ədalətli dəyərdə ölçülməsi: Düzəlişlər aydınlıq gətirir ki, vençur təşkilat və ya digər ixtisaslaşmış qurum olan müəssisə tərəfindən saxlanılan asılı və birgə müəssisələrdə investisiya qoyuluşlarının mənfəət və zərər vasitəsilə ədalətli dəyərdə ölçmək üçün seçkilər ilkin tanınma zamanı investisiyalar əsasında asılı və ya birgə müəssisələrdə hər bir investisya üçün mövcuddur. |

Yuxarıda əksi göstərilmədiyi hallarda, yeni Standartların və Şərhlərin Qrupun konsolidə edilmiş maliyyə hesabatlarına əhəmiyyətli dərəcədə təsir edəcəyi ehtimal olunmur.

## 5. DƏRC OLUNMUŞ, LAKİN HAZIRDA QƏBUL OLUNMAMIŞ STANDARTLAR VƏ ŞƏRHLƏR

Bu maliyyə hesabatlarının təsdiq olunduğu tarixdə, qüvvədə olma tarixindən əvvəl Qrup tərəfindən qəbul edilmiş Standartlar və Şərhlər istisna olmaqla, aşağıdakı Şərhlər dərc edilmiş, lakin hazırda qəbul edilməmişdir.

**BMHŞK 23 "Gəlir vergisi ilə bağlı yanaşmalarda qeyri-müəyyənlik"**, 12 saylı MUBS-a əsasən gəlir vergisi ilə bağlı metodlarda qeyri-müəyyənlik olduqda, vergi tutulan mənfəətin (vergi zərərinin), vergi bazalarının, istifadə edilməmiş vergi zərərlərinin, istifadə edilməmiş vergi kreditlərinin və vergi dərəcələrinin müəyyənləşdirilməsini nəzərdə tutur. Bu, xüsusi olaraq aşağıdakıları nəzərdə tutur:

- vergi ilə bağlı yanaşmaların kollektiv olaraq nəzərə alınması;
- vergi orqanlarının təftişlərinə dair fərziyyələr;
- vergi tutulan mənfəətin (vergi zərərinin), vergi bazalarının, istifadə edilməmiş vergi zərərlərinin, istifadə edilməmiş vergi kreditlərinin və vergi dərəcələrinin müəyyən edilməsi; və
- fakt və vəziyyətlərə dəyişikliklərin təsiri.

Bu şərh, 1 yanvar 2019-cu il tarixindən və ya ondan sonra başlayan illik hesabat dövrlərinə tətbiq edilir.

**2015-2018-ci illəri əhatə edən dövr üzrə MHBS-lərə illik düzəlişlər** – Beynəlxalq Mühasibat Uçotu Standartları Şurasının ("BMUSŞ") illik təkmilləşdirilməsi layihəsi nəticəsində dörd Beynəlxalq Maliyyə Hesabatı Standartlarına (MHBS) düzəlişləri əks etdirir.

| Standart | Düzəlişin mövzusu |
|---|---|
| MHBS 3 "Biznes Kombinasiyaları" və MHBS 11 "Birgə Razılaşmalar" | MHBS 3-ə düzəlişlər, müəssisə müştərək əməliyyat olan bir biznes üzərində nəzarət əldə etdikdə, həmin bizneslə bağlı əvvəldən formalaşmış investisiyanın yenidən qiymətləndirilməsinin zəruri olduğunu aydınlaşdırır. MHBS 11-ə düzəlişlər, müəssisə müştərək əməliyyat olan bir biznes üzərində nəzarət əldə etdikdə, həmin bizneslə bağlı əvvəldən formalaşmış investisiyasının yenidən qiymətləndirilməsinə ehtiyac olmadığını aydınlaşdırır. |
| BMUS 12 "Mənfəət Vergisi" | Düzəlişlər, dividendlərin verilməsi ilə bağlı bütün gəlir vergisi nəticələri (verilməsi ilə bağlı) verginin necə yaranmasından asılı olmayaraq, mənfəət və ya zərərdə tanınmalıdır. |
| BMUS 23 "Borc üzrə Xərclər" | Düzəlişlər, müvafiq aktivin, nəzərdə tutulduğu istifadəsi yaxud satış üçün hazır olduqdan sonra hər hansı spesifik borc, ödənilməmiş qaldıqda, müəssisə ümumi borclarla bağlı kaptallaşdırma dərəcəsini hesablayan zaman həmin borc qalığı, müəssisənin ümumiyyətlə borc aldığı maliyyə vəsaitlərinin bir hissəsinə çevrilir. |

Bütün bu düzəlişlər, 2019-cu ilin 1 yanvar tarixində və ya ondan sonrakı tarixlərdə başlayan dövrlər üzrə tətbiq edilməlidir.

**"İşçilərin Mükafatlandırılması Paketləri üzrə Düzəliş, Məhdudlaşdırılma və ya Hesablamalar" üzrə 19 saylı MUBS-a edilən Düzəlişlər** – Dəyişikliklər, keçmiş xidmət dəyəri (ya da hesablama üzrə mənfəət və ya zərəri) müəyyən edilmiş təqaüd öhdəliklərinin (aktivin) yenilənmiş ehtimallardan istifadə edərək ölçülməsi və təklif olunan faydaları və paket aktivlərini müvafiq dəyişiklikdən əvvəl və sonra müqayisə etməklə (məhdudlaşdırılma və ya hesablanmalar), lakin aktivin maksimal həddinin təsirini nəzərə almamaqla ölçülür (müəyyən edilmiş təqaüd paketi müsbət saldo olduqda yarana bilər). BMUS 19-a əsasən, paketin düzəlişindən (məhdudlaşdırılma və ya hesablanmalar) yarana biləcək aktivin maksimal həddinin təsirinin dəyişməsi ikinci mərhələdə müəyyənləşdirilir və digər məcmu gəlirdə normal qaydada tanınır.

Mövcud xidmət xərcinin ölçülməsinə aid olan paraqraflar və müəyyən edilmiş xalis təqaüd öhdəlikləri (aktiv) üzrə xalis faizlərə də düzəliş edilmişdir. İndi müəssisədən plana dəyişikliklər edildikdən sonra hesabat dövrünün qalan hissəsi üçün cari xidmət haqqını və dəqiq faizini müəyyən etmək üçün bu yenidən qiymətləndirmədən yenilənmiş ehtimallardan istifadə etmək tələb olunacaq. Xalis faiz dərəcəsi halında düzəlişlər aydınlaşdırır ki, planın dəyişməsindən sonrakı müddət üzrə xalis faiz dərəcəsi BMUS 19.99-da yenidən qiymətləndirilmiş xalis müəyyənləşdirilmiş təqaüd öhdəlikləri (aktiv) ilə yenidən qiymətləndirilmədə istifadə edilən diskont dərəcəsinin hasili şəklində hesablanır (həmçinin ianələrin təsiri və xalis müəyyənləşdirilmiş təqaüd öhdəlikləri nəzərə alınır (aktiv)).

Düzəlişlər prospektiv şəkildə tətbiq olunur. Onlar yalnız illik dövrün başlanğıcında və ya ondan sonrakı dövrdə BMUS 19-a ilk tətbiq edilmiş paket düzəlişləri, məhdudiyyətləri və hesablamalarına tətbiq olunur.

19 saylı BMUS-a edilən düzəlişlər 1 yanvar 2019-cu il tarixinə və ya ondan sonra başlayan illik dövrlər üçün tətbiq edilməlidir, lakin müəssisənin qərarı ilə, erkən tətbiq oluna bilər.

**MUBS 28 "Asılı və Birgə Müssisələrə İnvestisiya Qoyuluşları" standartına dəyişikliklər** – MUBSŞ, asılı təsərrüfat cəmiyyətlərində uzunmüddətli iştirak payına dair 28 saylı MUBS-ə düzəlişlər hazırlamışdır. Düzəlişə əsasən müəssisə, asılı təsərrüfat cəmiyyətində və ya birgə müəssisədə xalis investisiyanın bir hissəsini təşkil edən, lakin iştirak payı metodunun tətbiq olunmadığı asılı yaxud birgə müəssisədə uzunmüddətli mənfəətə 9 saylı MHBS-i tətbiq etməlidir. Düzəliş 1 yanvar 2019-cu il tarixində və ya ondan sonra başlayan illik dövrlər üçün qüvvəyə minir.

**MHBS 9 "Maliyyə Alətləri" standartına dəyişikliklər** – MUBSŞ, mənfi təzminat və maliyyə öhdəliklərinin dəyişdirilməsi ilə bağlı ödənilmiş avansların xüsusiyyətləri haqqında 9 saylı MHBS-yə dair dəyişiklikləri dərc etmişdir.

*Mənfi Təzminat ilə bağlı Ödənilmiş Avansların Xüsusiyyətləri* – mənfi təzminat ödəmələri üzrə belə, amortizasiya olunmuş dəyərdə ölçməyə icazə vermək məqsədilə xitam hüquqlarına dair 9 saylı MHBS-nin mövcud tələbini dəyişir. MUBSŞ həmçinin, müəssisənin dəyişiklik və ya dəyişdirmə tarixində mənfəət və ya zərərdə dəyişiklik və ya mübadilə nəticəsində yaranan maliyyə öhdəliyinin amortizasiya edilmiş dəyərinə hər hansı düzəlişin tanınmasını aydınlaşdırır.

Bu düzəlişlər 1 yanvar 2019-cu il tarixində və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir.

Rəhbərlik bu standartların nəticələrini, onların maliyyə hesabatlarına təsirini və Qrup tərəfindən qəbul ediləcək tarixini nəzərdən keçirir.

**MHBS 16 "İcarələr"**, MHBS məruzəçisinin icarələri tanıma, ölçmə, təqdim etmə və açıqlama formasını müəyyən edir. Standart, icarə müddəti 12 ay və ya daha az olarsa, yaxud baza aktivinin dəyəri az olarsa, bütün icarələr üzrə aktiv və öhdəlikləri tanımaq üçün icarəçidən tələb olunan vahid mühasibat uçotu modelini təmin edir. İcarəyə verən MHBS 16-nın yanaşması ilə icarələri əməliyyat və ya maliyyə icarələri olaraq təsnif etməyə davam edir və icarəyə verənin mühasibat uçotu bu sahədə daha əvvəlki standart sayılan MUBS 17-yə nisbətən əsaslı dəyişikliklərə məruz qalmır.

MHBS 16 "İcarələr", 13 yanvar 2016-cı il tarixində dərc olunmuşdur və 1 yanvar 2019-cu il tarixində və həmin tarixdən sonra başlayan illik hesabat dövrlərinə tətbiq edilir.

Qrup 16 saylı MHBS-nin tətbiqini, 16:C5(b) saylı MHBS tələbinə uyğun olaraq seçmişdir, yəni Standartın ilkin tətbiq tarixinə onun ilkin olaraq tətbiqinin məcmu təsirini hesablamaqla retrospektiv şəkildə. Nəticədə Qrup müqayisəli məlumatı yenidən nəzərdən keçirməyəcək, əksinə Standartın ilkin tətbiqinin məcmu təsirini, ilkin tətbiqetmə tarixinə bölüşdürülməmiş mənfəətin ilin əvvəlinə olan qalığı üzrə düzəliş olaraq tanıyacaqdır.

Qrup İcarəçi olaraq, yeni standartın tətbiqi üzrə təsirə məruz qala bilər. 16 saylı MHBS, Qrupun əvvəllər balansdan kənar uçotu aparılan 17 saylı MUBS-a əsasən əməliyyat lizinqi kimi təsnifləşdirilən lizinqlərlə bağlı uçot tələblərini dəyişdirə bilər. 16 saylı MHBS-nın ilkin tətbiqi zamanı, bütün lizinqlər üçün (aşağıda göstərildiyi istisna olmaqla), Qrup aşağıdakıları yerinə yetirəcəkdir:

a) İlkin olaraq gələcək icarə ödənişlərinin cari dəyərində ölçülən, istifadə hüququ verən aktivləri və icarə öhdəliklərini konsolidə edilmiş maliyyə vəziyyəti haqqında hesabatda tanımaq;
b) İstifadə hüququ verən aktivlərin və icarə öhdəlikləri üzrə faiz xərclərinin konsolidasiya edilmiş mənfəət və zərər hesabatında amortizasiyasını tanımaq;
c) Pul vəsaitlərinin hərəkəti hesabatında ödənmiş pul vəsaitlərinin ümumi məbləğini əsas hissəyə (maliyyələşdirmə fəaliyyəti bölümündə təqdim olunduqda) və faizə (əməliyyat fəaliyyəti bölümündə təqdim edilən) ayırmaq.

Güzəştli icarə ödənişləri (məsələn, icarə haqqı olmayan müddət) istifadə hüququ verən aktivlərin və icarə öhdəliklərinin ölçülməsinin bir hissəsi kimi qəbul edilməlidir. 17 saylı BMUS-da isə müvafiq olaraq, güzəştli icarə öhdəliklərinin ayrıca tanınması və düz xətt üsulu ilə icarə xərclərinin azalması vasitəsilə amortizasiyası tələb olunurdu.

16 saylı MHBS şərtləri altında aktivlərdən istifadə hüquqları 36 saylı BMUS-a müvafiq ilə uyğun şəkildə dəyərsizləşmə sınağından keçiriləcəkdir.

*Aktivlərin dəyərsizləşməsi.* Əhəmiyyətli icarə müqaviləsinin şərtlərini tanımaq üçün əvvəlki tələbi əvəz edəcəkdir.

Qısa-müddətli icarələr (12 aylıq və ya daha az) və aşağı dəyərli aktivlər (məsələn fərdi kompüterlər və ofis mebeli) üçün Qrup 16 saylı MHBS-nin icazə verdiyi formada, icarə xərclərini düz-xətt metodu əsasında tanımağı seçmişdir.

Qrup hələ ki bu standartın tətbiqinin konsolidasiya edilmiş maliyyə hesabatlarına təsirini dəyərləndirməmişdir.

**MHBS 17 "Sığorta müqavilələri"** 2017-ci ilin may ayında verilmiş və 4 saylı MHBS "Sığorta müqavilələri"-ni əvəz edir. Yeni standart sığorta müqavilələrinin tanınması, ölçülməsi, təqdim edilməsi və açıqlanması prinsiplərini müəyyən edir. Müəssisə, buraxdığı təkrarsığorta müqavilələri də daxil olmaqla sığorta müqavilələrinə; əlində olan təkrarsığorta müqavilələrinə; imtiyazlı iştirak xüsusiyyətləri ilə buraxdığı investisiya müqavilələrinə; müəssisənin bağladığı sığorta müqavilərinə MHBS 17 "Sığorta müqavilələri"-ni tətbiq etməlidir.

MHBS 17, 2021-ci il yanvarın 1-də və ya ondan sonra başlayan illik hesabat dövrləri üçün qüvvədədir. MHBS 15 "Müştərilərlə Müqavilələrdən Əldə Edilən Gəlir" və 9 MHBS "Maliyyə Alətləri" standartları ilə birlikdə icazə verilir.

**MHBS 3 Müəssisələrin Birləşməsi. "Müəssisə" tərifinə edilən Düzəliş** – Düzəlişlər şirkətlərə əldə edilmiş aktivlərin müəssisə və ya aktivlər qrupu olduğunu müəyyənləşdirməyə kömək edəcək.

Edilmiş düzəliş biznes xidmətlərinin nəticələrinin müştəriləri məhsul və xidmətlər ilə təmin etmək olduğunu vurğulayır. Halbuki əvvəlki anlayışa əsasən, biznes anlayışı dividend şəklində, daha aşağı xərclərə və ya investorlara və digərlərinə iqtisadi mənfəət təmin etmək məqsədi daşıyırdı. Alınan aktivin biznes və ya aktivlər qrupu olduğunu fərqləndirmək vacibdir, çünki alıcı qudvili yalnız biznes alarkən tanıyır. Dəyişikliklərə əsasən, "biznes"-in yeni tərifi müştərilərə məhsul və ya xidmətlərin göstərilməsi, investisiya gəlirinin yaranması (məsələn, dividendlər və faizlər) və ya adi fəaliyyətdən digər gəlirlər yaranmasının ayrılmaz tərkibidir.

Şirkətlər, biznesin yenilənmiş tərifini 2020-ci il yanvarın 1-də və ya ondan sonra baş verən satınalmalara tətbiq etməlidirlər. Daha əvvəl tətbiq edilməsinə icazə verilir.

**"Əhəmiyyətlilik" anlayışının yeni tərifi** – MUBSŞ şirkətlərin əhəmiyyətliliklə bağlı qərarları daha asan verməsi üçün əhəmiyyətlilik prinsipinə düzəlişlər dərc etmişdir. Yeni dəyişikliklər 1 saylı BMUS "Maliyyə Hesabatlarının Təqdimatı" və 8 saylı BMUS "Mühasibat Uçotu Qaydaları, Uçot Ehtimallarındakı Dəyişikliklər və Xətalar"-a şamil edilir.

Dəyişikliklər əhəmiyyətliliyin tərifini və bu günə qədər MHBS-nin digər standartlarında göstərilmiş olan əhəmiyyətlilik prinsiplərinin tətbiqi ilə bağlı təlimatları da hesabat hazırlayanlar üçün aydınlaşdırır. Yeni tərifə əsasən, məlumat o zaman əhəmiyyətli sayılır ki, onun gizlədilməsi, təhrif edilməsi və ya dəyişdirilməsi maliyyə hesabatlarını ümumi məqsədlər üçün istifadə edən əsas tərəflərin qərarlarına təsir etməsi ehtimal edilir və bu məlumat hesabat hazırlayan konkret müəssisə üzrə maliyyə məlumatı xarakterinə malikdir.

Dəyişikliklər 1 yanvar 2020-ci il tarixindən qüvvədədir. Erkən tətbiqinə icazə verilir.

**10 saylı MHBS "Konsolidə Edilmiş Maliyyə Hesabatları" və 28 saylı BMUS (düzəlişlər): "İnvestor və onun Asılı və ya Birgə Müəssisəsi arasında Aktivlərin Satışı və ya Ötürülməsi" –**
10 saylı MHBS və 28 saylı BMUS-a edilən düzəlişlər investor, onun asılı müəssisəsi və birgə müəssisə arasında aktivlərin satışı və ya ötürülməsi üzrə vəziyyəti ehtiva edir. Düzəlişlər xüsusi olaraq kapital metodu ilə konsolidasiya edilən əlaqəli və birgə müəssisələrlə biznes əməliyyatları aparmayan törəmə müəssisə üzərində nəzarətin itirilməsi ilə bağlı olan gəlir və zərərlərin, ana müəssisənin mənfəət və zərər hesabatında əlaqəsi olmayan investorun həmin əlaqəli və ya birgə müəssisədə olan payına düşən hissəyə müdaxilə etməmək şərtilə tanınmasını tələb edir. Eynilə, istənilən keçmiş törəmə müəssisədə (kapital metodu ilə konsolidasiya edilən assosiasiya və birgə müəssisəyə çevrildikdə) saxlanılan investisiyanın ədalətli dəyərlə yenidən ölçülməsindən irəli gələn gəlir və ya zərər yalnız əlaqəsi olmayan investorların yeni assosiasiya və ya birgə müəssisədəki payları müqabilində tanınır.

Düzəlişlərin qüvvəyə minmə tarixi hələ ki, MUBSŞ tərəfindən müəyyən edilməmişdir; lakin, düzəlişlərin erkən tətbiqinə icazə verilir.

## 6. TÖRƏMƏ MÜƏSSİSƏNİN UÇOTUNUN LƏĞVİ – DAYANDIRILMIŞ ƏMƏLİYYATLAR

2 oktyabr 2017-ci ildə Qrup, hər birinin nominal dəyəri 20 manat olan 100 adi səhmini 2 min AZN müqabilində üçüncü tərəf sayılan resident fiziki şəxsə ötürülməsi yolu ilə "Şami Keçi Fermer Təsərrüfatı" MMC-də olan 100% səhm payını tamamilə satmışdır. Qrup özünün törəmə müəssisəsini satdığı üçün, bu müəssisə dayandırılmış əməliyyatlar bölümü üzrə təqdim edilmişdir.

Qrupun dayandırılmış əməliyyatlar üzrə nəticələri aşağıdakı kimidir:

| | **31 dekabr 2017-ci il** |
|---|---|
| Gəlirlər | - |
| Satış dəyəri | - |
| **Ümumi zərər** | **-** |
| Ümumi və inzibati xərclər | (220) |
| Əmlak, tikili və avadanlıqlar üzrə dəyərsizləşmə | - |
| **Əməliyyatlar üzrə zərər** | **(220)** |
| Xarici valyuta üzrə zərər | - |
| **İL ÜZRƏ XALİS ZƏRƏR** | **(220)** |
| **Dayandırılmış əməliyyatlar üzrə pul vəsaitlərinin hərəkəti** | |
| Əməliyyat fəaliyyəti üzrə xalis pul vəsaitləri | - |
| İnvestisiya fəaliyyəti üzrə xalis pul vəsaitləri | - |
| Məzənnə dəyişikliklərinin pul vəsaitləri və onların ekvivalentlərinə təsiri | - |
| **Dövr/il üzrə pul vəsaitlərinin hərəkəti** | **-** |
| **Ləğvetmənin Qrupun maliyə vəziyyətinə təsiri** | |
| Əmlak, tikili və avadanlıqlar | (1,867) |
| Bioloji aktivlər | (464) |
| Mal və materiallar | (309) |
| Avadanlıq və digər xidmətlər üzrə avans ödənişləri | (193) |
| Ödəniləcək vergilər | 1 |
| Digər öhdəliklər | 1 |
| **Ləğv edilmiş xalis aktivlər** | **(2,831)** |
| Alınmış məbləğ | 2,764 |
| **Törəmə müəssisənin satışı üzrə zərər** | **(67)** |

## 7. ƏMLAK, TİKİLİ VƏ AVADANLIQLAR

| | Binalar | Tikili və avadan-lıqlar | Maşın və avadanlıqlar | Kompüter və avadanlıqlar | Mebel və qurğular | Nəqliyyat vasitələri | Yarım-tikililər | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|
| **İlkin dəyər** | | | | | | | | |
| **1 yanvar 2017-ci il** | **10,020** | **16,464** | **55,091** | **1,485** | **851** | **16,117** | **-** | **100,028** |
| Əlavələr | - | - | 165 | 3 | - | 181 | 1,563 | 1,912 |
| Silinmələr üzrə ləğv edilmiş | - | - | (128) | (20) | (1) | (25) | - | (174) |
| Satışlar üzrə silinmələr | (2,028) | (409) | - | - | - | (15) | - | (2,452) |
| Təqdimat valyutasına çevrilmənin təsiri | 3 | - | 1,036 | - | - | - | 68 | 1,107 |
| **31 dekabr 2017-ci il** | **7,995** | **16,055** | **56,164** | **1,468** | **850** | **16,258** | **1,631** | **100,421** |
| Əlavələr | - | 2,866 | 13,686 | 163 | 45 | 1,038 | 1,460 | 19,258 |
| Silinmələr üzrə ləğv edilmiş | - | - | (4,917) | (138) | (12) | (84) | (12) | (5,163) |
| Təqdimat valyutasına çevrilmənin təsiri | (1) | - | (420) | - | - | - | (106) | (527) |
| **31 dekabr 2018-ci il** | **7,994** | **18,921** | **64,513** | **1,493** | **883** | **17,212** | **2,973** | **113,989** |

| | Binalar | Tikili və avadanlıqlar | Maşın və avadanlıqlar | Kompüter və avadanlıqlar | Mebel və qurğular | Nəqliyyat vasitələri | Yarım-tikililər | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|
| **Yığılmış köhnəlmə və amortizasiya** | | | | | | | | |
| **1 yanvar 2017-ci il** | **(2,931)** | **(9,089)** | **(29,502)** | **(998)** | **(768)** | **(14,100)** | **-** | **(57,388)** |
| Amortizasiya xərci | (120) | (437) | (4,947) | (155) | (25) | (1,045) | - | (6,729) |
| Silinmələr üzrə ləğv edilmiş | - | - | 60 | 11 | 1 | 21 | - | 93 |
| Törəmə müəssisənin ləğvi | 163 | 422 | - | - | - | - | - | 585 |
| Dayandırılmış əməliyyatlar üzrə amortizasiya tutulmaları | (44) | (132) | - | - | - | - | - | (176) |
| Təqdimat valyutasına çevrilmənin təsiri | (1) | - | (563) | - | - | - | - | (564) |
| **31 dekabr 2017-ci il** | **(2,933)** | **(9,236)** | **(34,952)** | **(1,142)** | **(792)** | **(15,124)** | **-** | **(64,179)** |
| Amortizasiya xərci | (120) | (605) | (3,937) | (137) | (27) | (1,111) | - | (5,937) |
| Silinmələr üzrə ləğv edilmiş | - | - | 341 | 127 | 11 | 57 | - | 536 |
| Təqdimat valyutasına çevrilmənin təsiri | - | - | (90) | - | - | - | - | (90) |
| **31 dekabr 2018-ci il** | **(3,053)** | **(9,841)** | **(38,638)** | **(1,152)** | **(808)** | **(16,178)** | **-** | **(69,670)** |
| **Xalis qalıq dəyəri:** | | | | | | | | |
| **31 dekabr 2018-ci il** | **4,941** | **9,080** | **25,875** | **341** | **75** | **1,034** | **2,973** | **44,319** |
| **31 dekabr 2017-ci il** | **5,062** | **6,819** | **21,212** | **326** | **58** | **1,134** | **1,631** | **36,242** |

31 dekabr 2018 və 2017-ci il tarixlərinə müvafiq olaraq 15,419 min AZN, və 10,776 min AZN məbləğlərində əmlak, qurğu və avadanlıqlara daxil edilmiş maddələr tam şəkildə amortizasiya edilmişdir.

31 dekabr 2018 və 2017-ci il tarixlərinə əmlak, qurğu və avadanlıqlara daxil edilmiş maddələr sığortalanmamışdır.

## 8. QEYRİ-MADDİ AKTİVLƏR

| | Proqram təminatı və lisenziyalar | Cəmi |
|---|---|---|
| **İlkin dəyər** | | |
| **1 yanvar 2017-ci il** | **147** | **147** |
| Əlavələr | 1,434 | 1,434 |
| Təqdimat valyutasına çevrilmənin təsiri | 63 | 63 |
| **31 dekabr 2017-ci il** | **1,644** | **1,644** |
| Əlavələr | 1 | 1 |
| Silinmələr üzrə ləğv edilmiş | (1,499) | (1,499) |
| Təqdimat valyutasına çevrilmənin təsiri | 8 | 8 |
| **31 dekabr 2018-ci il** | **154** | **154** |
| **Hesablanmış amortizasiya** | | |
| **1 yanvar 2017-ci il** | **(82)** | **(82)** |
| İl üzrə tutulma | (13) | (13) |
| Təqdimat valyutasına çevrilmənin təsiri | (4) | (4) |
| **31 dekabr 2017-ci il** | **(99)** | **(99)** |
| İl üzrə tutulma | (15) | (15) |
| Silinmələr üzrə ləğv edilmiş | 23 | 23 |
| Təqdimat valyutasına çevrilmənin təsiri | 1 | 1 |
| **31 dekabr 2018-ci il** | **(90)** | **(90)** |
| **Xalis qalıq dəyəri:** | | |
| **31 dekabr 2018-ci il** | **64** | **64** |
| **31 dekabr 2017-ci il** | **1,545** | **1,545** |

## 9. MÜŞTƏRİLƏRDƏ SAXLANILAN SONRADAN GERİ QAYTARILMASI GÖZLƏNİLƏN ƏMANƏTLƏR

| | 31 dekabr 2018-ci il | 31 dekabr 2017-ci il |
|---|---|---|
| "China Shandong International Economic & Technical" Ltd. | 739 | 231 |
| "Ogranak MMS International Beograd" Ltd. | 24 | - |
| "Koridori Srbije" Ltd. | - | 231 |
| **Cəmi müştərilərdə saxlanılan sonradan geri qaytarılması gözlənilən əmanətlər** | **763** | **462** |

Qrup və "Koridori Srbije" Ltd. arasında Serbiya Respublikasında E-763 Magistral avtomobil yolunun inşası üzrə imzalanmış müqaviləyə əsasən "Koridori Srbije" Ltd. şirkətinin görülən işlərin keyfiyyəti üçün zəmanət olaraq yerinə yetirilmiş işlərin dəyərinin 5 faizini saxlamaq hüququna malikdir. 31 dekabr 2018-ci il tarixinə Qrupun keyfiyyətin zəmanəti olaraq, "China Shandong International Economic & Technical" Ltd.-dən alınacaq vəsaitləri 739 min AZN təşkil etmişdir. (2017-ci il: 231 min)

Qrup və "Ogranak MMS International Beograd" Ltd. arasında imzalanan Serbiya Respublikasında Belqrad-Subotica dəmir yolunun yenidən qurulması, müasirləşdirilməsi və tikintisi layihəsi üzrə imzalanmış müqaviləyə və müvafiq əlavə sənədlərə əsasən, "Ogranak MMS International Beograd" Ltd şirkəti işlərin yerinə yetirilməsinin təminatı olaraq, həyata keçirilmiş əlavə işlərin ümumi dəyərinin 10%-i həcmində vəsaiti bloklaşdırmaq hüququna malikdir. 31 dekabr 2018-ci il tarixinə Qrupun "Ogranak MMS International Beograd" Ltd. şirkətindən keyfiyyət təminatı üçün 24 min AZN məbləğində debitor borcları mövcud olmuşdur (2017: sıfır).

Qrup və "Koridori Srbije" Ltd. arasında Serbiya Respublikasında Ljig-Preljina E-763 magistralının, II hissəsinin tikintisi üçün imzalanmış müqaviləyə əsasən, "Koridori Srbije" işlərin yerinə yetirilməsinin təminatı olaraq, həyata keçirilmiş əlavə işlərin ümumi dəyərinin 5%-i həcmində vəsaiti bloklaşdırmaq hüququna malikdir. 31 dekabr 2017-ci il tarixinə Qrupun keyfiyyət təminatı üçün "Koridori Srbije" Ltd.-dən alınacaq debitor borclarının ümumi dəyəri 231 min AZN məbləğindədir.

Rəhbərlik bu əmanətlərin tamamilə toplana biləcəyindən və əlavə işlərlə bağlı konsolidasiya edilmiş maliyyə hesabatlarında əhəmiyyətli təsir olmayacağından əmindir.

## 10. MAL-MATERİAL EHTİYATLARI

Mal-material ehtiyatları qalığı aşağıdakılardan ibarətdir:

| | **31 dekabr 2018-ci il** | **31 dekabr 2017-ci il** |
|---|---|---|
| Tikinti materialları | 9,544 | 5,861 |
| Ehtiyat hissələri | 3,944 | 1,975 |
| Yanacaq | 57 | 46 |
| Davam edən işlər | - | 720 |
| Digər | 3 | - |
| **Cəmi mal-material ehtiyatları, ümumi** | **13,548** | **8,602** |
| Çıxılsın: yararsız mal-material ehtiyatlarının silinməsi | (2,473) | (1,989) |
| **Cəmi mal-material ehtiyatları, xalis** | **11,075** | **6,613** |

31 dekabr 2018 və 2017-ci il tarixlərinə mal-material ehtiyatlarına daxil edilmiş vəsaitlər üzrə mülkiyyət hüquqları məhdudlaşdırılmış aktivlər, eləcə də öhdəliklər üzrə təminat olaraq təqdim olunmuş aktivlər mövcud olmamışdır.

## 11. MAL-MATERİAL EHTİYATLARI VƏ DİGƏR XƏRCLƏR ÜZRƏ AVANSLAR

| | **31 dekabr 2018-ci il** | **31 dekabr 2017-ci il** |
|---|---|---|
| Mal-material ehtiyatları üzrə avans ödənişləri | 6,531 | 3,600 |
| Çıxılsın: mal-material ehtiyatları və digər xərclər üzrə avans ödənişləridə dəyərsizləşmə üzrə ehtiyat | (688) | (688) |
| **Cəmi mal-material ehtiyatları və digər xərclər üzrə avanslar, xalis** | **5,843** | **2,912** |

31 dekabr 2018 və 2017-ci il tarixlərinə Qrupun iki təchizatçıya 4,224 min AZN və 2,583 min AZN məbləğlərində cari avans ödənişləri mövcud olmuşdur. Həmin ödənişlər mal-material ehtiyatları və digər xərclər üzrə cəmi avans ödənişlərinin müvafiq olaraq 65% və 72%-ni təşkil etmişdir.

## 12. TƏQDİM OLUNMUŞ KREDİTLƏR

| | **31 dekabr 2018-ci il** | **31 dekabr 2017-ci il** |
|---|---|---|
| Kənar tərəflərə verilmiş kreditlər | 3,021 | 1,123 |
| Əlaqəli tərəflərə verilmiş kreditlər | 1,281 | 3,046 |
| **Cəmi təqdim olunmuş kreditlər** | **4,302** | **4,169** |

31 dekabr 2018-ci il tarixinə kənar şəxslərə verilmiş kreditlər bir ildən az müddətə, illik 3.98% faiz dərəcəsi ilə 1,281 min AZN məbləğini təşkil edir. Əlaqəli tərəflərə verilmiş kreditlər bir ildən az müddətə illik 6.46% və 3.98% faiz dərəcələri ilə 3,021 min AZN məbləğini təşkil edir (2017: əlaqəli tərəflərə bir ildən az müddətə, illik 3.98% faiz dərəcəsi ilə 3,046 min AZN məbləğində verilmiş kredit. Əlaqəli tərəflərə bir ildən az müddətə, illik 6,46% və 3.98% faiz dərəcəsi ilə 1,123 min AZN məbləğində verilmiş kredit).

## 13. SUBPODRATÇILARDA SAXLANILAN VƏSAİTLƏR

| | **31 dekabr 2018-ci il** | **31 dekabr 2017-ci il** |
|---|---|---|
| Subpodratçılarda saxlanılan vəsaitlər | 2,348 | 1,916 |
| **Cəmi subpodratçılarda saxlanılan vəsaitlər, ümumi** | **2,348** | **1,916** |
| Çıxılsın: subpodratçılarda saxlanılan vəsaitlər üzrə dəyərsizləşmə ilə | (597) | (1,024) |
| **Cəmi subpodratçılarda saxlanılan vəsaitlər, xalis** | **1,751** | **892** |

Subpodratçılarda saxlanılan vəsaitlərin dəyərsizləşməsi üzrə ehtiyatda dəyişikliklər aşağıda təqdim olunmuşdur:

| | 2018-ci il | 2017-ci il |
|---|---|---|
| **1 yanvar tarixinə qalıq** | **(1,024)** | **(1,114)** |
| Ehtiyatda xalis dəyişiklik (Qeyd 27) | 427 | 90 |
| **31 dekabr tarixinə qalıq** | **(597)** | **(1,024)** |

Müqavilələrin yerinə yetirilməsi üzrə əmanətlər tikinti layihələrinin əvvəlində layihəni həyata keçirən şirkətə avans olaraq ödənilir. Vəsaitlər müqavilənin şərtlərinə və tikintinin inkişaf mərhələsinə uyğun olaraq Qrupa geri ödənilir.

Layihələr üzrə tender əmanətləri müqavilələrin tender dövründə layihəni həyata keçirən şirkətə avans olaraq ödənilir. Vəsaitlər tender prosesi tamamlandıqdan sonra, Qrupa geri ödənilir.

## 14. DEBİTOR BORCLARI VƏ DİGƏR ALINACAQ VƏSAİTLƏR

| | 31 dekabr 2018-ci il | 31 dekabr 2017-ci il |
|---|---|---|
| Xarici subpodratçılardan tikinti işləri üzrə alınacaq vəsaitlər | 25,234 | 16,747 |
| Yerli subpodratçılardan tikinti işləri üzrə alınacaq vəsaitlər | 15,916 | 30,294 |
| Digər xidmətlər üzrə debitor borcları | 315 | 1,264 |
| **Cəmi debitor borcları və digər alınacaq vəsaitlər, ümumi** | **41,465** | **48,305** |
| Çıxılsın: debitor borcları və digər alınacaq vəsaitlər üzrə dəyərsizləşmə ehtiyatı | (8,106) | (4,280) |
| **Cəmi debitor borcları və digər alınacaq vəsaitlər, xalis** | **33,359** | **44,025** |

Debitor borclarının və digər alınacaq vəsaitlərin ödəmə müddətlərinin təhlili aşağıda qeyd olunmuşdur:

| | 31 dekabr 2018-ci il | 1 yanvar 2018-ci il | 31 dekabr 2017-ci il |
|---|---|---|---|
| **1 yanvar tarixinə qalıq** | **(7,072)** | **(4,280)** | **(6,982)** |
| Ehtimal olunan kredit zərəri üzrə xalis dəyişiklik | (1,034) | (2,792) | 2,702 |
| **31 dekabr tarixinə qalıq** | **(8,106)** | **(7,072)** | **(4,280)** |

31 dekabr 2018 və 2017-ci il tarixlərinə Qrupun cəmi debitor borcları və digər alınacaq vəsaitlərinin 40% və 55%-ni təşkil edən 16,577 min AZN və 26,543 min AZN məbləğlərində iki müştəridən alınacaq debitor borcları və digər alınacaq vəsaitləri mövcud olmuşdur.

Qrup bütün debitor borcları və alınacaq digər vəsaitlər üzrə ömürlük ehtimal olunan kredit zərərini istifadə etməklə ehtimal olunan kredit zərərinin ölçülməsi üçün 9 saylı MHBS-nin sadələşdirilmiş yanaşmasını tətbiq edir.

Ehtimal olunan kredit zərərinin ölçülməsi üçün, debitor borcları və digər alınacaq vəsaitlər bölüşdürülmüş kredit riski xüsusiyyətləri və vaxtı keçmiş günlər əsasında qruplaşdırılır.

## 15. PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ

| | 31 dekabr 2018-ci il | 31 dekabr 2017-ci il |
|---|---|---|
| Nağd pul vəsaitləri | 767 | 1 |
| Bankda yerləşdirilən nağd pul vəsaitləri | 18,141 | 499 |
| **Cəmi pul vəsaitləri və onların ekvivalentləri** | **18,908** | **500** |

31 dekabr 2018 və 2017-ci il tarxilərinə pul vəsaitləri və onların ekvivalentlərinin istifadəsinə dair heç bir məhdudiyyət qoyulmamışdır.

Ehtimal olunan kreditin zərərinin (EOKZ) ölçülməsi məqsədilə, pul vəsaitləri və onların ekvivalentləri üzrə qalıqlar 1-ci Mərhələyə daxil edilmişdir. Bu qalıqlar üzrə EOKZ əhəmiyyətsiz məbləği təmsil edir.

## 16. DİGƏR AKTİVLƏR

| | 31 dekabr 2018-ci il | 31 dekabr 2017-ci il |
|---|---|---|
| **Digər maliyyə aktivləri:** | | |
| İşçilərə verilmiş kreditlər | 504 | 278 |
| Digər | 184 | 30 |
| **Cəmi digər maliyyə aktivləri** | **688** | **308** |
| **Digər qeyri-maliyyə aktivləri:** | | |
| ƏDV əmanət hesabı | 49 | 1 |
| **Cəmi digər qeyri-maliyyə aktivləri** | **49** | **1** |
| **Cəmi digər aktivlər** | **737** | **309** |

## 17. SUBPODRATÇILARDAN ALINMIŞ VƏSAİTLƏR

| | 31 dekabr 2018-ci il | 31 dekabr 2017-ci il |
|---|---|---|
| Xarici subpodratçılardan alınmış əmanətlər | 579 | 6,920 |
| **Cəmi subpodratçılardan alınmış vəsaitlər** | **579** | **6,920** |

Subpodratçılardan alınmış vəsaitlər magistral yolun inşasının icra olunmasında subpodratçılardan alınmış qısamüddətli vəsaitlərdir.

31 dekabr 2018 və 2017-ci il tarixlərinə Qrupun subpodratçılardan alınmış cəmi vəsaitlərin 87% və 34%-ni təşkil edən 504 min AZN və 2,381 min AZN məbləğlərində bir subpodratçıdan alınmış vəsaitlərin cari qalığı mövcud olmuşdur.

## 18. MALİYYƏ İCARƏSİ ÖHDƏLİKLƏRİ

Qrup "S leasing" və "UniCredit Leasing" ilə maşınlar, sərnişin avtomobilləri və digər avadanlıqların alınması üçün bir sıra maliyyə icarəsi müqavilələri bağlamışdır. Bütün icarə razılaşmaları üç il müddətinə 15% endirimlə bağlanmış və 2022-ci ilin fevral ayına qədər ödəmə müddəti ilə imzalanmışdır. Qrupun, 31 dekabr 2018-ci il tarixində başa çatmış il üzrə 61 min AZN məbləğində faiz xərci mövcud olmuşdur.

Qrupun 31 dekabr 2018-ci il tarixinə maliyyə icarəsi öhdəliyinin ümumi dəyəri 5,156 min AZN məbləğində olmuşdur (31 dekabr 2017-ci il: sıfır).

31 dekabr 2018-ci il tarixində xalis minimal icarə ödənişinin cari dəyəri aşağıdakı kimi olmuşdur:

| | **31 dekabr 2018-ci il** |
|---|---|
| **Maliyyə icarəsi öhdəliyi:** | |
| 1 ildən gec olmayaraq | 1,973 |
| 1 ildən sonra, 5 ildən gec olmayaraq | 3,382 |
| **Cəmi minimal icarə ödənişi** | **5,355** |
| Çıxılsın: gələcək maliyyə xərcləri | (199) |
| **Maliyyə icarəsi öhdəliyinin cari dəyəri** | **5,156** |
| **Təmsil olunan icarə öhdəlikləri:** | |
| Cari | 1,901 |
| Uzunmüddətli | 3,255 |
| **Cəmi maliyyə icarəsi öhdəlikləri** | **5,156** |

Maliyyə icarə öhdəliyinin müvafiq maliyyə əməliyyatından daxil olmuş pul vəsaitləri və onların ekvivalentləri ilə ilin əvvəlinə olan məbləği ilə ilin sonun olan məbləğinin üzləşdirilməsi aşağıdakı kimi olmuşdur:

| | |
|---|---|
| **1 yanvar 2018-ci il** | - |
| **Nağd dəyişiklikləri** | |
| Ödənilmiş əsas məbləğ | (1,148) |
| Ödənilmiş faiz | (61) |
| **Qeyri-nağd dəyişikliklər** | |
| İcarəyə verilmiş aktivlər | 6,304 |
| Faiz xərci | 61 |
| **31 dekabr 2018-ci il** | **5,156** |

## 19. MÜŞTƏRİDƏN ALINMIŞ AVANSLAR

| | **31 dekabr 2018-ci il** | **31 dekabr 2017-ci il** |
|---|---|---|
| Qırğızıstan Respublikasında həyata keçirilmiş layihələr | 13,091 | - |
| Serbiya Respublikasında həyata keçirilmiş layihələr | 8,319 | 2,059 |
| Ukrayna Respublikasında həyata keçirilmiş layihələr | 5,932 | - |
| Digər layihələr | 578 | - |
| **Cəmi müştəridən alınmış avanslar** | **27,920** | **2,059** |

Müştəridən alınmış avanslar magistral yolun inşasının icra olunması üçün alınmış avansları əks etdirir.

## 20. BORC ALINMIŞ VƏSAİTLƏR

| | **31 dekabr 2018-ci il** | **31 dekabr 2017-ci il** |
|---|---|---|
| Sberbank Srbija A.D. Beograd | 5,291 | - |
| "Premiumbank" ASC | 1,698 | - |
| "UniCredit" Bank Srbija A.D. Beograd | - | 2,132 |
| **Cəmi borc alınmış vəsaitlər** | **6,989** | **2,132** |

31 dekabr 2018-ci il tarixinə borc alınmış vəsaitlərə "Premiumbank" ASC-dən 1,698 min AZN məbləğində, ödəmə müddəti 1 ildən az, 10% illik faiz dərəcəsi ilə alınmış kredit, "SberBank" Srbija A.D. Beograd-dan qısamüddətli borc alınmış, ümumi məbləği 5,291 AZN (bu məbləğin 1,397 min AZN məbləği 1 ay müddətinə rüblük EURLIBOR + 3.5% faiz dərəcəsi ilə, qalan 3,894 min AZN məbləği isə 5 ay müddətinə rüblük EURLIBOR + 3.5% ilə alınmışdır) kredit daxildir. 31 dekabr 2017-cı il tarixinə borc alınmış vəsaitlər "UniCredit" Bank Srbija A.D. Beograd-dan bir ay müddətinə rüblük EURLIBOR + 3.5% faiz dərəcəsi ilə 2,132 min AZN məbləğində banklardan alınmış qısamüddətli borc vəsaitlərini əks etdirir. Borc alınmış vəsaitlər təminatsızdır.

Müvafiq pul vəsaitləri və onların ekvivalentləri kateqoriyasına maliyyə fəaliyyəti nəticəsində yaranmış dəyişikliklər üzrə, ilin əvvəlinə və ilin sonuna olan məbləğlərinin qarşılaşdırılmaı aşağıdakı kimi olmuşdur:

| | **2018-ci il** | **2017-ci il** |
|---|---|---|
| **1 yanvar** | **2,132** | **3,680** |
| **Nağd pul dəyişiklikləri** | | |
| Daxilolmalar | 10,357 | - |
| Ödənilmiş əsas məbləğ | (5,500) | (1,547) |
| Ödənilmiş faiz | (331) | (751) |
| **Qeyri-nağd dəyişikliklər** | | |
| Faiz xərci | 331 | 751 |
| Xarici valyuta gəlirləri, xalis | - | (1) |
| **31 dekabr** | **6,989** | **2,132** |

## 21. KREDİTOR BORCLARI VƏ DİGƏR ÖDƏNİLƏCƏK VƏSAİTLƏR

| | 31 dekabr 2018-ci il | 31 dekabr 2017-ci il |
|---|---|---|
| Xarici sub-podratçılardan alınmış kreditor borcları və digər ödəniləcək vəsaitlər | 11,100 | 19,210 |
| Yerli sub-podratçılardan alınmış kreditor borcları və digər ödəniləcək vəsaitlər | 3,195 | 3,749 |
| **Cəmi kreditor borcları və digər ödəniləcək vəsaitlər** | **14,295** | **22,959** |

31 dekabr 2018 və 2017-ci il tarixlərinə Qrupun cəmi kreditor borcları və digər ödəniləcək vəsaitlərin 24% və 33%-ni təşkil edən 3,433 min AZN və 7,643 min AZN məbləğlərində iki müştəriyə ödəniləcək kreditor borclarının və digər vəsaitlərin qalıqları mövcuddur.

Müqavilələrə əsasən, xidmət və təchizat üçün ödəniş üzrə orta kredit dövrü 30-60 günə qədərdir.

Kreditor borcları və digər ödəniləcək vəsaitlərin sektor üzrə təhlili aşağıdakı kimidir:

| | 31 dekabr 2018-ci il | December 31, 2017 |
|---|---|---|
| Tikinti | 8,041 | 11,812 |
| Xidmət | 3,984 | 2,989 |
| Enerji | 1,409 | 6,365 |
| Digər | 861 | 1,793 |
| **Cəmi kreditor borcları və digər ödəniləcək vəsaitlər** | **14,295** | **22,959** |

## 22. SƏHMDAR KAPİTALI

31 dekabr 2018 və 2017-ci il tarixlərinə 129 min AZN təşkil edən səhmdar kapitalı bir səhmin nominal dəyəri 3,225 AZN olan 40 səhmdən ibarətdir.

Qrupun mülkiyyətinə aid məlumatlar üçün 1 saylı Qeydə baxın.

İl ərzində elan edilmiş və ödənilmiş dividendlər aşağıdakı kimi olmuşdur:

| | 31 dekabr 2018-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2017-ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|
| **1 yanvar 2018-ci il tarixinə ödəniləcək dividentlər** | - | - |
| İl üzrə elan edilmiş dividentlər | 1,602 | 3,029 |
| İl üzrə ödənilmiş dividentlər | (1,602) | (3,029) |
| **31 dekabr 2018-ci il tarixinə ödəniləcək dividentlər** | **-** | **-** |

## 23. TİKİNTİ MÜQAVİLƏLƏRİ ÜZRƏ GƏLİRLƏR

| | **31 dekabr 2018-ci il tarixində başa çatmış il üzrə** | **31 dekabr 2017-ci il tarixində başa çatmış il üzrə** |
|---|---|---|
| Yerli tiktinti müqavilələri üzrə gəlirlər | 46,997 | 67,298 |
| Xarici tikinti müqavilələri üzrə gəlirlər | 38,749 | 40,063 |
| **Cəmi tikinti müqavilələri üzrə gəlirlər** | **85,746** | **107,361** |

31 dekabr 2018 və 2017-ci il tarixlərinə cəmi tikinti müqavilələri üzrə gəlirlərin 23% və 30%-ni təşkil edən 19,826 min AZN və 32,640 min AZN məbləğlərində tikinti müqavilələri üzrə gəlirlərə daxil edilmiş vəsaitlər bir müştəridən alınmışdır.

## 24. TİKİNTİ ÜZRƏ MAYA DƏYƏRİ

| | **31 dekabr 2018-ci il tarixində başa çatmış il üzrə** | **31 dekabr 2017-ci il tarixində başa çatmış il üzrə** |
|---|---|---|
| Material xərcləri | 18,058 | 17,715 |
| Əməkhaqqı və əlaqəli xərclər | 15,024 | 12,980 |
| Subpodratçı xərcləri | 12,895 | 40,412 |
| Yanacaq xərcləri | 5,562 | 3,794 |
| Əmlak, qurğu və avadanlıqların amortizasiya xərcləri | 5,122 | 5,906 |
| Daşınma xərcləri | 4,080 | 3,303 |
| Sosial sığorta | 2,828 | 2,225 |
| Təmir və texniki xidmət xərcləri | 2,133 | 1,823 |
| İcarə xərcləri | 1,936 | 696 |
| Kommunal xərclər | 612 | 525 |
| Neft və sürtkü yağları | 570 | 416 |
| Sığorta xərcləri | 197 | 201 |
| Mənfəət vergisindən başqa vergilər | 133 | 125 |
| İşgüzar səfər xərcləri | 131 | 369 |
| Rabitə xərcləri | 48 | 50 |
| Digər | 18 | 80 |
| **Cəmi tikinti üzrə xərclər** | **69,347** | **90,620** |

## 25. ÜMUMİ VƏ İNZİBATİ XƏRCLƏR

| | 31 dekabr 2018-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2017-ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|
| Məsləhət və peşəkar xidmətlər | 2,316 | 2,353 |
| Əməkhaqqı və əlaqəli xərclər | 2,179 | 1,794 |
| İşgüzar səfər xərcləri | 1,339 | 1,228 |
| Bank tutulmaları | 951 | 216 |
| Köhnəlmə və amortizasiya | 830 | 1,057 |
| Yanacaq xərcləri | 570 | 578 |
| Sosial sığorta | 446 | 382 |
| Təhlükəsizlik xərcləri | 363 | 989 |
| Rabitə xərcləri | 274 | 272 |
| Təhlükəsizlik xərcləri | 268 | 284 |
| Ofis xərcləri | 263 | 360 |
| Təmir və texniki xidmət xərcləri | 207 | 40 |
| Sponsorluq xərcləri | 202 | 88 |
| Mənfəət vergisindən başqa vergilər | 194 | 212 |
| İcarə xərcləri | 151 | 81 |
| Kommunal xərclər | 92 | 10 |
| Reklam xərcləri | 35 | 20 |
| Üzvlük haqqları | 30 | 75 |
| Nümayəndəlik xərcləri | 8 | 62 |
| Digər | 396 | 382 |
| **Cəmi ümumi və inzibati xərclər** | **11,114** | **10,483** |

## 26. DİGƏR XƏRCLƏR

| | 31 dekabr 2018-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2017-ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|
| Az hərəkətli mal-material ehtiyatlarının silinməsi | 485 | 1,328 |
| Digər | - | 8 |
| **Cəmi digər xərclər** | **485** | **1,336** |

## 27. DİGƏR GƏLİRLƏR

| | 31 dekabr 2018-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2017-ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|
| Subpodratçılara əmanətlər üzrə dəyərsizləşmənin bərpası | 427 | 90 |
| Materialların satışından daxilolmalar | 129 | - |
| Üçüncü tərəflərdən toplanmış cərimələr üzrə gəlirlər | 24 | 1,146 |
| Mal və material və digər xidmətlər üçün öncədən ödəmələr üzrə dəyərsizləşmənin bərpası | - | 11 |
| Digər | 5 | 21 |
| **Cəmi digər gəlirlər** | **585** | **1,268** |

## 28. MƏNFƏƏT VERGİSİ

Qrup ödəniləcək cari mənfəət vergisi, eləcə də aktiv və öhdəlikləri üzrə vergi bazalarını fəaliyyət göstərdiyi ölkələrin vergi qanunvericiliyinə əsasən hesablayır və uçotda əks etdirir ki, bu da MHBS-dən fərqli ola bilər.

Qrup bəzi xərclərin vergiyə cəlb olunmadığından və bəzi gəlirlərin vergi məqsədləri üçün vergidən azad olması nəticəsində daimi vergi fərqləri ilə üzləşir.

Təxirə salınmış vergilər maliyyə hesabatları məqsədləri üçün uçota alınan aktiv və öhdəliklərin balans dəyəri ilə verginin hesablanması məqsədilə istifadə edilən məbləğlər arasındakı müvəqqəti fərqlər üzrə xalis vergi təsirini əks etdirir. 31 dekabr 2018 və 2017-ci il tarixlərinə olan müvəqqəti fərqlər əsasən gəlir və xərclərin tanınması üzrə müxtəlif metodlar/zaman müddətləri, eləcə də müəyyən aktivlər üzrə vergi-uçot əsaslı fərqlərdən yaranan müvəqqəti fərqlər ilə əlaqəlidir.

Azərbaycan Respublikasının və Serbiya Respublikasının vergi qanunvericiliyi xüsusilə müxtəlif şərh və dəyişikliklər yarada bilər. Bundan əlavə, rəhbərliyin vergi qanunvericiliyi haqqında şərhləri vergi orqanlarının şərhlərindən fərqlənə bilər, əməliyyatlara vergi orqanları tərəfindən etiraz edilə bilər və nəticədə Qrupa bu maliyyə hesabatları üçün əhəmiyyətli ola biləcək vergi, cərimə və faizlər təyin edilə bilər.

Təxirə salınmış mənfəət vergisi üzrə qalıqlardakı ümumi hərəkət aşağıdakı kimidir:

| | **31 dekabr 2018-ci il tarixində başa çatmış il üzrə** | **31 dekabr 2017-ci il tarixində başa çatmış il üzrə** |
|---|---|---|
| **İlin əvvəlində** | **130** | **(10)** |
| Mənfəət və zərər hesablarına tutulmalar | (52) | (418) |
| **İlin sonunda** | **78** | **(428)** |

31 dekabr 2018 və 2017-ci il tarixlərinə olan müvəqqəti fərqlərə aşağıdakılar daxildir:

| | **31 dekabr 2018-ci il tarixində başa çatmış il üzrə** | **1 yanvar 2018-ci il tarixinə qalıq** | **1 yanvar 2018-ci il tarixinə 9 saylı MHBS-nin təsiri** | **31 dekabr 2017-ci il tarixində başa çatmış il üzrə** |
|---|---|---|---|---|
| **Vergi bazasını azaldan müvəqqəti fərqlər:** | | | | |
| Debitor borcları və digər alınacaq vəaitlər | 8,109 | 5,643 | 2,792 | 2,851 |
| Mal-material ehtiyatları | 2,462 | 2,232 | - | 2,232 |
| Digər öhdəliklər | 457 | 567 | - | 567 |
| Qeyri-maddi aktivlər | 19 | 10 | - | 10 |
| Mal-material ehtiyatları və digər xərclər üzrə avans ödənişləri | - | 1,065 | - | 1,065 |
| Subpodratçılarda saxlanılan əmanətlər | - | 1,077 | - | 1,077 |
| Əmlak, tikili və avadanlıqlar üzrə avans ödənişləri | - | 406 | - | 406 |
| Digər aktivlər | - | 569 | - | 569 |
| **Cəmi vergi bazasını azaldan müvəqqəti fərqlər** | **11,047** | **11,569** | **2,792** | **8,777** |
| **Vergi bazasını artıran müvəqqəti** | | | | |
| Əmlak, tikili və avadanlıqlar | (10,658) | (10,916) | - | (10,916) |
| **Cəmi vergi bazasını artıran müvəqqəti fərqlər** | **(10,658)** | **(10,916)** | **-** | **(10,916)** |
| **Xalis vergi bazasını artıran müvəqqəti fərqlər** | **389** | **653** | **2,792** | **(2,139)** |
| **Xalis təxirə salınmış vergi aktivi/(öhdəlikləri)** | **78** | **130** | **558** | **(428)** |

Maliyyə mənfəəti ilə mənfəət vergisi xərci arasında əlaqə 31 dekabr 2018 və 2017-ci il tarixlərində başa çatmış illər üzrə aşağıdakı kimi izah edilir:

| | 31 dekabr 2018-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2017-ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|
| **Mənfəət vergisindən əvvəl gəlir** | **3,670** | **10,959** |
| Qanunla müəyyən edilmiş vergi dərəcələri | 20% | 20% |
| Qanunla təyin edilmiş vergi dərəcəsi ilə nəzəri vergi | (734) | (2,192) |
| Daimi fərqlərin vergi təsiri | (152) | (277) |
| **Mənfəət vergisi xərci** | **(886)** | **(2,469)** |
| Cari mənfəət vergisi xərcləri | (834) | (2,051) |
| Təxirə salınmış mənfəət vergisi öhdəliyində dəyişiklik | (52) | (418) |
| **Mənfəət vergisi xərci** | **(886)** | **(2,469)** |

Cari vergi qanunvericiliyinə əsasən, Qrup şirkətlərinin müxtəlif vergi zərərləri və cari vergi aktivləri digər Qrup şirkətlərinin cari vergi öhdəlikləri və vergi tutulan mənfəətlərinə qarşı əvəzləşdirilə bilməz və müvafiq olaraq vergilər konsolidasiya edilmiş vergi zərərləri olduqda hesablanır.

Buna görə təxirə salınmış vergi aktivləri və öhdəlikləri yalnız həmin vergiyə cəlb olunan müəssisəyə aid olduqda əvəzləşdirilir.

## 29. TƏƏHHÜDLƏR VƏ ŞƏRTİ ÖHDƏLİKLƏR

Vaxtaşırı olaraq və adi fəaliyyətin gedişində Qrup müştərilərinin tələbatlarını qarşılamaq məqsədilə müəyyən şərti risklər yarada bilən, lakin maliyyə vəziyyəti hesabatında əks etdirilməyən maliyyə alətlərində tərəf kimi çıxış edir. Müxtəlif kredit risklərinə malik bu alətlər konsolidasiya edilmiş maliyyə vəziyyəti hesabatında öz əksini tapmamışdır.

Müştərilərin öhdəliklərini yerinə yetirə bilmədikləri hallarda, girov və zəmanətlərin dəyərsiz olduğu zaman şərti öhdəliklər və təəhhüdlər üzrə Qrupun maksimal kredit itkisi, bu maliyyə alətlərini yaradan müqavilələr üzrə göstərilən məbləğlər şəklində təyin edilir.

Qrup şərti öhdəliklər üzrə, maliyyə vəziyyəti hesabatında əks etdirilən öhdəliklərində tətbiq edilən kredit nəzarət və idarəetmə siyasətindən istifadə edir.

### Kapital öhdəlikləri

Qrupun 31 dekabr 2018 və 2017-ci il tarixlərində hazırlanmış kapital xərcləri üzrə əhəmiyyətli öhdəlikləri mövcud olmamışdır.

### Məhkəmə prosedurları

Vaxtaşırı olaraq və adi fəaliyyətin gedişində müştərilər və üçüncü şəxslər tərəfindən Qrupa qarşı iddialar irəli sürülür. Qrupun rəhbərliyi hesab edir ki, bu iddialarla bağlı heç bir əhəmiyyətli zərər baş verməyəcəkdir və müvafiq olaraq maliyyə hesabatlarında zərərlərin ödənilməsi üçün heç bir ehtiyat yaradılmamışdır.

**Vergi qanunvericiliyi**

Azərbaycan vergi qanunvericiliyindəki müddəalara bəzən müxtəlif şərhlər və dəyişikliklər edilir və bu dəyişikliklər müxtəlif mənalarda şərh edilə bilər və nəticədə Azərbaycan vergi orqanları bu müddəaları özləri hesab etdikləri kimi şərh edə bilərlər. Praktikada, Azərbaycan vergi orqanları belə hallarda adətən vergi ödəyicilərinin əleyhinə qərar çıxarırlar ki, nəticədə vergi ödəyiciləri öz hüquqlarını məhkəmə vasitəsilə müdafiə etməyə məcbur olurlar. Qeyd etmək lazımdır ki, Azərbaycan vergi orqanları məhkəmə orqanları tərəfindən təqdim edilmiş “haqsız vergi qazancı”, “əməliyyatın əsas kommersiya məqsədi” konsepsiyalarından və “əməliyyatın kommersiya mahiyyəti/(məqsədi)” kriteriyasından istifadə edə bilərlər.

Belə qeyri-müəyyənliklər, əsasən maliyyə alətlərinin/derivativlərin və transfer qiymətini təyin etmək məqsədilə əməliyyatın bazar qiymətinin istifadə edilməsi zamanı vergi qanunvericiliyinə uyğun olaraq edilmiş şərhinə aid edilə bilər. Bu hallar eləcə də kreditlər üzrə ehtiyatların yaradılması zamanı yaranan müvəqqəti fərqlərin və bunun vergi öhdəliyinə təsirinin vergi orqanları tərəfindən mənfəət vergisi bazasının bilərəkdən azaldılması kimi şərh edilməsinə aid edilə bilər. Rəhbərlik əmindir ki, bütün lazımi vergilər hesablanmış, öhdəliklər yaradılmışdır və ona görə də əlavə vergi ehtiyatının yaradılmasına ehtiyac yoxdur.

Ümumiyyətlə, vergi ödəyicilərinin audit tarixindən əvvəlki üç ilə aid maliyyə təsərrüfat fəaliyyəti vergi orqanları tərəfindən yoxlanıla bilər. Bundan əlavə, vergi yoxlamaları başa çatsa belə aparılmış yoxlamaların daha yüksək vergi orqanları tərəfindən yoxlanılması ehtimalı da istisna edilmir. Həmçinin, Azərbaycan Konstitusiya Məhkəməsinin qərarının müddəalarına əsasən vergi yoxlamasının əhatə etdiyi üç illik limit, məhkəmənin qərarına əsasən vergi ödəyicisinin vergi orqanlarını bilərək yanlış yönləndirdiyi və onlara yanlış yönləndirici məlumatlar verdiyi hallarda uzadıla bilər.

Həmçinin Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi tərəfindən verilmiş açıqlamaya əsasən, əgər məhkəmə, vergi ödəyicilərinin vergi yoxlamasına maneə törətdiyini müəyyən edirsə, vergi qanunvericiliyində göstərildiyi kimi vergi öhdəliyi üzrə iddia müddəti 3 il müddətinə kimi uzadıla bilər.

## 30. ƏLAQƏLİ TƏRƏFLƏRLƏ ƏMƏLİYYATLAR

MUBS 24 “Əlaqəli tərəflərlə bağlı qeydlər” standartının tələblərinə əsasən əlaqəli tərəflər və ya əlaqəli tərəflərlə əməliyyatlar aşağıdakılardan ibarətdir:

(a) Qrupun birbaşa, dolayısı yolla və ya hər hansı bir üçüncü tərəf vasitəsilə nəzarət etdiyi, nəzarətində olduğu və ya bərabər nəzarət altında olduğu tərəflər (buraya ana şirkətlər, törəmə müəssisələr, eyni səviyyədə olan törəmə müəssisələr aiddir); Qrupun fəaliyyətində marağı və bu fəaliyyətə əhəmiyyətli dərəcədə təsir göstərmək imkanı olan şəxslər; və Qrupun fəaliyyətinə ortaq nəzarət həyata keçirən şəxslər;

(b) Assosiasiya edilmiş müəssisələr – Qrup tərəfindən fəaliyyətinə əhəmiyyətli dərəcədə təsir göstərilə biləcək, lakin törəmə və ya birgə müəssisə olmayan tərəflər;

(c) Qrupun tərəf kimi çıxış etdiyi birgə müəssisələr;

(ç) Qrupun və ya ana şirkətin idarə heyətinin üzvləri;

(d) (a) və ya (ç) bəndlərində göstərilən şəxslərin yaxın ailə üzvləri;

(e) (ç) və ya (d) bəndlərində göstərilən şəxslər tərəfindən birbaşa və ya dolayısı yolla səsvermə hüquqlarının əhəmiyyətli hissəsini əlində cəmləşdirən nəzarətdə olan tərəflər, müəssisələr və birgə müəssisələr aiddir; və ya

(a) (ə) İş müddəti bitdikdən sonra Qrupun keçmiş işçiləri və ya Qrupun əlaqəli olduğu şəxs tərəfindən alınacaq mükafatlar.

31 dekabr 2018 və 2017-ci il tarixlərinə Qrup və digər əlaqəli tərəflər arasındakı əməliyyatların təfərrüatları aşağıda qeyd edilmişdir:

| | **31 dekabr 2018-ci il** | | **31 dekabr 2017-ci il** | |
|---|---|---|---|---|
| | **Əlaqəli tərəflərlə olan qalıqlar** | **Konsolidasiya edilmiş maliyyə hesabatlarında bu bənd üzrə cəmi məbləğ** | **Əlaqəli tərəflərlə olan qalıqlar** | **Konsolidasiya edilmiş maliyyə hesabatlarında bu bənd üzrə cəmi məbləğ** |
| **Verilmiş kreditlər** | | **4,302** | | **4,169** |
| *- Əlaqəli tərəflərə verilmiş kreditlər* | 4,302 | | 1,123 | |
| **Ümumi və inzibati xərclər** | | **11,114** | | **10,483** |
| *- Nümayəndəlik xərcləri* | - | | 62 | |
| **Maliyyə gəlirləri** | | **6** | | **7** |
| *- Əlaqəli tərəflərdən alınmış maliyyə gəlirləri* | 6 | | 7 | |

Direktorlar və rəhbərliyin əsas üzvlərinin mükafatlandırılması aşağıdakı kimi olmuşdur:

| | **31 dekabr 2018-ci il** | | **31 dekabr 2017-ci il** | |
|---|---|---|---|---|
| | **Əlaqəli tərəflərlə olan qalıqlar** | **Konsolidasiya edilmiş maliyyə hesabatlarında bu bənd üzrə cəmi məbləğ** | **Əlaqəli tərəflərlə olan qalıqlar** | **Konsolidasiya edilmiş maliyyə hesabatlarında bu bənd üzrə cəmi məbləğ** |
| **Əsas idarəetmə heyətinin kompensasiyası:** | | | | |
| *- qısa müddətli işçi müavinətləri* | 645 | **20,477** | 933 | **17,381** |
| **Cəmi** | **645** | **20,477** | **933** | **17,381** |

## 31. MALİYYƏ ALƏTLƏRİNİN ƏDALƏTLİ DƏYƏRİ

31 dekabr 2018 və 2017-ci il tarixlərinə Qrupun ədalətli dəyərdə ölçülən maliyyə alətləri mövcud olmamışdır.

Aşağıda qeyd olunmuş cədvəldə maliyyə alətlərinin ədalətli dəyəri ədalətli dəyərdə ölçülmür və hər bir ədalətli dəyər ölçməsinin təsnifləşdirildiyi ədalətli dəyər iyerarxiyasında mövcud olan səviyyələr ilə təhlil edilir.

| | | **Aşağıdakılardan istifadə etməklə ədalətli dəyərin ölçülməsi** | | | |
|---|---|---|---|---|---|
| | **Qiymətləndirmə tarixi** | **Fəal bazarda təyin olunmuş qiymətlər (Səviyyə 1)** | **Müşahidə edilə bilən əhəmiyyətli məlumatlar (Səviyyə 2)** | **Müşahidə edilə bilməyən əhəmiyyətli məlumatlar (Səviyyə 3)** | **Cəmi 2018-ci il** |
| **Ədalətli dəyərləri açıqlanan aktivlər** | | | | | |
| Verilmiş kreditlər | 31 dekabr 2018-ci il | - | - | 4,302 | **4,302** |
| Subpodratçılarda saxlanılan vəsaitlər | 31 dekabr 2018-ci il | - | - | 1,751 | **1,751** |
| Debitor borcları və digər alınacaq vəsaitlər | 31 dekabr 2018-ci il | - | - | 33,359 | **33,359** |
| Pul vəsaitləri və onların ekvivalentləri | 31 dekabr 2018-ci il | 18,908 | - | - | **18,908** |
| Digər maliyyə aktivləri | 31 dekabr 2018-ci il | - | - | 688 | **688** |
| **Ədalətli dəyərləri açıqlanan öhdəliklər** | | | | | |
| Subpodratçılardan alınmış vəsaitlər | 31 dekabr 2018-ci il | - | - | 579 | **579** |
| Maliyyə icarə öhdəliyi | 31 dekabr 2018-ci il | - | - | 5,156 | **5,156** |
| Borc alınmış vəsaitlər | 31 dekabr 2018-ci il | - | - | 6,989 | **6,989** |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | 31 dekabr 2018-ci il | - | - | 14,295 | **14,295** |
| Digər maliyyə öhdəlikləri | 31 dekabr 2018-ci il | - | - | 2,124 | **2,124** |
| Borc alınmış vəsaitlər | 31 dekabr 2018-ci il | - | - | 110 | **110** |

| | | Aşağıdakılardan istifadə etməklə ədalətli dəyərin ölçülməsi | | | |
|---|---|---|---|---|---|
| | **Qiymətləndirmə tarixi** | **Fəal bazarda təyin olunmuş qiymətlər (Səviyyə 1)** | **Müşahidə edilə bilən əhəmiyyətli məlumatlar (Səviyyə 2)** | **Müşahidə edilə bilməyən əhəmiyyətli məlumatlar (Səviyyə 3)** | **Cəmi 2017-ci il** |
| **Ədalətli dəyərləri açıqlanan aktivlər** | | | | | |
| Verilmiş kreditlər | 31 dekabr 2017-ci il | - | - | 4,169 | **4,169** |
| Subpodratçılarda saxlanılan vəsaitlər | 31 dekabr 2017-ci il | - | - | 892 | **892** |
| Debitor borcları və digər alınacaq vəsaitlər | 31 dekabr 2017-ci il | - | - | 44,025 | **44,025** |
| Pul vəsaitləri və onların ekvivalentləri | 31 dekabr 2017-ci il | 500 | - | - | **500** |
| Digər maliyyə aktivləri | 31 dekabr 2017-ci il | - | - | 308 | **308** |
| **Ədalətli dəyərləri açıqlanan öhdəliklər** | | | | | |
| Subpodratçılardan alınmış vəsaitlər | 31 dekabr 2017-ci il | - | - | 6,920 | **6,920** |
| Borc alınmış vəsaitlər | 31 dekabr 2017-ci il | - | - | 2,132 | **2,132** |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | 31 dekabr 2017-ci il | - | - | 22,959 | **22,959** |
| Ödəniləcək əmək haqları | 31 dekabr 2017-ci il | - | - | 1,315 | **1,315** |
| Digər maliyyə öhdəlikləri | 31 dekabr 2017-ci il | - | - | 180 | **180** |

**Ədalətli dəyərdə əks etdirilməyən maliyyə aktivlərinin və öhdəliklərinin ədalətli dəyəri**

Aşağıdakı qeydlər, maliyyə vəziyyəti haqqında hesabatda ədalətli dəyərdə əks etdirilməyən Qrupun maliyyə alətlərinin qalıq dəyərləri və ədalətli dəyərlərin növü ilə müqayisə edilir. Cədvəldə qeyri-maliyyə aktivlərinin və qeyri-maliyyə öhdəliklərinin ədalətli dəyərləri daxil deyildir.

**Ədalətli dəyəri qalıq dəyərinə yaxın olan aktivlər və öhdəliklər**

Likvid və ya ödəmə dövrü qısamüddətli (üç aydan daha az) olan maliyyə aktivləri və maliyyə öhdəlikləri üzrə hesab edilir ki, qalıq dəyərləri ədalətli dəyərlərinə yaxındır. Bu fərziyyə həmçinin xüsusi ödəmə müddəti və dəyişən dərəcəli maliyyə alətləri olmadan, depozitlərə də tətbiq edilir.

**Sabit və dəyişən dərəcəli maliyyə alətləri**

Fəal bazar qiyməti olan borc alətləri üzrə ədalətli dəyər təyin edilmiş bazar qiymətləri əsasında müəyyən edilir. Fəal bazar qiyməti olmayan borc alətlərinin ədalətli dəyəri, hal-hazırda oxşar şərtlər, kredit riski və qalan ödəmə müddəti üzrə borc üçün mövcud olan dərəcələr istifadə etməklə pul vəsaitlərinin gələcək hərəkəti azaldılmaqla qiymətləndirilir.

## 32. RİSKLƏRİN İDARƏ EDİLMƏSİ SİYASƏTİ

Qrupun fəaliyyəti üçün risklərin idarə edilməsi əməliyyatların mühüm elementini təşkil edir. Qrupun əməliyyatlarına təsir göstərəcək əsas risklər aşağıdakılardan ibarətdir:

- Kredit riski;
- Likvidlik riski;
- Bazar riski.

Qrupun rəhbərliyi anlayır ki, səmərəli risklərin idarə oluması sisteminə malik olmaq vacib şərtdir. Bu məqsədlə, Qrup rəhbərliyi risk idarəetmə qrupu yaratmışdır. Bu qrupun əsas məqsədi Qrupu ehtimal edilən risklərə qarşı qorumaq və ona qarşıda qoyulan hədəflərə çatmaq imkanı yaratmaqdır. Risklərin idarə olunması qrupu vasitəsilə Qrupun rəhbərliyi, aşağıdakı risklərin idarə olulnmasına nəzarət edir:

### Kredit riski

Qrup kredit riskinə məruz qalır ki, bu zaman maliyyə alətinə tərəf olan bir iştirakçı öz öhdəliyini yerinə yetirə bilmir və digər tərəf buna görə maliyyə zərərinə uğrayır.

### Maksimal kredit riski

Qrupun məruz qaldığı maksimal kredit riski fərdi risklərdən və ümumi iqtisadiyyatın daşıdığı risklərdən asılı olaraq əhəmiyyətli dərəcədə fərqlənir.

### Likvidlik riski

Maliyyə aktivləri və öhdəliklərin ödəmə müddəti üst-üstə düşmədikdə likvidlik riski risk kimi müəyyənləşdirilir. Likvidlik riski Qrupun maliyyə heyəti tərəfindən idarə olunur. Qrup likvidliyin idarə olunması üçün rəhbərliyi öhdəliklərin yerinə yetirilməsi üçün zəruri likvidlik aktivləri səviyyəsinin hesab edilməsini; maliyyələşdirmə vəsaitlərinin əldə olunması üzrə imkanların saxlanılmasını, idarəetmə qaydalarına qarşı təəhhüdlər planı və nizamnamə tələblərinə qarşı maliyyə vəziyyəti hesabatı likvidlik əmsalının monitorinqinin keçirilməsini tələb edir.

Likvidlik və faiz dərəcəsi risklərinin təhlilləri aşağıdakı cədvəldə qeyd olunmuşdur.

31 dekabr 2018-ci il tarixinə maliyyə aktivlərin və öhdəliklərin ödəniş qrafiki üzrə təhlili aşağıda göstərilən kimi olmuşdur:

| | **Orta çəkili effektiv faiz dərəcəsi** | **1 aya qədər** | **1 aydan 3 ayadək** | **3 aydan 1 ilədək** | **1 ildən 5 ilədək** | **31 dekabr 2018-ci il** |
|---|---|---|---|---|---|---|
| **Maliyyə aktivləri:** | | | | | | |
| Podratçılarda saxlanılan sonradan geri qaytarılması gözlənilən vəsaitlər | | - | - | 763 | - | 763 |
| Verilmiş kreditlər | 4.85% | - | - | 4,302 | - | 4,302 |
| Subpodratçılarda saxlanılan vəsaitlər | | 1,751 | - | - | - | 1,751 |
| Debitor borcları və digər alınacaq vəsaitlər | | 33,359 | - | - | - | 33,359 |
| Pul vəsaitləri və onların ekvivalentləri | | 18,908 | - | - | - | 18,908 |
| Digər maliyyə aktivləri | | 688 | - | - | - | 688 |
| **Cəmi maliyyə aktivləri** | | **54,706** | **-** | **5,065** | **-** | **59,771** |
| **Maliyyə öhdəlikləri:** | | | | | | |
| Subpodratçılardan alınmış vəsaitlər | | - | - | 579 | - | **579** |
| Maliyyə icarəsi öhdəlikləri | 2.74% | 146 | 307 | 1,448 | 3,255 | **5,156** |
| Borc alınmış vəsaitlər | 4.59% | 1,397 | - | 5,592 | - | **6,989** |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | | 14,295 | - | - | - | **14,295** |
| Ödəniləcək əmək haqları | | 2,124 | - | - | - | **2,124** |
| Digər maliyyə öhdəlikləri | | 110 | - | `- | - | **110** |
| **Cəmi maliyyə öhdəlikləri** | | **18,072** | **307** | **7,619** | **3,255** | **29,253** |
| Likvidlik boşluğu | | 36,634 | (307) | (2,554) | (3,255) | 30,518 |
| **Məcmu likvidlik boşluğu** | | 36,634 | **36,327** | **33,773** | **30,518** | |

31 dekabr 2017-ci il tarixinə maliyyə aktivlərin və öhdəliklərin ödəniş qrafiki üzrə təhlili aşağıda göstərilən kimi olmuşdur:

| | Orta çəkili effektiv faiz dərəcəsi | 1 aya kimi | 1 aydan 3 aya kimi | 3 aydan 1 ilə kimi | 31 dekabr 2017-ci il |
|---|---|---|---|---|---|
| **Maliyyə aktivləri:** | | | | | |
| Podratçılarda saxlanılan sonradan geri qaytarılması gözlənilən vəsaitlər | | - | - | 462 | 462 |
| Verilmiş kreditlər | 5.37% | - | - | 4,169 | 4,169 |
| Subpodratçılarda saxlanılan vəsaitlər | | 892 | - | - | 892 |
| Debitor borcları və digər alınacaq vəsaitlər | | 44,025 | - | - | 44,025 |
| Pul vəsaitləri və onların ekvivalentləri | | 500 | - | - | 500 |
| Digər maliyyə aktivləri | | 308 | - | - | 308 |
| **Cəmi maliyyə aktivləri** | | **45,725** | **-** | **4,631** | **50,356** |
| **Maliyyə öhdəlikləri:** | | | | | |
| Subpodratçılardan alınmış vəsaitlər | | - | - | 6,920 | 6,920 |
| Borc alınmış vəsaitlər | 3.5% | 2,132 | - | - | 2,132 |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | | 22,959 | - | - | 22,959 |
| Ödəniləcək əmək haqları | | 1,315 | - | - | 1,315 |
| Digər maliyyə öhdəlikləri | | 180 | - | - | 180 |
| **Cəmi maliyyə öhdəlikləri** | | **26,586** | **-** | **6,920** | **33,506** |
| Likvidlik boşluğu | | 19,139 | - | (2,289) | |
| **Məcmu likvidlik boşluğu** | | **19,139** | **19,139** | **16,850** | |

Likvidlik və faiz dərəcəsi üzrə təhlillər 7 saylı MHBS sandartına müvafiq olaraq aşağıda göstərilən cədvəllərdə təqdim edilmişdir. Bu cədvəllərdə əks edilən məbləğlər maliyyə vəziyyəti hesabatında əks etdirilən məbləğlərlə uyğun deyil, ona görə ki, aşağıdakı təqdimat maliyyə öhdəliklərinin maliyyə vəziyyəti hesabatında effektiv faiz üsulu əsasında təqdim edilmiş ümumi müqavilə üzrə qalıq ödənişlərini (faizlərin ödənişi daxil olmaqla) əks etdirən ödəniş müddətlərinin təhlillərini əhatə edir.

31 dekabr 2018-ci il tarixinə maliyyə öhdəliklərinin ödəniş müddəti üzrə təhlili aşağıda göstərilən kimi olmuşdur:

| | 1 aya qədər | 1 aydan 3 ayadək | 3 aydan 1 ilədək | 1 ildən 5 ilədək | 31 dekabr 2018-ci il Cəmi |
|---|---|---|---|---|---|
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | | |
| Maliyyə icarəsi öhdəlikləri | 151 | 319 | 1,503 | 3,382 | 5,355 |
| Borc alınmış vəsaitlər | 1,427 | 59 | 5,649 | - | 7,135 |
| **Cəmi faiz yaradan maliyyə öhdəlikləri** | **1,578** | **378** | **7,152** | **3,382** | **12,490** |
| Subpodratçılardan alınmış vəsaitlər | - | - | 579 | - | 579 |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | 14,295 | - | - | - | 14,295 |
| Ödəniləcək əmək haqları | 2,124 | - | - | - | 2,124 |
| Digər maliyyə öhdəlikəri | 110 | - | - | - | 110 |
| **CƏMİ MALİYYƏ ÖHDƏLİKLƏRİ** | **18,107** | **378** | **7,731** | **3,382** | **29,598** |

31 dekabr 2017-ci il tarixinə maliyyə öhdəliklərinin ödəniş müddəti üzrə təhlili aşağıda göstərilən kimi olmuşdur:

| | 1 aya qədər | 1 aydan 3 ayadək | 3 aydan 1 ilədək | 1 ildən 5 ilədək | 31 dekabr 2017-ci il Cəmi |
|---|---|---|---|---|---|
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | | |
| Borc alınmış vəsaitlər | 2,138 | - | - | - | **2,138** |
| **Cəmi faiz yaradan maliyyə öhdəlikləri** | **2,138** | **-** | **-** | **-** | **2,138** |
| Subpodratçılardan alınmış vəsaitlər | - | - | 6,920 | - | 6,920 |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | 22,959 | - | - | - | 22,959 |
| Ödəniləcək əmək haqları | 1,315 | | | | 1,315 |
| Digər maliyyə öhdəlikəri | 180 | - | - | - | 180 |
| **CƏMİ MALİYYƏ ÖHDƏLİKLƏRİ** | **26,592** | **-** | **6,920** | **-** | **33,512** |

## Bazar riski

Bazar riski bazar amillərindəki, o cümlədən valyuta məzənnələri, faiz dərəcələri və əmtəə qiymətlərindəki dəyişikliklərdən yaranır. Bu amillərdəki dəyişikliklər Qrupun gəlirlərinə və xərclərinə və ya maliyyə alətlərinin dəyərinə təsir göstərə bilər. Qrupun bazar riskinin idarə edilməsində məqsəd gəlirlərini optimallaşdıraraq bu riski məqbul olan parametrlər çərçivəsində saxlamaqdır.

## Material və xidmətlərin qiymət dəyişikliyi riski

Qrup tikinti işlərinin yerinə yetirilməsi zamanı, material və xidmətlərin qiymət dəyişikliyi riskinə məruz qalır. Qrup bu riskləri etibarlı və uzunmüddət ərzində biznes əlaqələrinin gücləndiyi təchizatçılarla işləməklə və daha yeni, daha səmərəli təchizat mənbələrin axtarışı vasitəsilə idarə edir.

**Faiz dərəcəsi riski**

Aşağıdakı cədvəl "risk göstəricisinin ehtimal edilən mümkün dəyişməsi" üsulu ilə hesablanmış və faizlərin dəyişməsinə Qrupun həssaslığını təqdim edir. Bu dəyişikliklərin həddi rəhbərlik tərəfindən təyin edilir və onlara təqdim edilən risk hesabatlarında öz əksini tapır.

**Vergidən əvvəlki zərərə təsiri:**

| | 31 dekabr 2018-ci il tarixinə | | 31 dekabr 2017-ci il tarixinə | |
|---|---|---|---|---|
| | Faiz dərəcəsi +1% | Faiz dərəcəsi -1% | Faiz dərəcəsi +1% | Faiz dərəcəsi -1% |
| **Maliyyə öhdəlikləri:** | | | | |
| Maliyyə icarə öhdəliyi | 52 | (52) | - | - |
| Borc alınmış vəsaitlər | 70 | (70) | 21 | (21) |
| **Əməliyyat mənfəəti üzərində xalis təsir** | 122 | (122) | 21 | (21) |

**Coğrafi konsentrasiya**

Rəhbərlik həmçinin qanunvericilik və tənzimləmə sahəsindəki risklərin idarə edilməsinə və bu risklərin Qrupun fəaliyyətinə təsirinə nəzarət edir. Bu nəzarət mexanizmi Qrupa Azərbaycan Respublikasında investisiya mühitinin dəyişməsindən yaranan ehtimal edilən zərərləri minimal həddə salmağa şərait yaradır.

Aktiv və öhdəliklərin coğrafi konsentrasiyası aşağıdakı cədvəldə göstərilir:

| | Azərbaycan Respublikası | İƏİT ölkələri | Digər qeyri İƏİT ölkələri | 31 dekabr 2018-ci il Cəmi |
|---|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | | |
| Müştərilərdə saxlanılan sonradan geri qaytarılması gözlənilən vəsaitlər | - | - | 763 | 763 |
| Verilmiş kreditlər | - | - | 4,302 | 4,302 |
| Subpodratçılarda saxlanılan vəsaitlər | 1,592 | 159 | - | 1,751 |
| Debitor borcları və alınacaq vəsaitlər | 17,442 | - | 15,917 | 33,359 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 576 | - | 18,332 | 18,908 |
| Digər maliyyə akitvləri | 83 | - | 605 | 688 |
| **CƏMİ MALİYYƏ AKTİVLƏRİ** | **19,693** | **159** | **39,919** | **59,771** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | |
| Subpodratçılardan alınmış vəsaitlər | - | - | 579 | 579 |
| Maliyyə icarə öhdəliyi | - | - | 5,156 | 5,156 |
| Borc alınmış vəsaitlər | 1,698 | - | 5,291 | 6,989 |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | 3,196 | 951 | 10,148 | 14,295 |
| Ödəniləcək əmək haqları | 2,099 | - | 25 | 2,124 |
| Digər maliyyə öhdəlikləri | 108 | - | 2 | 110 |
| **CƏMİ MALİYYƏ ÖHDƏLİKLƏRİ** | **7,101** | **951** | **21,201** | **29,253** |
| **XALİS MÖVQE** | **12,592** | **(792)** | **18,718** | |

| | **Azərbaycan Respublikası** | **İƏİT ölkələri** | **Digər qeyri İƏİT ölkələri** | **31 dekabr 2017-ci il Cəmi** |
|---|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | | |
| Müştərilərdə saxlanılan sonradan geri qaytarılması gözlənilən vəsaitlər | - | - | 462 | 462 |
| Verilmiş kreditlər | - | - | 4,169 | 4,169 |
| Subpodratçılarda saxlanılan əmanətlər | 892 | - | - | 892 |
| Debitor borcları və alınacaq vəsaitlər | 14,846 | - | 29,179 | 44,025 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 36 | - | 464 | 500 |
| Digər maliyyə akitvləri | 264 | - | 44 | 308 |
| **CƏMİ MALİYYƏ AKTİVLƏRİ** | **16,038** | **-** | **34,318** | **50,356** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | |
| Subpodratçılardan alınmış vəsaitlər | - | - | 6,920 | 6,920 |
| Borc alınmış vəsaitlər | - | - | 2,132 | 2,132 |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | 3,346 | 400 | 19,213 | 22,959 |
| Ödəniləcək əmək haqları | 1,133 | - | 182 | 1,315 |
| Digər maliyyə öhdəlikləri | 154 | - | 26 | 180 |
| **CƏMİ MALİYYƏ ÖHDƏLİKLƏRİ** | **4,633** | **400** | **28,473** | **33,506** |
| **XALİS MÖVQE** | **11,405** | **(400)** | **5,845** | |

## Xarici valyuta riski

Məzənnə fərqlərindən asılı olaraq maliyyə alətinin dəyərindəki dəyişmələr xarici valyuta riski adlanır. Qrupun maliyyə vəziyyəti və pul vəsaitlərinin hərəkəti mövcud valyuta məzənnələrinin dəyişməsi zamanı belə risklərin təsirinə məruz qalır.

Qrupun xarici valyuta məzənnələrinin dəyişməsi zamanı məruz qalacağı risklər aşağıdakı cədvəldə təqdim edilmişdir:

| | AZN | ABŞ dolları | Avro | Digər valyuta (RSD, KGS və UAH) | 31 dekabr 2018-ci il Cəmi |
|---|---|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | | | |
| Müştərilərdə saxlanılan sonradan geri qaytarılması gözlənilən vəsaitlər | - | 763 | - | - | 763 |
| Verilmiş kreditlər | - | - | 4,302 | - | 4,302 |
| Subpodratçılarda saxlanılan vəsaitlər | 1,591 | 160 | - | - | 1,751 |
| Debitor borcları və alınacaq vəsaitlər | 17,442 | 3,766 | - | 12,151 | 33,359 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 54 | 7,903 | 6,435 | 4,516 | 18,908 |
| Digər maliyyə aktivləri | 83 | - | - | 605 | 688 |
| **CƏMİ MALİYYƏ AKTİVLƏRİ** | **19,170** | **12,592** | **10,737** | **17,272** | **59,771** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | | |
| Müştərilərdə alınmış vəsaitlər | - | 18 | 504 | 57 | 579 |
| Maliyyə icarə öhdəlikləri | - | - | 5,156 | - | 5,156 |
| Borc alınmış vəsaitlər | 1,698 | - | 5,291 | - | 6,989 |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | 3,196 | 656 | 342 | 10,101 | 14,295 |
| Ödəniləcək əmək haqları | 2,099 | - | - | 25 | 2,124 |
| Digər maliyyə öhdəlikləri | 108 | - | - | 2 | 110 |
| **CƏMİ MALİYYƏ ÖHDƏLİKLƏRİ** | **7,101** | **674** | **11,293** | **10,185** | **29,253** |
| **AÇIQ VALYUTA MÖVQEYİ** | **12,069** | **11,918** | **(556)** | **7,087** | |

| | AZN | ABŞ dolları | Avro | Digər valyuta (RSD, KGS və UAH) | 31 dekabr 2017-ci il Cəmi |
|---|---|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | | | |
| Podratçılarda saxlanılan sonradan geri qaytarılması gözlənilən vəsaitlər | - | - | 462 | - | 462 |
| Verilmiş kreditlər | - | - | 3,899 | 270 | 4,169 |
| Subpodratçılarda saxlanılan vəsaitlər | 892 | - | - | - | 892 |
| Debitor borcları və alınacaq vəsaitlər | 14,846 | 2,043 | 26,553 | 583 | 44,025 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 28 | 4 | 5 | 463 | 500 |
| Digər maliyyə aktivləri | 264 | - | - | 44 | 308 |
| **CƏMİ MALİYYƏ AKTİVLƏRİ** | **16,030** | **2,047** | **30,919** | **1,360** | **50,356** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | | |
| Subpodratçılardan alınmış vəsaitlər | - | 1,592 | 4,429 | 899 | 6,920 |
| Maliyyə icarə öhdəlikləri | - | - | 2,132 | - | 2,132 |
| Borc alınmış vəsaitlər | 3,361 | 215 | 16,693 | 2,690 | 22,959 |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | 1,133 | - | - | 182 | 1,315 |
| Ödəniləcək əmək haqları | 154 | - | - | 26 | 180 |
| **CƏMİ MALİYYƏ ÖHDƏLİKLƏRİ** | **4,648** | **1,807** | **23,254** | **3,797** | **33,506** |
| **AÇIQ VALYUTA MÖVQEYİ** | **11,382** | **240** | **7,665** | **(2,437)** | |

**Xarici valyuta riskinə həssaslıq**

Aşağıdakı cədvəl Qrupun ABŞ dollarının və Avronun Azərbaycan manatına nisbətən məzənnəsində 10%-lik artmasına və ya azalmasına həssaslığını təhlil edir. 10% rəhbərlik tərəfindən xarici valyuta risklərini təhlil edərkən daxili risk hesabatlarında xarici valyuta məzənnəsinin dəyişməsinin Qrupa təsirini təhlil edərkən istifadə olunur.

Həssaslıq təhlili xarici valyutada olan monetar aktiv və öhdəliklərin hesabat tarixinə qalıq dəyərindən istifadə edir və bu dəyəri məzənnədəki 10%-lik dəyişiklik üçün uyğunlaşdırır. Əgər xarici ölkələrə verilən kreditlər və xaricdəki əməliyyatlar üzrə verilən kreditlər borc verənin və ya borc alanın valyutasında deyilsə bu məbləğlər də həssaslıq təhlilinə daxil edilir.

| | 31 dekabr 2018-ci il tarixinə | | | | | |
|---|---|---|---|---|---|---|
| | **AZN/ABŞ dolları +10%** | **AZN/ABŞ dolları -10%** | **AZN/Avro +10%** | **AZN/Avro -10%** | **AZN/Digər +10%** | **AZN/Digər -10%** |
| Mənfəət vergisindən əvvəl mənfəət üzrə xalis təsir | 1,192 | (1,192) | (56) | 56 | 709 | (709) |

| | 31 dekabr 2017-ci il tarixinə | | | | | |
|---|---|---|---|---|---|---|
| | **AZN/ABŞ dolları +10%** | **AZN/ABŞ dolları -10%** | **AZN/Avro +10%** | **AZN/Avro -10%** | **AZN/Digər +10%** | **AZN/Digər -10%** |
| Mənfəət vergisindən əvvəl mənfəət üzrə xalis təsir | 24 | (24) | 767 | (767) | (244) | 244 |

**Qiymət riski**

Qiymət riski bazar qiymətlərinin dəyişməsi nəticəsində, bu dəyişikliklərin konkret qiymətli kağıza və ya onu yerləşdirən tərəfə məxsus amillərdən və ya bazarda alınıb-satılan bütün qiymətli kağızlara təsir göstərən amillərdən asılı olaraq, maliyyə alətinin dəyərinin dəyişməsi ilə əlaqədar riskdir. Qrup ümumi və ya xüsusi bazar dəyişmələrindən yaranan qiymət risklərinə məruz qalır.

**Kapitalın idarə edilməsi**

Kapitalın idarə edilməsində Qrupun məqsədləri onun fəaliyyətinin davam etmək qabiliyyətini qorumaq üçün iştirakçıların mənfəətini qaytarmaq və cəlb olunmuş və şəxsi vəsaitlərin optimal strukturunun qorunmasıdır.

Qrupun rəhbərliyi mütəmadi olaraq öz kapitalının strukturunu təhlil edir. Bu təhlilin nəticələri əsasında Qrup kapital balansının cəmi strukturunun saxlanmasına yönəldilmiş tədbirlər həyata keçirir.

Qrupun əsas maliyyə öhdəlikləri borc öhdəlikləri, maliyyə lizinqi öhdəlikləri və kreditor borcları və ödəniləcək digər vəsaitlərdir. Bu maliyyə alətlərinin əsas məqsədi Qrupun fəaliyyəti üçün vəsait cəlb etməkdir.

Qrup kapital məbləğini risklər üzrə nisbətlər vasitəsilə müəyyən edir. Qrup kapital strukturunu idarə edir və iqtisadi şəraitdəki dəyişikliklər və əsas aktivlərin risk xüsusiyyətləri nəzərə alınmaqla ona düzəlişlər edir. Kapital strukturunu qorumaq və ya düzəlişlər edilməsi üçün Qrup yeni səhmlər buraxa bilər, aktivləri sata, borcunu azalda bilər və ya borcunu artıra bilər.

**Həssaslıq təhlilinin məhdudiyyətləri**

Yuxarıda göstərilən cədvəllərdə qeyd olunan təsirlər yalnız bir təxminin dəyişməsini və bu zaman digər təxminlərin sabit qaldığını nəzərdə tutur. Reallıqda isə, təxminlər və digər faktorlar arasında korrelyasiya mövcuddur.

O da qeyd edilməlidir ki, bu həssaslıq münasibətləri xətti şəkildə deyil, və bu nəticələri daha böyük və ya daha kiçik təsirləri ölçmək üçün interpolyasiya və ya ekstrapolyasiya etmək olmaz.

Həmçinin, həssaslıq təhlilində Qrupun aktiv və öhdəliklərini mütəmadi olaraq idarə etməsi nəzərə alınmır. Əlavə olaraq, Qrupun maliyyə vəziyyəti istənilən zaman faktiki bazar dəyişmələrinin nəticəsində dəyişə bilər. Məsələn, Qrupun maliyyə risklərinin idarə olunması strategiyası, bazardakı dəyişikliklərdən yaranan risklərə qarşı Qrupu qorumağı qarşısına məqsəd qoyur. İnvestisiya bazarlarında müşayiət edilən düşmələr zamanı qiymətlər müəyyən həddin altına düşdükdə, rəhbərlik investisiyaların satılmasına, investisiya portfelinin strukturunun dəyişdirilməsinə qərar verə bilər və ya digər qoruyucu qərarlar qəbul edə bilər. Nəticədə, aktivlər bazar dəyəri ilə göstərildiyinə görə, təxminlərdə baş verən dəyişikliklər öhdəliklərə faktiki təsir göstərməyə bilər. Bu kimi hallarda, öhdəlik və aktivlərin ölçülməsində istifadə edilən müxtəlif üsullar səhmdar kapitalında böyük dəyişikliklər yarada bilər.

Yuxarıda göstərilən həssaslıq təhlilinin digər məhdudiyyətlərindən biri Qrupun təxminlərinə görə ehtimal edilən riskləri təqdim etmək məqsədilə yalnız qısa müddətdə bazar dəyişmələri ilə əlaqədar proqnozlaşdırılması çətin olan fərziyyələrdən istifadə etməsidir. Bu zaman təxmin edilir ki, bütün faiz dərəcələri eyni qaydada və istiqamətdə dəyişir.

## 33. HESABAT DÖVRÜNDƏN SONRAKI HADİSƏLƏR

15 may 2019-cu il tarixində, Bosniya və Herseqovina Federasiyasının Dövlət Avtomagistralları Müəssisəsinin Vranduk-Poşirak rayonunda, A1 Poprikuse-Zenica Sever (Don Gracanica) magistralının tikintisi ilə bağlı 76,6 milyon Avro (86 milyon ABŞ dolları məbləğində) saziş imzalanmışdır. Avtomagistralın bu hissəsinin tikintisi Azərbaycan-Herseqovina konsorsiumu "Azvirt" MMC və "Herrinq" D.D. şirkətləri arasında yaradılmış konsarsium tərəfindən həyata keçiriləcək. 49.6 milyon Avro məbləğində olan ümumi maliyyələşdirilmə "OPEC"-in "Beynəlxalq İnkişaf Fondu" (OBİF), Neft İxracatçısı Ölkələri Təşkilatının ("NİÖT") üzv ölkələrinin infrastruktur layihələrinin maliyyələşdirilməsi qurumu tərəfindən həyata keçiriləcəkdir.

2019-cu il ərzində Qrupun Direktorlar Şurası 64 min AZN məbləğində dividend elan etmişdir.